
Şuşa
Elşad Barat
ÖLÜMSÜZLƏR
QARABAĞ AZƏRBAYCANDIR!
II CİLD


Şuşa



# QARABAĞ AZƏRBAYCANDIR!

**ELŞAD BARAT**

# ÖLÜMSÜZLƏR

***2-ci cild***

QAF

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 130025

Təhsil

BAKI–2023

63.3(5Aze)622,8+84(5Aze)
B25

Müəllif və redaktor:
**Elşad Barat**

E46 **Elşad Barat.**
**Ölümsüzlər. 2-ci cild.** Bakı, "Təhsil", 2023, 328 səh.

E $\frac{4702060204}{053}$ 2023

ISBN: 978-9952-36-997-7

© Elşad Barat, 2023
© "Təhsil", 2023

## ZƏFƏR YOLUMUZUN SÖZ ŞƏKLİ



Şanlı ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə 30 illik həsrətə son qoydu, Qarabağda tarixi qələbə qazandıq. Pənah xanın doğulduğu, Natəvanın, Üzeyirin yaşadığı tarixi yurdumuzu geri qaytardıq. 30 ildir həsrətini çəkdiyimiz Şuşa, Laçın, Kəlbəcər və digər işğal altında olan rayonlarımız düşməndən 44 günə təmizləndi. Bütün xalqımız kimi Azərbaycan yazıçılarının da 30 ilə yaxın müddətdə qəlbində daşıdığı acı, nisgil, həsrət, nəhayət sona yetdi.

Müharibələr, savaşlar itkisiz olmur. Biz də qələbə qazandığımız İkinci Qarabağ savaşında üç minə yaxın şəhid verdik. Şəhidlər ölmür! Kitablarda, tarixdə, ürəklərdə, vətənin canında yaşayır. Bu kitab da şəhidlərin ölməzliyinə, tarixləşməsinə, ürəklərdə yaşamasına bir nümunədir.

İstedadlı qələm sahibi Elşad Barat bu kitabda yüzə yaxın şəhidimizə şeir yazıb. Şəhidlərə həsr olunmuş şeirlər onların həyat və döyüş yolu haqqında geniş məlumatla yanaşı bu kitabda cəmlənib. Bu şeirləri müəllif sanki bir gözündə kədər, bir gözündə zəfər sevinci ilə yazıb. Eyni mövzuda onlarla, yüzlərlə şeir yazmaq çox çətin məsələdir, amma Elşad Barat bunu bacarıb.

**Anar**

*Azərbaycan Yazıçılar Birliyinin sədri*
*Xalq yazıçısı*

## "DƏMİR YUMRUĞ"UN SÖZ SİQLƏTİ



27 sentyabr 2020-ci il tarixi bir dönəmin başlanğıc günüdür. Bu başlanğıc, eyni zamanda, bir dönəmin də qapandığını ifadə etməkdədir. Həmin gün başlamış və 44 gün davam etmiş II Qarabağ müharibəsi başlamaya bilərdimi? Ermənistanın Azərbaycan torpaqlarını işğalının aradan qaldırılmasının qeyri-hərbi yolu mümkün idimi? Suallar çoxdur ancaq bu yöndə bütün mümkün sualların bir kamil cavabı var: Azərbaycan torpaqlarının 20 faizini işğal edən Ermənistanı, dünya erməniliyini, onların havadarlarını dayandırmaq mütləq lazım idi və Azərbaycan bunu bacardı! Qaçınılmaz müharibədə Azərbaycan, demək olar, mümkünsüzü mümkün etdi: bizə qarşı işğalçılıq edən yalnız Ermənistan özü deyildi, erməni qiyafəsinə girmiş qarışıq güclər topluluğuydu. – "Qarışıq" deyirik, çünki, orada toplanmış güclərin başqa ünvanlarda bir-biri ilə maraqları toqquşsa da, anti-Azərbaycan mövqeyində işbirliyi, sözbirliyi görünürdü... Bizim işimiz haqq işiydi və bu bizə ilahi güc verirdi! Dövlət-xalq birliyi, öz gücünə güvən, öz işinə inam xarüqələr yaratdı – 30 illik işğal 44 gün işində aradan qaldırıldı!

Müzəffər Ali Baş Komandanın başçılığı ilə Azərbaycan ordusu şanlı tarix yazdı, torpaqlarımız ard-arda azad edildi. Uzun illər aparılan dərin siyasət, ordu quruculuğu, diplomatik münasibətlər öz uğurlu məntiqi sonluğuna yetişdi.

BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi (822, 853, 874, 884) 27 il kağız üzərində qalmışdı. 2020-ci il sentyabrın 27-də başlayan müharibə Azərbaycan Ordusunun parlaq Zəfəri ilə başa çatdı. Azərbaycan BMT-nin (digər beynəlxalq qurumların, quruluşların) edə bilmədiyini özü təkbaşına yerinə yetirmiş oldu!



Bəli, bütün maraqlı tərəflər bir daha gördü ki, Azərbaycan xalqı böyük xalqdır, ədalətli xalqdır. Xalqımızın mərhəməti, xeyirxahlığı, qədim tarixə və mədəniyyətə malik olması ədalətli sülhü təmin etməsində bazis rolu oynadı. Biz XXI yüzilin müharibəsini aparmış olduq – vandallara, soyqırım aktları törətmiş ermənilərə, bir sözlə, işğalçılara qarşı müharibədə yüksək mədəniyyət, əsalət nümayiş etdirdik. – Biz mülki insanlara toxunmadıq, mülki infrastruktura zərbə vurmadıq və işğalçıların Gəncəyə, Bərdəyə qadağan-olunmuş raketlərlə zərbələrinə də məhz müharibə meydanında cavab verdik! Bu, Azərbaycan fərqi, azərbaycanlı əyarı, türk-islam əxlaqının təntənəsiydi!

44 günün və Zəfərin rəmzi olan Dəmir Yumruq yalnız hərbi gücü deyil, birliyi, həmrəyliyi, iradəni də ifadə edir! Heç təsadüfi deyil ki, işğalçı dünyadakı çox nadir monoetnik dövlətlərdən biri, bizim coğrafiyada isə yeganə monoetnik dövlətkən, qalib Azərbaycan etnik zənginliyə, dini dözümlülüyə örnək ölkədir! Paytaxt Bakı dünyanın mədəniyyətlərarası, sivilizasiyalararası dialoq məkanlarından biri, bir çox amilə görə birincisidir.

Bəşəriyyət tarixboyu müxtəlif xalqların, liderlərin Zəfər salnaməsinin yaranmasına şahidlik edib. Özəlliklə də, vətənin bütövlüyünü, dövlətin siyasi ləyaqətini qorumaq üçün milli mübarizəyə qalxan bir sıra xalqlar tarix yazmaq və tarixə yazılmaq şərəfinə nail olub. Güclü lideri, sarsılmaz milli birliyi olan və qüdrətli dövlətə malik xalqların haqq mübarizəsini qalibiyyətə çevirməsi dünya tarixinin özünəxas fəslini təşkil edir.

Artıq Qarabağda, Gündoğar Zəngəzurda erməni işğalçılıq mədəniyyətsizliyindən Azərbaycan quruculuq mədəniyyətinə, azadlıqdan



abadlığa keçid mərhələsindəyik. Özü də, bu iş sürətli və keyfiyyətli şəkildə, yüksək zövqlə həyata keçirilir, keçmiş məcburi köçkünlər öz yurd-yuvalarına ləyaqətlə qayıdır.

Zəfərimiz də, Zəfərsonrası həyata keçirilən böyük quruculuq, qayıdış strategiyası da uşaqdan böyüyə (və hansı sənətə sahib olmasından asılı olmayaraq), bütün azərbaycanlıların taleyindən keçən bir işə dönüb. Biri əsgər olaraq öncəbhədə vuruşur, biri sözü ilə vuruşur, amma hamı müəyyən şəkildə mübarizənin, qurtuluşun, qayıdışın və Zəfərin bir mədəni irsə çevrilməsinin iştirakçısı olur.

Düşmən üzərində Zəfəri, şübhəsiz, qəhrəman Azərbaycan əsgəri qazandı, şanlı ordumuz və ordunun Müzəffər Ali Baş Komandanı qazandı. Otuz il boyunca Azərbaycan ədəbiyyatı, jurnalistikası da susmadı, mübarizə apardı. Şair-yazıçılarımız, mədəniyyət işçilərimiz, incəsənət xadimlərimiz də öz mənəvi borclarının gərəyini yapdı. Şair-yazıçılarımız, digər yaradıcı insanlarımız



şəhid və qazilərimizdən, döyüşən əsgərlərimizdən dünən olduğu kimi, bu gün də yazır-yaradır.

Yeni nəsil şairlərimizdən Elşad Barat da bu illər boyu sözü ilə ön cəbhədə olub, qələmi, ruhu ilə əsgərlərimizin yanında olmağa, yazıları ilə ordumuza mənəvi dayaq durmağa çalışıb. Elşad Baratın şəhidlərə həsr etdiyi şeirləri "Ədəbiyyat qəzeti"ndə, sosial media-da oxumuşam. Mən onun hər şəhidə şeir həsr etmək, hər şəhidimizin həyat və döyüş yolunu poetik ifadəyə çalışmaq əzmini qədirşünaslıq olaraq qiymətləndirirəm.

Əlbəttə, müəllif artıq ikinci cildi gün üzü görən "Ölümsüzlər" **kitabını ərsəyə gətirənədək xeyli** zəhmətə qatlanıb. **Hər şəhid haqqında oxumaq,** özkeçmişini öyrənmək, şəhidin doğmaları ilə **tanış** olub, ovqatlaşmaq, bilgi əldə etmək, nəhayət **qəhrəmanlıq**ları **səciyyələndirmək şairdən** istedad, **bacarıq** və **məsuliyyət tələb edir.** Elşad Barat **bu** mənəvi **yükü** şüurlu şəkildə üstənib və xəlqi duyğularını, vətəncanlılığını poetikləşdirməyi bacarıb, bu yaradıcı **işin** də **öhdəsindən təmkinlə gəlib.**

Şəhidlərimizin ruhu şad olsun!

**Qənirə PAŞAYEVA**

*Milli Məclisin Mədəniyyət Komitəsinin sədri*

## SÖZLƏ SİLAHIN VƏHDƏTİ



Vətən müharibəsi bütün vətəndaşların müdafiəsidir. Yəni ölkənin uşaqdan böyüyə və hansı sənətə sahib olmasından asılı olmayaraq, bütün insanların taleyindən keçən bir işdir. Biri əsgər olaraq ön cəbhədə vuruşur, biri sözü ilə vuruşur, amma hamı müəyyən şəkildə müharibənin iştirakçısı olur. Düşmən üzərində qələbəni şübhəsiz ki, Azərbaycan əsgəri qazandı, ordumuz qazandı, Ali Baş Komandan qazandı. Azərbaycanın müttəfiqlərinin mənəvi dəstəyi bu mənada böyük rol oynadı. Eyni zamanda, ölkə şairlərinin, yazıçılarının illər boyu apardığı ədəbi mübarizə də ciddi rol oynadı. Otuz il ərzində Azərbaycan sözü, Azərbaycan jurnalistikası susmadı. Onlar da ön cəbhədə oldu. Yazıçılarımız şəhid və qazilərimizdən, döyüşən əsgərlərimizdən hərə öz bacardığı qədər yazdı.

Mənim yaxından tanıdığım və qələminə hörmət etdiyim Elşad Barat da bu illər ərzində sözü ilə ön cəbhədə olub, qələmi, ruhu ilə əsgərlərimizin yanında olub, yazıları ilə ordumuza mənəvi dayaq olmağa çalışıb. Mən onun bir nəsr kitabı ilə tanışam. Hərçənd ki, əvvəl şair kimi tanımışam, oxumuşam, sonra hekayələr kitabını oxuyanda görmüşəm ki, Elşad həm də istedadlı bir nasirdir. Kitabına ön söz də yazmışam. Kitabda ən xoş nüans odur ki, sanki o hekayələr nəsr iddiası ilə yazılmır. Duyğuları çox sadə və hamıya çatan bir formadadır. Amma onun içində də yüksək poetiklik və bədiilik var. Ona görə də Elşad həm nasir, həm də şair kimi çağdaş ədəbiyyatımızda söz sahiblərindən biridir.

Bu gün də əsgərin yanında olan, əsgərin yanına tələsən qələm sahiblərindən biri Elşad Baratdır. Müharibə zamanı mən onun



yazılarını, şeirlərini oxuyurdum. Amma mənə ən çox maraqlı olan, diqqətimi çəkən məqam Elşad Baratın müharibədən sonra şəhidlərin hər birinə bir şeir həsr edəcəyini yazması idi. Bu məsələ çox çətin öhdəlikdir.

Elşad Baratın şəhidlərə həsr etdiyi şeirlərin "Ədəbiyyat" qəzeti, sosial mediada oxumuşam və bir hissəsi də əlimdədir. Mən onun bəyanatını oxuyanda bu çox absurd görünmüşdü, amma şeirlərini oxuyanda görürəm ki, bu, əslində, Elşadın havadan danışması deyilmiş. O öz real gücünü hesablayıb və bu gücə əsasən danışıb.

Bu şeirlər hansı qəzəbdən, əsgərin yanında olmaq istəyinin hansı mərtəbəsindən xəbər verir, şəhidlər üçün hansı yanğıdan doğur – bu, geniş mövzudur. Şeirlərdən belə görünür ki, Elşad o şəhidlərdən biri olmaq, onlarla birlikdə vuruşmaq istəyərdi. Görünür ki, Elşad sinəsini düşmən gülləsinə sipər etməyi bacaran gənclərimizdəndir. Amma onun taleyi ayrı olduğuna, sözlə vuruşduğuna görə özünü şəhidlərdən ayırmamaq üçün onları öz ürəyindən, qələmindən keçirir.

Bu kitabda Elşad Baratın şəhidlərə yazdığı ön söz də çox poetik və təsirlidir. Bu yazıda kitabın ümumi ruhu əks olunub. Bur da o təkrar-təkrar yazır ki, cəbhədəyəm. Doğrudan da, Elşad müharibənin qızğın vaxtları cəbhəyə gedib və bu şeirlərdə də cəbhədədir. Çünki bu şeirlərin ruhu cəbhə ruhudur. İkinci Dünya Müharibəsində şair, yazıçılarımız çox yazılar yazıblar, amma burada faşizm qonşumuz Ermənistandır. Ermənistanın iç üzünü açmaqda bu şeirlər oxucuya yardımçı olur.

Bu şeirləri təhlil etmək çox çətindir. Gərək hər bir bənd, misra haqqında xeyli danışasan. Mənə elə gəlir ki, şəhidlik bunun ümumi adıdır, ümumi taleyidir, amma hər birinin arxasında bir insan dayanır, bir xarakter, bir uşaq, bir ailə var. Ona görə də ümumi sözlər deyib keçmək olmaz, hər bir şəhidin taleyinə işıq tutmaq lazımdır. Şəhidlərin portreti çəkilməlidir, şəhidlər orda

görünməlidir. Hamısı qəhrəmanlıq göstərib, hamısı şəhid olub. Ailəsinin qəlbinə su səpmək, ailəsinin gözündə o şəhidin, o gəncin portretini yaratmaq və elə bir portret ki, ailəsinin dilində əzbər olsun, çox çətin işdir. Şəhid şeirlərində Elşad Barat buna nail olub. Hər bir şeiri oxuyanda o gənci, o şəhidi görürsən. Onun şəhidlik mərtəbəsinə yüksələn yollarını görürsən. Mən buna çoxlu misallar çəkə bilərəm.

*Bir igid tanıyıram,*
*Arzusu, kamı boyda.*
*Bir igid tanıyıram,*
*Özü vətən boydadır,*
*Məzarı hamı boyda.*

*Bir igid tanıyıram,*
*Ölməzlik qalasıdır.*
*Məqsədindən, yolundan*
*Dönməzlik qalasıdır.*

*Səninlə fəxr edirik,*
*Ey müqəddəs ruh təbib!*
*Dağlardan uca təbib!*
*Çaylardan duru təbib.*

Elə bu şeirin üç bəndindən görünür ki, şəhidimiz həkim olub. Və ya,

*Bizimləsən, dəyişmir*
*Şəhid dünyanı, qardaş.*
*Dayan, dayan, qoy baxım,*
*Barmağın hanı, qardaş?!*



Yəni bu şeirlərdə yığcam misralarla şəhidin necə yaralanmasını, hansı yollar keçməsini, döyüş səhnəsinə qədər Elşad verə bilib. Hətta bir barmağını da itirməsini gözəl misralarla göstərə bilib:

*Səndən öncə barmağın*
*Qarışıbdır vətənə.*
*Neçə güllə sığırmış*
*Görəsən, bir bədənə?*

Və ya, –

*Salam, zəfər qazisi,*
*Vətən şəhid, can şəhid.*
*Özün asimandasan,*
*Adın Asiman, şəhid.*

O, beləcə şeirlərin hər birində şəhidin xarakterini, obrazını, portretini canlandırıb:

*Elə baxma şəkildən,*
*Dayanır zaman, şəhid.*
*Təbəssümü yandıran,*
*Baxışı donan şəhid.*

Burada artıq şəhidin real portreti ilə yanaşı söz portreti də çəkilib.

Hərə bu müharibədən yanğısını bir cür söndürürdü. Məsələn, mən bu müharibədə bir poema yazdım. Hardasa üstündən 3-4 gün keçəndən sonra istədim ki, ora bir bənd əlavə edim, amma alınmadı. Çünki o vulkan gəlib keçmişdi. Yəni o qələbə sevinci, o duyğu, quruculuq işlərinin yaratdığı hisslər keçmişdi. Onu ilhamla

sonradan yazmaq çox çətindir. Ona görə Elşad Barat bu şeirləri mütəmadi yaza bilirsə, ürəyini boşaldırsa, bu, onun böyük istedadından xəbər verir. Bəlkə o, heç şəhidlərin hamısı haqqında yaza bilməyəcək, arzusunu yerinə yetirə bilməyəcək, əsas odur ki, yazdığı şeirlərdə şəhidliyin vətəndaşlıq anlamı, həm dini, həm mənəvi, həm də tarixi baxımdan bütün tərəfləri və bizim üçün nə qədər müqəddəs bir iş olduğu görünür. Bu kitab Azərbaycanın gələcək taleyində gənclərimizin şəhidlik yolunu həmişə uca tutmalarını təbliğ edir. Vətən varsa, o qorunmalıdır! Qoruyacaqsansa, ölümitim də olacaq! Qələbəmizdən çox keçməyib, amma bu gün görürsən ki, qazilərin xırda maddi ehtiyacları, çətinlikləri, bəzi idarələrin laqeydliyi adamlarda etiraz doğurur. Bu cür poetik şeirlər şəhid mərtəbəsinin ucalığını göstərməli və xalqın ruhunda olan müharibə əzminin daim ayaqda olmasına kömək etməlidir.

Məncə, Elşad Barat sonralar özü üçün təəccüblü olacaq bir iş görüb. Bəlkə,o şeirlərin bəziləri bəsit görünə bilər. Amma o şeirlərdə konkret talelər var, onlar konkret insanlara həsr olunub. Elşad qələbəmiz üçün vuruşmuş insanlara borcunu verib. Bu gələcəkdə bizi gözləyə bilən təhlükələrdə qələm adamlarının cəbhədə vuruşan əsgərlərlə bir olmasına örnəkdir. Sözü ilə silahı bir olan millət basıla bilməz! Bu birlik əbədi olmalıdır!

**Sabir Rüstəmxanlı**

*Xalq şairi, millət vəkili*



## ŞƏHİD ODALARI



Şeirləri və hekayələri ilə mətbuatda imzasını sevdirən Elşad Baratın "Bumeranq" adlı nəsr kitabını da əldə edib dərhal oxumuşam. Bəri başdan deyim ki, elə bu nümunələr də istedadlı bir gəncin ürək çırpıntılarıdır. Elşad süni surətdə sujet quraşdırmır, müşahidə etdiyi hadisələri təkrar-təkrar öyrənir, özünəməxsus şəkildə, ustalıqla onlara don biçə-biçə qələmə alır. Bu onda çox təbii alınır.

Müəllifin 44 günlük vətən müharibəsində qələmə aldığı şeirlərini isə bütöv şəkildə "Şəhid odası" adlandırmaq olar. Bu bədii yazıların qiyməti həm də ondadır ki, zəfər tariximizin şanlı səhifələrini əks etdirir. Əslində, bu odalar ayrı-ayrı elegiyalardır. Hər şeir bir şəhidə həsr olunub və sanki onun boyuna biçilib, obrazını tamamlayıb.

Elşad Barat çox vətənpərvər, yurdsevər, Azərbaycanımıza canıyla-qanıyla bağlı bir yazardır. Onun ayrı-ayrı bölgələrimizdə doğulan, böyüyən, əsgərlik həyatı keçən şəhidlərimizə həsr olunan şeirlərinin əksəriyyəti "Ədəbiyyat qəzeti"ndə dərc olunub. Sağ olsun Azər Turan, bu əsərlərə ilkin meydan açıb, geniş imkan verib.

Elşad Baratın nakam qəhrəmanları tələbə gənclərdir, bığ yeri yenicə tərləmiş oğlanlardır, kişilik məktəbi adlandırılan əsgərlik həyatı keçən cavanlardır. Onlar vətənin ağır günündə silaha sarılıblar, əllərində üçrəngli bayraq tutub, Ali Baş Komandanın çağırışına səs veriblər, yurd uğrunda döyüşlərə atılıblar və ölməzlik zirvəsinə könüllü yüksəliblər.

Şairin "Şəhid Əkbər Hüseynli" şeiri yanıqlı bir bayatı qədər təsirlidir. Sözsüz, müəllif şifahi xalq ədəbiyyatımızın ənənələrindən bəhrələnib. Formaca yeddilik adlanan şeir belə başlanır:

*Mən səni tanıyıram,*
*Zəfər, qələbə şəhid.*
*Mən səni tanıyıram,*
*Salam, tələbə şəhid.*

*Kağız diplomu alan,*
*Çoxdu, neçə nəfərdi?*
*Amma sənin diplomun,*
*Şuşadı, Kəlbəcərdi.*

Bu son eyham dil pəhləvanlarına, qaçıb orda-burda gizlənənlərə ünvanlanıb. Vətən hamınındır, onun keşiyini hər kəs çəkməlidir. Ancaq tələbə təhsilini yarımçıq qoyub, vətən uğrunda özünü oda, alova atırsa, bu, qəhrəmanlıqdır, igidlikdir, şücaətdir, bu hərəkət alqışa layiqdir.

*Mən səni tanıyıram,*
*Torpağın canındasan.*
*Ananın yuxusunda,*
*Tanrının yanındasan.*

Digər bir oda "Şəhid Ənvərli Aqşin" adlanır. Odlu sətirlərdən, bənd-bənd hörülmüş misralardan aydın olur ki, bu Qarabağ döyüşlərinin qəhrəmanı hərbi həkimdir. Baş leytenant kimi ən qızğın döyüşlərə sinə gərib. Onlarla igid vətən övladının xilaskarına çevrilib. Yaralı yoldaşlarına, dostlarına ilkin tibbi yardım göstərib, axırda taleyinin amansız sınağı ömrünə son qoyub, həlak olub, vida deyib.



*Səninlə fəxr edirik,*
*Xalqın qüruru təbib.*
*Dağlardan uca təbib,*
*Çaylardan duru təbib.*

Adlar rəngarəng, soyadlar müxtəlif: Şəhid Xansu Qurbanov, Şəhid İsmayıl Qəsəbov, Şəhid Elzamin Təhməzov, Şəhid Cəmil Məmmədli, Şəhid Yasin Məmmədov, Şəhid Rəşidzadə Səid, Şəhid Hüseynli Əkbər, Şəhid Quliyev Vüqar, Şəhid Eldarzadə Azər, Şəhid Qənimətov Ətraf, Şəhid Ənvərli Aqşin, Şəhid Abakarov Nail, Şəhid Abasov Ağababa, Şəhid Abasov Ayaz, Şəhid Mayılov Bəxtiyar, Şəhid Asiman Əliyev, Şəhid Cəbrayıl Dövlətzadə, Şəhid Mehrab Niftəliyev, Şəhid Ramil Yusifzadə, Şəhid Musayev Ələkbər, Şəhid Əlizadə Tahir, Şəhid Ələkbərov Vüqar, Şəhid Mürsəliyev Sübhi, Şəhid Yusifzadə Xudayar, Şəhid Aslanov Tural, Şəhid Xalid Hassan, Şəhid Nurlan Ağakişiyev, Şəhid Arəstə Baxışova, Şəhid Yüksəl Əlizadə, Şəhid Beyrək Feyzullayev... bunlar hələ qəhrəmanların az bir hissəsidir. Əbədiləşən ömürlər, tarixə çevrilən igidlik epizodları, qanlı döyüş səhnələri, adi həyat detalları, sevgi dolu məktublar, şəhidlərə həsr olunmuş əsərlərdə bütün bunlar hamısı var.

Şəhid Xudayar Yusifzadə. Əslən Bərdə rayonundan olan, orda doğulub boya-başa çatan, musiqi məktəbi bitirən bu cavan sonsuz arzularla yaşayırdı. O, xanəndəlik sinfini bitirmişdi, məlahətli səsi Xudayarın yaxşı ifaçı kimi yetişdiyini təsdiq etmişdi. Qanlı davaşavaya da ürəklə, nikbin əhval-ruhiyyədə, oxuya-oxuya yollanmışdı.

*Mahnısını dinlədim,*
*Bağrım başı qan oldu.*
*Özü tarixə döndü,*
*Səsiylə dastan oldu.*



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İnv. № 130025

Neynəyəsən ki, müharibənin öz sərt qanunları var, odlu silah rəhm tanımır. Xudayar Əliağa Vahidin sözlərinə bəstələnmiş "Vətən görünür" mahnısını şövqlə, xoş ovqatla ifa edirdi və döyüş tapşırığını yerinə yetirərkən bülbül cəh-cəhi ilə oxuyan əsgər-xanəndə qızıl gülləyə tuş gəldi. İfası da ömrü kimi, diləkləri kimi yarımçıq qaldı. Ancaq o yarımçıq mahnı indi Azərbaycanın bütün guşələrinə yayılıb. Hər ailədən, hər mənzildən, evdən, ocaqdan Xudayarın ecazkar ifası, qu nəğməsi eşidilir.

*Üzündə təbəssümü,*
*Gülləyə qarşı çıxdı,*
*Vətənpərvər ifası,*
*Qələbə marşı çıxdı.*

*Neçə belə mahnını,*
*Özüylə apardı o,*
*Savaşın ortasında,*
*Sevməyi bacardı o.*

Şəhid Xaliqi də Azərbaycan eşqi cəbhəyə çəkib. Səkkiz aylıq körpəsi yadigar qalan könüllü əsgərin övladını bütün məmləkət əzizləyir, gözünün üstündə saxlayır. Elşad Barat Xaliq Hassanın mübarizliyini, vətən, ata-ana sevgisini odlu dillə təsvir edir, ali mənsəbə yüksəlmiş cəsur igidimizi "cənnət quşu" adlandırır:

*Necədir anan üçün,*
*Yuxu olmaq, səs olmaq?*
*Necədir vətən üçün,*
*Ölüb müqəddəs olmaq?*

Məlumdur ki, İkinci Qarabağ savaşında cəsur oğlanlarımızla çiyin-çiyinə qızlarımız da döyüşlərə qatılmış, həkim, tibb bacısı



kimi Hippokrat andını yerinə yetirmiş, ən qaynar nöqtələrdə borclarını sədaqətlə ödəmiş, ölüm-itimə belə məhəl qoymamışlar. Şəhid Arəstə Baxışova da bu cür igid müharibə qəhrəmanlarımızdan biridir.

*Bir də gəl, anam qadın,*
*Bir də gəl, qardaş qadın.*
*Saçları müharibə,*
*Gözləri savaş qadın.*

Onu da unutmayaq ki, Elşad Barat bu kitabı ərsəyə gətirənədək xeyli əziyyətə qatlaşmışdır. Hər şəhid haqqında oxumaq, tərcümeyi-halını tapıb ondan istifadə etmək, qəhrəmanlığını səciyyələndirmək, fərqləndirmək şairdən məsuliyyət, bacarıq tələb edir. İstedadlı qələm adamı bu yükü qaldırmağı bacarmış, işinin öhdəsindən təmkinlə gəlmişdir.

Mən əminəm ki, bu kitab geniş oxucu sevgisi qazanacaq, hər şəhid ailəsinin evinin, ocağının bəzəyinə çevriləcə. Uğur olsun, Elşad Barat!

**Ağacəfər Həsənli**

*Şair*

## ALİ BAŞ KOMANDANIN SƏSİ

*(Vətən müharibəsi zamanı döyüş bölgəsindən reportaj əvəzi)*

Cəbhə bölgəsindəyəm. Yaşlı həmyaşıdları Mərdan kişini az qala uşaq kimi danlayırlar ki, sən niyə zəri cütləyirsən, elə hey şeş-qoşa atırsan? Mərdan kişi hərdən bığının altında gülsə də, öz etirazından qalmır. Özü də yaman nərd atır, atdığı zərlər taxtanın üstündə şaqqıldayıb gedir. Kənd müəllimi qulağıma pıçıldayır: "Fikir vermə, bunlar elə həmişə nərd oynayanda dava salırlar".

Kənd camaatı öz işinin başındadır.

Hərdən cavanlar bir yerə toplaşıb telefonda nəyəsə baxır, sonra "urra", "halaldır", "eşq olsun" deyirlər. Bu dəfə mən də yaxınlaşdım. Birtəhər boylandım ki, Müdafiə Nazirliyinin səhifəsində erməni toplarının vurulması videosuna baxırlar. Toplantının sevincək hissəsinə mən də qatıldım. Gənclərin üzündəki birlik və qələbə təbəssümü bizi daha da doğmalaşdırdı.

Üzərində üç səsucaldan olan bir maşın var. Vətənpərvərlik ruhunda və qələbə dolu elə gözəl mahnılar oxuyur ki, adam az qalır, maşını qucaqlayıb öpsün.

Hər kəsin qapısında, pəncərəsində bayraq dalğalanır. Bütün kəndlər qələbə bayraqları ilə bəzədilib.

Mərdan kişinin nərd atmasına bir az da baxdım, sonra ordakılarla sağollaşıb ayrıldım. İsti təndir çörəyinin ətri məni çəkib kəndin başına qədər apardı. Təndirin başında yaşlı bir nənə var. Dilində dua, əlində çörək. Adı Səringüldü. Hər gün 100 çörək bişirib isti-isti əsgərlərə yollayır. Mənə də çörək verdi. Havadakı təndir çörəyinin ətrinə qələbə qoxusu qarışır.



Cəbhədəyəm.

Yoldan əsgər maşını keçəndə hamı ona tərəf qaçır. Kimi yemək, kimi papaq, kimi siqaret verir. Adamlar az qalır ki, öz canını da əsgər maşınına atsın.

Əsgərlərin səsləndirdiyi "qələbə bizimdir, bizim olacaq" şüarı Səringül nənənin gözlərində ikicə damla sevinc göz yaşlarına çevrilir. Amma o özünü elə aparır ki, guya gözünü təndirin tüstüsü qapdı.

Bu gün ad günümdür. 33-cü yaşıma ilk addımımı atıram. Ağlım kəsəndən bəri Azərbaycan xalqını bu qədər birlik, bərabərlik, ittifaq halında görməmişəm.

Xalq o qədər birdir ki, küsülü qonşular da barışıb, ayrılmış sevgililər də qovuşub, sonuncu çərşənbə kimi bütün küsülülər qucaqlaşır və hər kəs yalnız qələbə istəyir.

Cəbhədəyəm.

İndicə dedilər ki, ermənilər öz tanklarını vurub.

Ordumuzun gücünü görən düşmən başını itirib, özü özünü məhv edir.

Ölkənin hər bir yerindən insanlar cəbhə ərazisinə axışır. Onlar sanki hansısa müqəddəs ziyarətgaha gəlirlər.

Cəbhədəyəm.

Açığını deyim ki, bir anlığa savaşın içindən təbəssüm və qələbə ruhu ilə dönən əsgərlərin palçıqlı çəkmələrini öpmək istədim. O çəkmələrin üzərində işğaldan azad olunmuş

Cəbrayıl torpağı da var.

Bir əsgərin üzündən qələbə, bir əsgərin üzündən qisas hissi, birinin gözlərindən Vətən eşqi, birindən savaş andı, qələbə andı, digərindən birlik qətiyyəti görmək olur. Həm də bütün əsgərlərin üzündə xalq-ordu birliyinin sevinci var.

Əsgərlərin üzündəki qələbə sevinci səngərdən Bakıya qədər uzanır.

Sanki Ali Baş Komandanın dilindən çıxan döyüş əmri səngərdəki sonuncu əsgərə qədər işıq saçır, ümid yolu açır, qələbə sevinci yaşadır.

Cəbhədəyəm.

Özümə siqaret almaq üçün yaxındakı mağazaya getdim. Mağazanın önündə yaşlı bir kişi oturub. Hörmətlə salam verdim. O isə qarşılığında məni təbrik etdi. Öncə elə bildim ki, yaşlı dayı doğum günüm olduğunu bilir. Təşəkkür etmək istədim. Amma onun mənim doğum günüm olduğunu bilməsi mümkün deyildi. Tez özümü yığışdırdım, başa düşdüm ki, bu, qələbə təbrikidir. Jurnalist jiletimin cibindən bir qələm çıxarıb, vətənin ad gününə görə dayıya hədiyyə verdim və ona daha böyük təşəkkür etdim.

Məncə, işğalda olan torpaq yaşamır. Orada bitən canlılar ölü doğulur. Torpağın işğaldan azad olunduğu gün isə vətənin doğum günüdür.

Cəbhədəyəm.

Yenə danışan maşın.

Özümü səs gələn tərəfə atdım. Böyük bir maşının üstündə top lüləyinə oxşayan üç səsucaldan var və milli vətənpərvərlik ruhunda gözəl mahnılar oxunur. Top lüləsinə oxşayan yerdən çıxan səs düşmənə güllə kimi dəyir, mənim isə sinəmə yağ kimi yayılır. Yaxınlaşıb əlimi təkərinə qoydum, danışan, mahnı oxuyan maşının təkərindən öpdüm.

Cəbhədəyəm.

Ermənilər bizim yaşayış məntəqələrimizi atəşə tutur. Atdıqları mərmilərin çoxu partlamır, zaydı, sovetdən qalıb.

Bizim əsgərlər onların mərmilərinin çoxunu göydə məhv edir. Elə bil quş vururlar. Bütün cınaqlarda, bütün tərəflərdə biz qalibik.



Əsgərimiz erməni əsgərini məhv edir, tankımız erməni tankını, topumuz erməni topunu. Təbiət də sanki haqq işimizdə bizim tərəfimizdədir. Günəş bizim əsgərlərə gülümsəyir. Onların üstünə isə leysan yağır. Bu leysan həm də bizim atdığımız mərmi leysanıdır.

Sanki Kəlbəcərin dağları bütöv vətənin qalxanına çevrilib. Sanki Şuşanın meşələri ermənilərin üstünə nərə çəkir. Sanki Laçının çayları hirsindən daha gur axır ki, vətən torpağından düşmənin ayaq izlərini silsin.

Cəbhədəyəm.

Oturub əsgərlərimizdən qələbə xəbəri gözləyirəm. Hər açılan atəş mənə güc verir. Əsgərimizin atdığı hər güllə qələbəmizin bir zərrəsidir.

Ermənilər yenə də dinc sakinlərə atəş açır. Mərdan kişinin nərd üstünə atdığı zərin səsi isə o atəş səslərini susdurur.

Yenə də mahnı oxuyan, danışan maşın.

Birdən Ali Baş Komandanın səsi gəlir:

**“Qarabağ bizimdir!**
**Qarabağ Azərbaycandır!”**

## EY VƏTƏN

Tarix boyu yaşadar hər milləti,
Bayraq arı, torpaq arı, qeyrəti.
Qırx dörd günə otuz illik həsrəti,
İgidlərin sona çəkdi, ey vətən!
Zəfər yolun mübarəkdi, ey vətən!

Haqqa dönər haqq yolundan axan güc,
Zəfər tapar haqqa doğru baxan güc.
Bir millətin birliyindən doğan güc,
Bütövlükdə özün dərkdi, ey vətən!
Zəfər yolun mübarəkdi, ey vətən!

Nə sirr varsa torpağında, daşında,
Fəsillərin payızında, qışında.
Şuşan bizim bağrımızın başında,
Xarıbülbül gülü əkdi, ey vətən!
Zəfər yolun mübarəkdi, ey vətən!

Torpaq o vaxt vətən olur, olur can.
Biz hamımız can deyirik, qana qan.
Hər igidin tarix yazan qəhrəman.
Hər şəhidin bir mələkdir, ey vətən!
Zəfər yolun mübarəkdi, ey vətən!

Tarix boyu qarış-qarış gedən sən.
Zaman-zaman həsrət gülü bitən sən.
Zəngəzurdan Təbrizəcən vətənsən.
Bütövlüyün uzun çəkdi, ey vətən!
Zəfər yolun mübarəkdi, ey vətən!



## "ŞUŞA" POEMASI

***1752.***
Qayalara verildi can.
Qılıncıyla dağ gülünə,
Salam dedi Pənahəli xan.

Günəş doğdu,
Gül mayası,
Çiçək açdı,
Hər qayası.

Sanki göylər elçi düşdü,
Burda şəhər yarat dedi,
Əvvəl-əvvəl kimi Şuşa,
Kimi Pənahabad dedi.

Heçnədən salındı şəhər,
Dağ üstünə dağ tikdilər.
On yeddi məhəllə salıb,
Məscid və bulaq tikdilər.

Oldu ticarət şəhəri,
Bəzədildi sirlər ilə,
Moskvadan İranacan,
Hamı gəlib dostluq etdi,
Şuşalı tacirlər ilə.

İllər keçdi,
Heyran etdi,
Özünə hər kəsi Şuşa,
Həm oldu bütün Qafqazın,
Musiqi mərkəzi Şuşa.

Mədəniyyət,
İncəsənət,
Tarixdə qaldı əbədi,
Kimi "kiçik Paris" dedi,
Kimisi "sənət məbədi".

*1905-20,*
*1992.*
Qəlbindən vuruldu Şuşa.
Üç dəfə talan edilib,
Tamam yandırıldı Şuşa.

Son dəfə silmək istədi,
Şuşada qala izimi,
Tarixi abidələri,
Erməni vandalizmi.

Vaqifin məqbərəsiydi,
Şuşamızın can sarayı,
Natavanın evi yandı,
Pənahəli xan sarayı.

Anaların qucağından,
Çırpıldı daşa balası,
İllər ilə əsir qaldı,
Vətənin Şuşa balası.

***2020-cən,***
Bəyim, xanım əsir qaldı,
Molla Pənah Vaqifimlə,
Natavanım əsir qaldı.
Dur ayağa, yetər artıq,
Dur, Azərbaycan əsgəri.
Baş komandan əmr verdi,
"Vur, Azərbaycan əsgəri".



Nəhayət, olundu azad,
İllərin əsir Şuşası,
Vaqifin şeir şəhəri,
Natavanın pir Şuşası,
Ağır oldu daşın, Şuşa,
Nələr çəkdi başın, Şuşa?
Pənahəli xan qurmuşdu,
Ermənilər yandırmışdı,
İllər üzdü Şuşam səni,
Pənahəli xandan sonra,
Qurdu İlham Paşam səni.

* * *

Günəş Şuşa, bağça Şuşa, bar Şuşa,
Namus Şuşa, qeyrət Şuşa, ar Şuşa,
Qəlbi geniş, küçələri dar Şuşa,
Gəlmişəm ki, yollarına sarılım.

Zülmətimiz sübhə gedir, danlanır.
Torpaq o vaxt vətən olur, qanlanır.
Daş qayalar çiçək açıb canlanır,
Qalx ayağa dağlarına sarılım.

* * *

## ŞUŞANIN DAĞLARI

Şuşada şəhid olmuş Milli qəhrəman Sayadov Mehman Qəzənfər oğluna

***9 may 1992-ci il...***

Şuşa işğal olunmuşdu. Hər yanda erməni əsgərləri var idi. Onlar qarşılarına çıxanı öldürür, hər yeri dağıdıb yandırırdılar.

Mehman hələ də Şuşadaydı. O, müharibəyə gələndə əslən şuşalı olan sevdiyi qıza söz vermişdi ki, Şuşasız qayıtmayacaq.

İşğal olunmuş Şuşada qalan bir Şuşa dağları idi, bir də Mehman. Əl-ələ verib düşmənə qarşı savaşırdılar. Mehman öncə Sarı dağın qoynuna çəkilmişdi. Sanki hücuma keçmək üçün dağlarla məsləhətləşirdi.

Sabaha yaxın Sarı dağın ətəyində qan su yerinə axırdı. Dağlardan güc alan Mehman düşmənə hücum çəkmişdi. Təkbaşına ordu kimi savaşırdı. Onlarla erməni məhv etdi. Düşmən bölüyünü viran qoydu. Üç saata yaxın davam edən döyüşdə bir tərəfdə Ermənistan ordusu, digər tərəfdə Mehman və Şuşa dağları var idi.

Həmin gün Mehman yoxa çıxdı. Ermənilər nə qədər axtardılarsa, tapa bilmədilər. Elə bil Mehman da dağa çevirilmişdi.

***7 iyun 1992-ci il...***

Şuşanın dağlarına çevirilməsindən bir ay sonra Bakıda Mehmana "Milli qəhrəman" adı verdilər. Şuşanın dağlarına çevirildiyi üçün...

Mehmanın anası oğlunun qəhrəman medalını öpüb gözlərini yumaraq sinəsinə elə basdı ki, elə bil Şuşanın dağlarını qucaqladı.

Şuşalı qız Şuşanın dağlarına məktub yazdı ki, səni gözləyəcəm...

***5 noyabr 2020-ci il...***

Azərbaycan əsgəri Şuşaya daxil oldu. 10403 gündən sonra Şuşa azad edildi. Hər yanda Azərbaycan əsgərləri var idi. Onların arxasında dağ kimi dayanan Şuşa dağları görünürdü. Başı dumanlı azad dağlar elə mehriban dayanmışdılar ki, elə bil sevincdən qucaqlaşmışdılar. Sanki Şuşalı qız Şuşanı azad edib qayıdan Mehmana sarılmışdı...



## AĞDAM POEMASI

Əzizinəm, Ağdama,
Qara dama, ağ dama.
Səni viran qoyanın,
Gözlərinə ağ dama.

Əzizim yollar məni,
Uzağa yollar məni,
Otuz ildir gözləyir,
Ağdamda yollar məni.

Əzizim bağrı yanar.
Düz yanar, doğru yanar.
Mən biraz da geciksəm,
Ağdamın bağrı yanar.

### 1

Yuxu getmir gözümə,
Qəribə təhərim var.
Səhər açılan kimi,
Ağdama səfərim var.

Bir dəfə getməmişəm,
Görməmişəm Ağdamı,
Dağlar səs-səsə durub,
Torpaq çəkir adamı.

Vətən belə olurmuş,
Həyəcandan əsirsən,
Ayağın dəymədiyi,
Yollara tələsirsən.

Tələsirsən özünə,
Tələsmək yedi məni,
Dualarla gözləyir,
Cümə məscidi məni.

Pənahəli tikdirən,
Xan sarayı gözləyir,
Vətənin ruh şəhəri,
Can sarayı gözləyir.

Gözləyir, ya gecikəm,
Ya tələsəm, yaxşıdır?!
Hələ səhərə qalıb.
Mürgüləsəm yaxşıdır.

**2**

Az qalıbdır, birazdan,
Söküləcək dan yeri.
Orda bizi gözləyir,
Qarabağın can yeri.

Hamıdan tez oyanıb,
Gəldim vədə yerinə,
Bura vədələşmişik,
Xəzərin sahilinə.

Hələ ki, yoxdur gələn,
Gözüm yolları çəkir,
Biraz mən tələsmişəm,
Biraz onlar gecikir.



Odur gəlir bir nəfər,
Yolu Ağdam yoludur.
Dayan, dayan, qoy baxım,
Bu ki, Vüsal Nurudur.

Bir-birinin dalınca,
Bacı-qardaşlar gəlir.
Şairlər, bəstəkarlar,
Heykəltəraşlar gəlir...

Artıq saat yeddidir,
Yoxdur vədinə xələf.
İndicə qalxar maşın,
Üzü Ağdama tərəf.

**3**

Bəlkə hamıdan qabaq,
Aparsın külək məni.
Yollar boyu izləyir,
İki kəpənək məni.

İstəmirəm heçnə ta,
Bu gözəl adamlarla,
Gözəl səfər bəsimdi,
Şair, bəstəkar, rəssam, –
Sözdü, səsdi, rəsmdi.

Birimiz şeir yazar,
Birimiz rəsm çəkər.
Bu ağ kəpənəkləri,
Ovucuma kim çəkər?

Kim çəkər, hansı rəssam?
Yollara izimizi.
Ağdamın dağlarına,
Zəfər tariximizi.

Çəkməyə gərək də yox,
Şuşadan üzü bəri,
Düşmənlərə dağ çəkdi,
Azərbaycan əsgəri.

Çəkə-çəkə çəkmişik,
Sərhədləri, almışıq.
Nəisə, mən gedirəm,
Ağdama az qalmışıq.

**4**

Qarşımda dayanıbdır,
Cəsarət kompleksi.
Pənahəli şahımın,
İmarət kompleksi.

Qulağıma səs gəlir,
Obaların köçündən,
Kimlər keçib görəsən,
Bu qalanın içindən?

İndicə xatirimə,
Gələn hər kəs qayıdır,
Xudu Məmmədov gedir,
Qulu Ağsəs qayıdır.



Qayıdır divarlardan,
Üstümə haqqın özü,
Yazılıb hər daşına,
Tarixin vətən sözü.

Bu qalanın tarixi,
Məni hara yollayır?!
Güllər təbəssüm edir,
Çiçəklər əl yelləyir.

Daşa dönmüş tarixdir,
Ölkədə hər qalamız.
Bu da tarixin özü,
Pənahəli xan evi,
Ağdam zəfər qalamız.

**5**

Vətən şəhid qanıdır,
Şəhid vətənin canı.
İndi ziyarətimiz,
Şəhidlər Xiyabanı.

Hamı ziyarət edir,
Ocaq kimi, pir kimi,
Allahverdi Bağırov,
Öndə komandir kimi.

Hər kəsin iç dünyası,
Göz yaşından bilinir.
Ruhların şad olması,
Başdaşından bilinir.

Biri körpə uşaqdır,
Biri yaşlı anadır,
Daşlar çiyin-çiyinə,
Məzarlar yan-yanadır.

Bu məzarın adı yox.
Vətən mənasıdır bu.
Bəlkə də bir ananın,
İtkin balasıdır bu.

Hər kimdirsə şəhiddir,
Başımızın tacıdır.
Zəfər savaşının da,
İtgiləri acıdır.

Acılarla böyüyür,
Analara tən olur.
Tökülsə şəhid qanı,
Torpaq da vətən olur.

**6**

Bu yerləri gördüm ya,
Buna görə tanrıya,
Min dəfə şükür düşür.
Məni bura göndərən,
Şair Rəşad Məcidə,
Böyük təşəkkür düşür.

**7**

Burda mənə ən gözəl,
Hissləri Ağdam verir.
Şəhərin baş planı,
Adama ilham verir.



İşlər çoxdan başlayıb,
Lil sular durulacaq.
Ağdam ağ şəhər kimi,
Yenidən qurulacaq.

Bu dağılmış evlərin,
Ağrıları keçəcək,
Yüz min ev tikiləcək,
Yüz min ailə köçəcək.

Köçəcək öz yurduna,
Ağdamlı soydaşımız,
Qalmayacaq evindən,
Uzaq vətəndaşımız.

Bu sökülmüş evin də,
Yerində ev tikilər.
Həyətində ağaclar,
Gül-çiçəklər əkilər.

Qayıdar Səməd kişi,
Toy edər nəvəsinə,
Qollarını qaldırar,
Oynayar beləsinə.

**8**

Vətənin yaşı olmur,
Amma ki, abidələr,
Göstərir əsrimizi.
İndi də qarşılayır,
Şahbular qəsri bizi.

Bu nə səsdir, ilahi,
Qala divarlarına,
Sanki çiçək toxuyur,
Sanki Arif Babayev,
Bizə muğam oxuyur.

Çiçəklər pıçıldaşır,
Gül danışır gül ilə.
Sanki şeir oxuyur,
Şahmar Ələkbərzadə,
Çiçəklərin diliylə.

Hərdən mən də coşuram,
Bir şeir oxuyuram,
Çayın şırıltısından,
Mənsum İbrahimovun,
Muğam səsin duyuram.

Duyuram ayrılığın,
Qovuşmağın səsini,
İlhamla Fərizənin,
Məhəbbət nağməsini.

**9**

Durun öpək yolların,
Daşını, yola düşək,
Qədir dayı, işə sal,
Maşını, yola düşək.

Zaman quş kimi uçdu,
Su kimi axdı gəldi.
Qayıdırıq Bakıya,
Ayrılıq vaxtı gəldi.



Sağ ol, Cümə məscidi,
Pənahəli xan evi,
Sağ ol, Şahbulaq, sağ ol, –
Ağdamımın can evi.

* * *

Mən aşiqəm salınır,
Torpaq belə alınır,
Ağdamın sinəsində,
Yeni şəhər salınır.

Mən aşiqəm olacaq,
Hər iş yerin alacaq.
Ağdam öncəki kimi,
Gözəl şəhər olacaq.

Mən aşiqəm Ağdama,
Dərə, təpə, dağ dama.
Doymadım havasından,
Bir də gedək Ağdama.

## ŞƏHİD ANALARINA

Ey şəhid doğan ana!
Əbədi ucalmısan,
Günəşə, aya qədər,
Sənin balan apardı,
Bizi Şuşaya qədər.

Aparsa da saçının,
Qarasını bu dünya,
Qoparsa da qəlbinin,
Parasını bu dünya.

Sənə səcdə eləyir,
Bütün fəsillər indi,
Azad quşlar, ağaclar,
Çiçəklər, güllər indi.

İndi neçə ana var,
Sənə oxşamaq istər?!
İndi neçə körpə var,
Şəhid doğulmaq istər?!

Hər kəsin qismətinə,
Saçları ağ yazılmır,
Şəhid anası olmaq,
Vətən olmaq yazılmır.



Ey şəhid doğan ana!
Sənin yerin vətənin,
Ürəyinin başında,
Adın qızıl hərflə,
Tarixin yaddaşında.

Şəhid doğmaq, doğulmaq,
Müqəddəslik, böyüklük,
Ucalıq mənasıdır,
Şəhidlərin anası,
Vətənin anasıdır.



## KÖRPƏ ŞƏHİD QIZLARINA

O da atasıyla yatır hər gecə,
Nə olsun, danışmır şəkil atası.
Hər gün qucaqlayır çərçivəsini,
Yatır, yuxusuna gəlir atası.

Görüşüb yuxuda söhbət edirlər:
"Çatmayır ümidim, xəyalım sənə".
Az qalır kövrələ şəhid balası,
Ata dillənir ki, nə alım sənə?

Heç nə istəmirəm, atacan, heç nə,
Təkcə sarıldığım "rəsmdi" mənim.
Bircə saatlığa olsa da olar,
Sən elə özün gəl, bəsimdi mənim.

Anam da darıxır səninçün, ata,
Çiçəklər düzübdü eyvanımıza.
Səni gözləyirik, sındır şüşəni,
Çıx bu çərçivədən, gəl yanımıza.



# ŞƏHİDLƏR

## Nadirli Kənan İlqar oglu



İnsan mənəviyyatını müəyyən edən, zənginləşdirən önəmli əxlaqi prinsiplərdən biri də xalq və vətən sevgisidir. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, Vətənin daşını, havasını, suyunu sevmək deməkdir. Əks təqdirdə bu sevgi kamil sayılmır. Vətəni sevmək, onu düşmənlərə verməmək, hər bir hücum ehtimalına qarşı tədbirli olmaq və lazım olduğu zaman onun üçün canını vermək müqəddəs vəzifədir. Bu vəzifəyə sadiq olaraq doğma yurdunu yenidən azad görmək üçün qəhrəmanlıq göstərən igidlərimizdən biri də Cəlilabad rayonundan olan şəhidimiz Nadirli Kənandır.

Nadirli Kənan İlqar oğlu 2000-ci il fevralın 2-də Cəlilabad rayonunun Kövüzbulaq kəndində anadan olub.

Kənan könüllü olaraq İkinci Vətən müharibəsində iştirak edib. Qəhrəmanımız Füzuli, Qubadlı, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib. 2020-ci il noyabrın 6-da Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində şəhid olmuşdur.

Göstərdiyi qəhrəmanlıqlara görə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Yenə bir şəhidin ruhu önündə,
Günəş gülümsəyir, Ay parıldayır.
Mənimsə qələmim səcdəyə gedir,
Buludlar diksinir, göy guruldayır.

Yazmaq istəyirəm şeirlərimlə,
Hər şəhid adını bağrına, vətən.
Səndən gözəl yaza bilmərəm, amma,
Şərikəm hər şəhid ağrına, vətən.

Bir şəhid balan da Nadirli Kənan,
Bir məzar çoxalıb ürəyin üstə.
Şəhidlər körpə tək müqəddəs qalır.
Kəfənlər bürünür bələyin üstə.

Nökər məzarı da, xan məzarı da,
Eynidir, qazılır bədən boyunca.
Bircə şəhidlərin məzar daşları,
Sanki işıq saçır vətən boyunca.

Görürəm dünyanın hər şəhərindən,
Şuşada ucalan bayrağı, vətən!
Şəhidlər nur saçan məzarlarıyla,
Vətənə çevirir torpağı, vətən!



**İsrafilov Kənan Faiq oğlu**



Kənan İsrafilov 8 noyabr 1990-ci ildə Şəki rayonunun Şirinbulaq kəndində dünyaya göz açmışdır. Cəmşid Naxçıvanski adına hərbi liseydən məzun olan Kənan 2008–2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir.

2013–2018-ci illərdə Murovdağda komandir vəzifəsini icra etmişdir. Sonra isə 2018-ci ildən qərargah rəisi kimi fəaliyyətini davam etdirmişdir. 2018-ci ildə Müdafiə Nazirliyinin Hərbi Akademiyasında təhsilini davam etdirən Kənan 2020-ci ilin iyun ayından Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində tabor komandiri kimi fəaliyyətini davam etdirmişdir.

27 sentyabr 2020-ci ildən başlayan Vətən Müharibəsində kapitan Kənan İsrafilov tabor komandiri olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirən kapitan Kənan İsrafilov 5 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən kapitan Kənan İsrafilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Salam, qəhrəman adam.
Salam, Murov qartalı.
Düşmənləri qorxuya,
Salan Murov qartalı.

Denən, nə yazım sənə?
Zəfər tariximizdə,
Səndən böyük iz qalıb,
İgidliyin önündə,
Qələm də aciz qalıb.

Sən nənənin, babanın,
Yanında böyümüşdün,
Bu vətənin, torpağın,
Canında böyümüşdün.

İndi də böyüyürsən,
Vətən boyda bədənsən,
Bakıdan zəngəzura,
Təbrizəcən vətənsən.



## Abbasov Səxavət Rizvan oğlu



Abbasov Səxavət Rizvan oğlu 25 aprel 2000-ci ildə Xırdalan şəhərində dünyaya gəlib. Səxavət evin tək övladı idi. Orta təhsilini Xırdalan şəhər 1 nömrəli tam orta məktəbdə alıb. Güləşin yunan-roma növü ilə məşqul olan Səxavət həmdə musiqi bacarıqı ilə yadda qalıb. O dostları arasında şən, zarafatçıl biri kimi tanınardı. Məktəbi bitirdikdən sonra hərbi xidmətə yola düşüb.

Tovuz rayonunda N saylı hərbi hissədə xidmət göstərib.

Abşeron rayonu, Xırdalan şəhər sakini, 20 yaşlı Səxavət Abbasov müharibə başlayanda könüllü olaraq cəbhəyə yola düşüb. Döyüşlərdə qorxmazlığı ilə seçilib və düşmənlə mübarizədə həmişə öndə olub. Anası ilə danışanda “məndən nigaran qalmayın, Vətən borcunu verib qayıdacağam” deyib.

“Övladdan da şirindir nəvə” deyən nənəsi Üsarə Mirzəquliyeva Səxavətlə fəxr edir. Deyir ki, nəvəsi evin tək övladı olmasına baxmayaraq, müharibə başlayandan iki gün sonra cəbhəyə yola düşüb.

20 yaşlı qəhrəmanımızla çiyin-çiyinə düşmənə sinə gərən döyüş yoldaşları deyirlər ki, Səxavət çox mərd oğul olub. Füzuli, Cəbrayıl, Hadrut və Xocavənd istiqamətlərində düşmənlə mübarizədə qalib kimi çıxıb. Sonuncu döyüşü isə Ərgünəş dağı ətrafında olub. Yaralı döyüş yoldaşı, həm də yaxın dostu olan Rəşad Mehdiyevi xilas edərkən düşmənin atdığı minamyot qəlpəsi onların ikisinin də həyatına son qoyub.

Səxavət Abbasov oktyabırın 20-də şəhid olub və Xırdalan şəhər Şəhidlər xiyabanında dəfn edilib. Ölümündən sonar “Vətən uğrunda” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Zəfər tariximizdə,
Tarixin igidisən,
Evin tək oğlu idin,
İndi tək şəhidisən.

Fəxr eləyir səninlə,
Sabah, bu gün və dünən.
"Övladdan şirin olur,
Nəvələr" – deyən nənən.

Şəhidlərin adı var,
Vətənin hər daşında.
Çünki onlar yaşayır,
Tarixin yaddaşında.

Hamı ölür dünyada,
Hansı bədən yaşayır?
Canını vətən üçün,
Qurban edən yaşayır.

Sən canını vətənə,
Dosta qurban elədin,
Torpağına göz dikən,
İti peşman elədin.

Elədin azad, şəhid,
Cəbrayıl, Füzulini.
Hadrutun, Xocavəndin,
Susmuş otuz ilini.



Söz vermişdin anana,
Gələcəm igid kimi,
Sözünün üstə durdun,
Qayıtdın şəhid kimi.

Şəhidliyin mübarək,
İgid, qəhrəman oğul.
Vətənə bir can verib,
Qazandın min can, oğul.

## Abbasov Tural Bayram oğlu



Toğrul Bayram oğlu Abbasov 1990-cı il, dekabrın 31-də Ağcabədi rayonunun Hacıbədəlli kəndində anadan olub. Anasını kiçik yaşlarında itirib. Vətən ona hər iki mənada ana olub. Vətənə, torpağa olan sevgisi onu hərbçi peşəsinə bağlayıb. N saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqçu kimi xidmətə yollanıb. Vətən müharibəsinin ilk günündə şəhid olub.

Şəhidin atası Bayram Abbasov bildirib ki, Toğrulun ən böyük arzusu işğalda olan torpaqlarımızın azad edilməsi idi: "Öz arzusuna çatdı. Onu heç kəs məcbur etmədi. Torpaqları yağı düşməndən azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyirdi. Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid oldu".

Toğrul Abbasov 7 ay əvvəl ailə həyatı qurmuşdu. Ata olmağa hazırlaşırdı. Bu barədə şəhidin bibisi Asya Şəmmədova danışıb: "Övladını görmək nəsib olmadı. Arzusu var idi, əgər qızı olarsa, adını Yağmur qoyacaqdı. Biz onun arzusunu yerinə yetirdik. Vətən sağ olsun".

Şəhidin qardaşı Cavad Abbasov Toğrulun mərd, cəsarətli, vətənpərvər olmaqla yanaşı, həm də ailəcanlı olduğunu qeyd edib: "Axırıncı dəfə atamla danışanda deyib ki, hər şey yaxşıdır. Narahat olmayın. Vətən müharibəsinin ilk günündə şəhid oldu. Mən qardaşımla fəxr edirəm", – deyə Cavad bildirib.

Toğrul Abbasov doğulub boya-başa çatdığı doğma kəndində dəfn olunub. Vətən müharibəsində göstərdiyi şücaətə görə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



Kiçik yaşda öz ananı itirdin,
Bu vətəni ana bildin, şəhidim.
Anaların otuz illik həsrətin,
Göz yaşını özün sildin, şəhidim.

Hamı bilir, qəhrəmanlıq etmisən.
Şəhid olub ürəklərdə bitmisən.
Savaşların ilk günündə getmisən,
Allahamı tələsirdin, şəhidim?

Necə olur şəhidliyin dünyası,
Şəhidlikdir bu dünyanın mənası,
Arzun olub torpaqların xilası,
Bu zəfəri özün yazdın, şəhidim.

Öz ömrü var çiçəyin də, yazın da.
Çiçək bitməz boranında, buzunda.
O üzünü görmədiyin qızın da,
Sənin ilə fəxr eləyir, şəhidim.

## Vəliyev Vüqar Emin oğlu



Vəliyev Vüqar Emin oğlu 22 oktyabr 1995-ci ildə Ağdam rayonunun Rzalar kəndində anadan olmuşdur.

2002-ci ildə Ağdam rayon Rzalar kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olub və 2013-cü ildə həmin məktəbin 11-ci sinfini yüksək qiymətlərlə bitirib. 2013–2017-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almışdır.

2019-cu ildə Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanında müvəffəqiyyətlə iştirak etmiş və Quzanlıda yerləşən Ağdam rayon 18 nömrəli köçkün tam orta məktəbinə idman müəllimi kimi qəbul olmuşdur.

2017-2018-ci illərdə həqiqi hərbi xidmətə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. 17 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan qəsəbəsi yaxınlığında xidməti vəzifəsini yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vüqar Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və



şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Vüqar Vəliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Səni görməmişəm, tanımayıram.
Amma ki, ürəyim sənə "can" yazır.
İndi şairlərin, yazıçıların,
Qələmi sənintək oğuldan yazır.

Nə qədər yazsaq da çata bilmərik,
Biz sənin yazdığın tarixə, qardaş.
Bu xalqın başını uca eylədi,
Zəfər tarixinə yazılan savaş.

Bizi birləşdirən kimliyimizdir.
Milli qeyrətimiz, milli sözümüz.
Nə olsun bir dəfə görüşməmişik,
Duyur ürəyimiz, görür gözümüz.

Səni qardaş bilən, bağrına basan,
Səni bala bilən neçə ana var.
Biz ölüb gedərik, uluduları,
Amam ki, şəhidlər yaşayacaqlar.

## Əliyev Cəlil Qüdrət oğlu



Cəlil Qüdrət oğlu Əliyev 12 iyul 1998-ci ildə Ağdaş rayonunun Qaradağlı kəndində anadan olmuşdur. Kənd orta məktəbində təhsil alıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan Vətən müharibəsində iştirak etmiş, Cəbrayıl, Füzuli rayonları uğrunda gedən döyüşlərdə şücaət göstərib. Oktyabrın 14-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Cəlil Əliyev ölümündən sonra **"Vətən uğrunda"** medalı ilə təltif edillib.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Cəlil Əliyev ölümündən sonra **"Füzulinin azad olunmasına görə"** medalı ilə təltif edilib.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli addımlar nümayiş etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Cəlil Əliyev ölümündən sonra **"Döyüşdə fərqlənməyə görə"** medalı ilə təltif edilib.



Yaşda məndən balacasan,
Yolda məndən böyük, şəhid.
Sənə ağır olmadımı,
Vətən boyda bu yük, şəhid?

İndi səndən yazıram mən,
İndi səni oxuyuram.
Göstərdiyin igidliyi,
Misralara toxuyuram.

Hamımızın borcumuzdur,
Qoruyaq xalqı, vətəni,
Sən tarix yazdığın kimi,
Tarix də yazacaq səni.

Zaman yolçu, illər qısa,
Hər insanın bir ömrü var.
Hər insandan igid olmaz,
İgid gedər, adı qalar.

Adın bizə yadigardır,
Yaşayacaq qəlbimizdə.
Sən bizə zəfər yaşatdın,
Unutmarıq səni biz də.

## Ələkbərov Məhəmmədəli Bayram oğlu



Ələkbərov Məhəmmədəli Bayram oğlu 15 oktyabr 1990-cı ildə Ağstafa rayonunun Poylu kəndində anadan olub. 1996–2007-ci illərdə Firacəddin Məmmədov adına tam orta məktəbdə təhsil alıb. 2008–2010-ci illərdə müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildə Dövlət Sərhəd Xidmətində xidmətə qəbul olunan Məhəmmədəlinin ilk xidmət yeri olan Lənkəran sərhəd dəstəsinin 4-cü sərhəd zastavasında çalışqanlığı, xidmətə münasibəti ilə seçilib.

2015-2016-ci illərdə Dövlət Sərhəd Xidmətinin tədris mərkəzində təlim çevik hərəkəti taborunda müxtəlif vəzifələrdə xidmət edən Məhəmmədəli hər zaman inadla öz üzərində işləyib, intizamı ilə seçilib. 19 fevral 2019-cu ildən xidmət yerini Çevik Hərəkat Qüvvələrinin Çevik Hərəkət Dəstəsinə dəyişdirilən Məhəmmədəli cəlb olunduğu təlimlərdə bilik və bacarığını təkmilləşdirib. Fiziki cəhətdən sağlam və güclü olan Məhəmmədəli ona verilən ən çətin döyüş tapşırıqlarının öhdəsindən məharətlə gəlirdi.

Sentyabrın 27-də başlayan Vətən müharibəsi sanki Məhəmmədəliyə qazandığı bilik və bacarıqları nümayiş etdirilməsi üçün bir meydan oldu. Məhəmmədəli Çevik Hərəkət Dəstəsinin tərkibində Füzuli və Cərayıl istiqamətlərində bir sıra yaşayış məntəqələrimizin azad olunması uğrunda bir sıra uğurlu əməliyyatlarda iştirak edib. İran İslam Respublikası ilə dövlət sərhədlərimizin bərpası zamanı məhz onun fədakarlığı nəticəsində bir neçə halda döyüş yoldaşları mühasirədən çıxarılıb. Oktyabrın 19-da Zəngilan şəhərinin azad olunması əməliyyatlarında düşmən postlarının ələ keçirilməsində Məhəmmədəli xüsusilə fərqlənib. 21 oktyabr 2020-ci



ildə bir gün əvvəl işğaldan azad olunmuş Zəngilan şəhərinə düşmənin əks-hucumunun qarşısını alarkən gizir Ələkbərov Məhəmmədəli qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı göstərdiyi rəşadətə görə gizir Ələkbərov Məhəmmədəli Bayram oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medallarılə təltif olunmuşdur.

22 oktyabr 2020-ci ildə Ağstafa rayonunun Poylu kəndində dəfn edilib.

Ailəli idi. 2 övladı var.
Oxudum igidliyini,
Qəhrəmanlığını sənin.
Nə yaxşı ki, sənin kimi,
Oğulları var vətənin.

Vətən öz igidləriylə,
Tanınar sərhərlərində,
Çünki igidlər vətəni,
Saxlayar öz əllərində.

Sən canınla qorumusan,
Bu vətəni, bu milləti.
Sənə bitməz, tükənməz də,
Bu millətin məhəbbəti.

Ürəklərə iz salmısan,
Tarixə iz saldığın tək.
Füzulini, Cəbrayılı,
Zəngilanı aldığın tək.

Hər insanın millətinə,
Vətəninə borcu olur.
Yalnız şəhid igidlərə,
Vətən, millət borclu qalır.

Sənə olan borcumuzu,
Ödəyə bilmərik, şəhid.
Şəhidlər ölmür, bilirəm.
Bir gün görüşərik, şəhid.



**Məlikov Rauf Mahir oğlu**



Şəhid Məlikov Rauf Mahir oğlu 14 dekabr 1988-ci ildə Ağsuda anadan olub.

Döyüşlər başlayanda, sentyabrın 28-də Vətən uğrunda gedən döyüşlər zamanı Talış yüksəkliyində qəhrəmancasına Şəhid olub.

Vətənə əmanət 5 yaşında bir qızı Zəhra var idi. Digər qızı Gülcan da, şəhid olduqdan 27 gün sonra dünyaya göz açdı.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Suqovuşanın azad olunması" medalı ilə təltif edilib.

Bir canını itirdin,
Qazandın min can, oğul.
Səni salamlayıram,
İgid, qəhrəman oğul.

Nə mən Dədə Qorqudam,
Nə sən Oğuz igidi,
Amma səndən yazıram,
Birdi vətən şəhidi.

Sənin iki qızın var,
Mənim də iki qızım.
Dilim-ağzım quruyub,
Bilmirəm heç nə yazım.

Şəhid qızı görəndə,
Doğma balam sanıram.
Öz qızımın üzünə,
Baxanda utanıram.

Utanıram özümdən,
İslandıqca varaqlar,
Nə olar ki, atasız,
Böyüməsin uşaqlar.



## Qeybiyev Arif İsmayıl oğlu



Arif Qeybiyev İsmayıl oğlu 1997-ci il iyunun 6-da Astara rayonunun Səncərədi kəndində anadan olub. 2002-ci ildə E.Ağayev adına Səncəri kənd tam orta məktəbinə daxil olub. 2012–2016-cı illərdə Astara Pedaqoji Kollecinin idman fakültəsində orta ixtisas təhsili alıb.

Arif Qeybiyev orta məktəb dövründə idmanın atletika növü ilə məşğul olub. Rayon və ölkə üzrə yarışlarda ilk üçlüyə düşüb. Bundan başqa atletika üzrə 50-dən çox diplomu var, onlardan 30-u birincilik üzrədir. 2015 Avropa Oyunlarının iştirakçısı olub. Tarixi İpək yolu üzərində yerləşən qədim Astarada alovqoruyanların müşayəti ilə keçirilən məşəl yürüşündə Arif Qeybiyev də iştirak edib.

O, kross qaçışı üzrə üçqat Azərbaycan çempionu, Atletika üzrə gənclər arasında Azərbaycan çempionu, Avropa Olimpiya təsnifat yarışlarının iştirakçısı, Yeniyetmələr arasında Respublika Birinciliyinin qalibi olub.

Arif Qeybiyev 2016-cı ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağırılıb. İlk xidmət yeri Bakı şəhərində Daxili İşlər Nazirliyinin Daxili Qoşunları olsa da, daha sonra xidmətini Naxçıvan Muxtar Respublikasında xüsusi təyinatlıların bölüyündə davam etdirib. Hərbi xidməti müddətində 2 dəfə tərifnamə ilə təltif olunub. Hərbi xidmətini 2018-ci ilin yanvar ayında başa vurub. Ordu sıralarında xidmət etmək üçün 3 dəfə sənəd verib, lakin qəbul olmayıb. Ancaq 4-cü dəfə sənəd verərkən istəyinə nail olub.

2018-ci ilin oktyabr ayında hərbi kursa çağırılıb. 2019-cu ilin yanvar ayında Ağcabədi rayonunda yerləşən hərbi hissədə müddət-

dən artıq xidmət edən hərbi qulluqçu olaraq tankçı kimi xidmət etməyə başlayıb. 2019-cu ilin avqust ayında təyinatı Füzuli rayonunda yerləşən hərbi hissəyə verilib və şəhadətinə qədər xidmətini orada davam etdirib.

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq xidmət edən hərbi qulluqçusu, tankçı Arif Qeybiyev 2020-ci il sentyabrın 27-də başlayan Vətən Müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 27-də Füzuli döyüşlərində Arif Qeybiyevin dostu, tankçı Mirrahil Teymurlunun tankı minaya düşüb və Arif öz tankından enərək, 100-200 metr aralıda olan dostunun tankına çatıb, onu xilas etmək istəyərkən erməni snayperinin gülləsinə tuş gəlib.

Arifin həyat yoldaşı İranəyə son mesajı sentyabrın 27-də, səhər 5:42-də yazılıb. Mesajında bunları bildirib: "Canım, nigaran qalma. Özündən, anamdan, gözəl qızımdan muğayat ol. Sizi sevirəm".

Sonra yenə mesaj yazıb: "Əsas sizsiz. Əsas qızımdan muğayat ol, bir də anamdan. Haqqınızı halal edin. Sizi sevirəm".

Arif eyni mesajı iki dəfə göndərib- səhər 5:47 və 6:02-də. O gecə yatmayıb Arif. Son mesajlarını yazdığınımı hiss edib? Nələr düşünüb? İndi heç kim bilmir... İranə deyir ki, Arif gəlin maşınını da bayraqlarla bəzəyibmiş...

Astara rayonunun Ərçivan qəsəbəsində torpağa tapşırılan Şəhidimiz **"Vətən uğrunda"** və **"Füzulinin azad olunmasına görə"** medalları ilə təltif edilib.

*Gülnur adında 1 qız övladı yadigar qalıb.*

"Mənim oğlum çempion idi. Mənim oğlum hər işdə çempion idi", – deyir Arifin anası Rəna xanım.

**Ariflə hərbi xidmətdə olan əsgəri danışır:** "Bu itkini sözlə ifadə edə bilmərəm. Elə ürəyi vardı ki... Mən hələ elə ürək sahibinə rast gəlməmişəm. İndi bu gündən baxanda anlayıram ki, həyatımın



xoşbəxt günləri onunla keçirdiyim günlər olub. Savaş nələr yaşatdı, nələr öyrətdi. Hələ də inana bilmirəm ki, o şəhid olub. Elə şən idi. Üzündə nur vardı-ürəyinin nuru... Mən əsgər yoldaşlarımın da adından danışıram. Bu günlərdə onun tankını gördük... Elə bildik ki, indi düşüb gələcək, yenə gülümsəyəcək, yenə hamımıza ürəkdirək verəcək... Ancaq bu, baş vermədi".

2021-ci ilin oktyabrın 10-da Milli Olimpiya Komitəsinin, Atletika Federasiyasının və Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə Astara şəhər bulvarında şəhid Arif Qeybiyevin xatirəsinə həsr edilmiş atletika yarışı keçirilib. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, millət vəkili Rəşad Mahmudov, Astara Rayon İcra Hakimiyyətinin nümayəndələri, Atletika Federasiyasının vitse-prezidenti Firat Hüseynov, Federasiyanın baş katibi Məhərrəm Sultanzadə, Gənclər və İdman Nazirliyində Federasiyanın əməkdaşı Sevda Mirzəyeva və Atletika Federasiyasının icraçı direktoru Kamal Əhmədov iştirak ediblər.

Natiqlər şəhid Arif Qeybiyevin qəhrəmanlığından, şərəfli döyüş yolundan danışaraq onun vətənpərvərliyinin, xalqına sevgisinin gənclər üçün örnək olduğunu diqqətə çatdırıblar. Həmçinin, şəhid Arif Qeybiyevin ölkəmizin idman həyatına verdiyi töhfədən, yarışlarda qazandığı uğurlardan danışılıb, Birinci Avropa Oyunlarında olimpiya məşəlini məhz Astarada onun qaldırdığı qeyd edilib, olimpiya komandamızın ilk şəhidi olduğu vurğulanıb.

Geyindin öz əyninə,
Şəhidlikdən don, şəhid.
Döyüşdə və yarışda,
İgid, çempion şəhid.

Müqəddəslik adına,
Sən əbədi sahibsən.
Hər yarışda birinci,
Hər döyüşdə qalibsən.

Bilmirəm, necə olur,
Döyüşlərdə qan etmək.
Vətən, dostun yolunda,
Canını qurban etmək.

Fəxrlə oxuyuram,
Tərcümeyi-halını.
Sənin kimi igidlər,
Çəkib zəfər yolunu.

Sonuncu məktubun da,
Çıxdı mənim qarşıma,
Əlimdə kağız, qələm.
İslandı göz yaşıma.



Mən şairəm, duyuram,
İnsanı bir sözündən,
Qəlbinin böyüklüyü,
Görünür üz-gözündən.

Səninlə fəxr eləyir,
On milyon insanım da,
Qızın Gülnur balamız,
Anan Rəna xanım da.

Rahat uyu, şəhidim,
Sən çempion, qoçaqsan.
Bu millətin qəlbində,
Əbədi qalacaqsan.

**Vəlizadə İbrahim Malik oğlu**



Şəhid İbrahim Malik oğlu Vəlizadə 1997-ci ildə aprelin 2-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olub.

2018-ci ildə Ali Hərbi məktəbi bitiribdikdən sonra leytenant kimi Xüsusi Təyinatlılar Bölüyündə xidmətə başlayıb. Müharibə başlayan gündən ön sıralarada döyüşən qəhrəmanımız Murovdağ, Suqovuşan istiqamətində bir çox yerlərdə döyüşüb. Murovdağa ilk bayraq sancanlardan olub.

Oktyabr ayının 6-da Suqovuşan istiqamətində gedən döyüşlərdə yaralı yoldaşını çıxararkən, snayper gülləsinə tuş gəlir. İlk qarın nahiyyəsindən, sonra isə başından vurulur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən İbrahim Malik oğlu Vəlizadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunması" medalı və 3-cü dərəcəli "Rəşadət ordeni" ilə təltif olunub. Ailəlidir, 1 övladı var. Övladına şəhid Fərid Əhmədovun adını verib.

Şəhid İbrahim Vəlizadə oğlunu dünyaya gələndən sonra cəmi 1 dəfə görüb. Şəhidlik zirvəsinə ucalmamışdan əvvəl həyat yoldaşına "kaş oğlumu bir dəfə də qucaqlaya, öpə biləydim" deyib. Vətənə olan sevgisi toyunda da özünü gösdərib. Şadlıq sarayına vağzalı ilə deyil, Azərbaycanın Dövlət Himni ilə daxil olur, masasında başları üzərindən Azərbaycan bayrağını asdırır.

Oktyabrın 6-da şəhid olan qəhrəmanımızın nəşi noyabrın 30-da yoldaşının ad günündə ailəsinə təhvil verilir.



Salam, igid, qəhrəman,
Salam, cənab leytenant.
Sən şəhid Vəlizadə,
Mən şair Elşad Barat.

Şad oldum tanışlığa,
Necədir fəsillərin?
Yazın, qışın necədi?
Göz yaşıyla yuyulmuş,
Məzar daşın necədi?

İndi and içiləndə,
Şəhidlərin ruhuna,
Vətənə and içilir.
Şəhidlərin məzarı,
Lap uzaqdan seçilir.

Seçilir şəhidlərin,
Vətənə məhəbbəti,
Seçilir vətən eşqi,
Qəlbinin hərarəti.

Vətən sənin balana,
Balası kimi baxır.
Bircə dəfə gördüyün.
Oğluna sahib çıxır.

Bu torpaqda hamıdan,
Çox sizin haqqınız var.
İndi sizin ailəniz,
Vətənədir yadigar.

Bilirəm ki, bilirsən,
Görürsən olanları.
Zəfər çaldı ordumuz,
Daha yerdə qalmadı,
Şəhidlərin qanları.

## Alqayev Harun Məhəmməd oğlu



Harun Məhəmməd oğlu Alqayev 1992-ci il iyulun 14-də Balakən rayonunun Gərəkli kəndində anadan olub. 1998–2006-cı illərdə Balakən şəhərində Nəsimi adına 2 nömrəli tam orta məktəbdə, 2007–2010-cu illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2010–2014-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb.

Harun Məhəmməd oğlu Alqayev gündəlik həyatında haqqın, düzgünlüyün, mərhəmətin və sadəliyin tərəfdarı olan bir insan idi. Bir kəşfiyyatçıda olmalı olan bütün keyfiyyətlər Harunda cəmləşmişdi. İşinin peşəkarı idi. Onun erməni və rus dillərini mükəmməl öyrənməsi, idarə etdiyi dronla çəkiliş etmək üçün hətta başqa hərbi hissələrə çağrılması buna sübut idi.

"Bacarmıram" sözü onun üçün yox idi. 2015-ci ildən leytenant rütbəsi alaraq, Goranboy rayonunda "N" saylı hərbi hissədə kəşfiyyat tağım komandiri kimi çalışıb. 2016-cı ildən həmin hərbi hissənin müşahidə kəşfiyyat tağım komandiri vəzifəsinə layiq görülüb və bu müddətdə dəfələrlə işğalda olmuş torpaqlarımıza keçərək, məlumat öyrənib, düşmənin gizli sirlərini üzə çıxarmağı bacarıb. 2018-ci ildə baş leytenant rütbəsi alıb.

Əsgərləri ona tək komandir kimi yox, böyük qardaş kimi hörmət qoyurdular. Onlardan biri – **Rəvan Səbzəliyev** deyir ki, əsgərlərini ruhlandırmaq məqsədilə onlarla keçirilən məşq hazırlığı zamanı cibində olan 20 AZN pulu tapşırığın öhdəsindən gələn əsgərinə verəcəyini deyib və belə də edib, özü isə cibində başqa pul olmadığından, borc götürərək evinə qayıdıb.



Zabit yoldaşları onun haqqında "Goranboyun vuran ürəyi, vuran əli idi" deyirlər. Harun postda olan əsgərləri üçün 6 maşın odun hazırlayaraq, bütün yüksəkliklərdə olan postlara paylayıbmış. O, əsgərlərini öz qardaşından ayırmazdı, hətta onlar üçün Goranboy rayonu ərazisində 200 metr yüksəklikdə olan postlardan birinin yanında 1 otaqlı yataqxananı özü şəxsən düzəltmişdi ki, əsgəri növbədən çıxanda həmin dağı aşağı düşüb istirahət, yuxu vaxtını aşağıdakı yataqxanada keçirməyə məcbur olmasın.

Düzgün olan zəifin yanında, haqsız olan güclünün qarşısında olmaq onun xarakteri, həyata baxışı idi. Hətta Azərbaycan Ali Hərbi Məktəbində oxuduğu zamanlarda belə onun yoldaşları məzuniyyət albomuna "Həmişə bizə arxa-dayaq olmusan, haqqın tərəfində olmusan, həmişə belə qal" yazmışdılar.

2020-ci il mart ayında kəşfiyyat bölüyünün komandiri vəzifəsinə layiq görülüb. 2 ay bu vəzifədə çalışdıqdan sonra Harun Məhəmməd oğlu Alqayev arzusunda olduğu xüsusi təyinatlı qüvvələrin heyətinə qoşulub və keçdiyi az bir müddətdə heyətində olduğu qurupun baş kəşfiyyatçısı vəzifəsini layiqincə yerinə yetirib.

Azərbaycan Ordusunun baş leytenantı olan Harun Alqayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda döyüşüb və oktyabrın 15-də şəhid olub.

Balakən şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Alqayevlər ailəsinin iki oğul övladının ikisi də Vətən Müharibəsində iştirak edib. Biri tarix yazaraq şəhid olub, digəri isə tarix yazaraq qazi kimi evlərinə dönüb.

Harun Algayev **"Vətən uğrunda"** , **"İgidliyə görə"** və **"Kəlbəcərin azad olunmasına görə"** medalları ilə təltif edilib.

Səni salamlayıram,
Ey cənab baş leytenant.
Əsgərinə komandir,
Böyük qardaş leytenant.

Düşmənin sirlərini,
Dronla açdın bir-bir.
Sən qorxmaz qəhrəmansan.
Kəşfiyyatçı komandir.

Zabit dostların deyir:
Sən tanrı mələyisən,
"Vətənin vuran əli,
Döyünən ürəyisən".

Yatmamısan gecələr,
Postda oyaq olmusan,
Düşməninə amansız,
Dosta dayaq olmusan.

Olmusan döyüşlərin,
Öndə gedən zabiti,
Düşmən bölüklərini,
Viran edən zabiti.

Səni salamlayıram,
Ocaq kimi, pir kimi.
Səninlə fəxr edirik,
Ölməz komandir kimi.



## Babayev Rahib Bəxtiyar oğlu



Rahib Bəxtiyar oğlu Babayev 19 iyun 1985-ci ildə Şahbuz rayonunun Külüs kəndində anadan olub. İlk təhsilini kənd məktəbində alıb, daha sonra Naxçıvan şəhər 14 nömrəli məktəbdə davam etdirib.

1999–2002-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsilini davam etdirib. 2002–2006-cı illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərb sənətinin incəliklərinə yiyələnib. 2006-cı ildən leytenant rütbəsi alaraq hərbçi kimi peşəkar fəaliyyətə başlayıb. İlk iş yeri Sumqayıt şəhər Hacı Zeynalabdin qəsəbəsindəki hərbi hissə, ilk komandiri isə Polad Həşimov olub.

Şəhidimizin həyat yoldaşı Aygün xanım danışır ki, Rahib həmişə Polad Həşimovla fəxr edərdi: 18 illik xidmətinin 8 ilini Murov dağlarında keçirmişdi. Qüsursuz xidmətə görə dəfələrlə fəxri fərmanlar, medallar və Ali Baş Komandanın xüsusi mükafatı ilə təltif olunmuşdu. Nədənsə Kəlbəcəri daha çox sevirdi. Bəlkə də bu rayonun azadlığını görmək onun ən böyük arzusu idi.

Döyüş yoldaşları deyirlər ki, Rahib 8 il xidmət etdiyi Murov silsiləsində ərazini yaxşı tanıyan ik-üç komandirdən biri idi. O, öz vəzifəsini döyüşlər başlayanda da layiqincə yerinə yetirib. Düşmənin strateji əhəmiyyətli "Canavar" sol döyüş mövqeyinin götürülməsində şəxsən özü iştirak edib. "Canavar" sağ adlanan yüksəkliyin götürülməsində istiqamət komandiri kimi iştirak edib. Hər iki yüksəklik döyüşlərin ilk günündə mayor Babayevin rəhbərliyi ilə düşməndən tam təmizlənib. "Canavar" postu Vətən müharibəsi başlanandan ermənilərdən alınan ilk post idi. 30 sentyabr tarixinə qədər düşmənin əks-həmlə edib geri götürməyə çalışdığı həmin yüksəkliklərin müdafiəsində taboru ilə layiqincə iştirak edib".

Qızı üçün atası onun qəhrəmanı, ən yaxın dostu idi. O, həm vətənini, həm də övladlarını çox sevərdi. Şəhidin qızı atasından qürurla danışır:

"Mən onu çox tez itirdim. Amma, o bizə çox şey öyrətdi. Vətəni sevməyi, bayrağı sevməyi bizə o öyrətdi. Mənim atam şəhid olmazdan əvvəl də qəhrəman idi, indi də qəhrəmandır. Mən hiss edirəm ki, o bizim yanımızdadır. Mən fəxr edirəm ki, elə bir atanın qızıyam. O bizi çox sevərdi. İstəyirəm ki, o gəlsin. Mən onunla söhbət edim. O yenə bizi gəzintiyə aparsın. Son dəfə də olsa, onu qucaqlayım öpüm və söhbət onunla edim".

Silahdaşlarının sözlərinə görə, 27–30 sentyabr tarixləri arasında düşmənin həmin strateji yüksəkliklərdə qoyub qaçdığı iri çaplı silahlardan elə onların özünə qarşı istifadə edərək bir neçə düşmən texnikasını məhv edib. Onu həm də mərd, qorxmaz, cəsarətli komandir kimi xarakterizə edirlər:

"Rahib düşmən üzərinə cəsarətlə, sevinclə, gülə-gülə gedirdi. Döyüşdə qolundan ağır yaralansa da, döyüş meydanını tərk etməyib. Yaralı halda vuruşaraq yaralanmış əsgərlərinin həyatını xilas edib. Xeyli sayda düşmənin hərbi texnikasını və canlı qüvvəsini məhv edib. Həmin gün düşmənin atdığı artilleriya mərmisindən ikinci dəfə ağır yaralanıb və şəhid olub".

Döyüşlər zamanı qolundan ağır yaralanan Rahib döyüş meydanını tərk etməyib. Yaralı halda vuruşaraq, yaralanmış əsgərlərinin həyatını xilas edib. Düşmənin xeyli hərbi texnikasını və canlı qüvvəsini məhv edib. İkinci dəfə yaralanandan sonra isə şəhadətə yüksəlib. Şəhidimiz oktyabrın 2-də Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunub.

"Canavar postu"nun fatehi Rahib Babayev ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "**Vətən uğrunda**" və "**Kəlbəcərin azad olunmasına görə**" medalları ilə təltif edilib.

Qeyd edək ki, şəhidimizin özündən sonra 3 övladı yadigar qalıb.



Yenə küləklidir, hava soyuqdur,
Savaş tarixində donub qalmışam.
Yenə bir şəhidin məzarı üstə,
Xəyala dalmışam, sözə dalmışam.

Bir zaman, nə vaxtsa, o, mənim kimi,
Minlərlə əsgərə komandir olub.
İndi daşa dönüb, torpağa dönüb,
İndi ocaq olub, indi pir olub.

Sən – ey əsgəriylə dost olan adam,
Əsgərin dərdinə tən idin, şəhid.
Sənin komandirin Polad Həşimov,
Mənim komandirim sən idin, şəhid.

Deyirlər, savaşın ağır yerində,
Ağır yaralanıb dayanmamısan.
"Canavar" postunu geri almısan.
Vətən yuxusundan oyanmamısan.

Yuxun şirin olsun, yat, komandirim.
Bilirəm, bu həsrət necə çətindir.
Bil ki, doğmaların, bil ki, adın da,
Vətənə, millətə əmanətindir.

## Quliyev Vasif Tahir oğlu



Vasif Quliyev 1988-ci il fevralın 19-da Beyləqan şəhərində anadan olub. Ailəli idi. 2 övladı yadigar qaldı.

Vasif Quliyev 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərində savaşıb.

Azərbaycan Ordusunun çavuşu olan Vasif Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Vasif Quliyev sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamına əsasən Vasif Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 25 dekabr tarixli Sərəncamına əsasən Vasif Quliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.



Sən vətənə can dedin,
Vətən can dedi sənə,
İki balan yadigar,
Qalıbdı bu vətənə.

Adın da yadigardır,
Yaşayacaq əbədi.
Vətənin xilas yolu,
Qazi, şəhidindədi.

Sizlər sona yetirdiz,
Otuz illik həsrəti,
Gənclik sizdən öyrənir,
Bu gün vətən qeyrəti.

Əməlsiz yaşayanlar,
Bu dünyada gün sayır.
Tarix boyu adamlar,
Əməliylə yaşayır.

Sənin kimi igidlər,
Xalqçün ölməyi yazdı.
Vətən tarixi yazdı,
Millət taleyi yazdı.

Yazdın həqiqətləri,
Dünyanın yaxasına,
Müqəddəs sözü verdin,
Ömrünün mənasına.

Bu gün səndən danışır,
Millətimiz, xalqımız.
Yaxın, doğma bilirik,
İndi səni hamımız.

**Hümbətov Səfayət Ələddin oğlu**



Səfayət Hümbətov 17 fevral 1987-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olub. 1994-cü ildə Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində təhsil almağa başlayıb, 2005-ci ildə orta məktəbi bitirib.

2005-ci ildə Bərdə rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılıb, 2007-ci ildə hərbi xidmətini başa vurub. 5 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrində Müddətdən Artıq Xidmət Edən hərbi qulluqçusu kimi xidmətə başlayıb.

28 sentyabr 2020-ci ildə Vətən müharibəsi zamanı Tapqaraqoyunlu istiqamətində şəhid olub, 29 sentyabr 2020-ci ildə doğulduğu Yeni Daşkənd kəndində dəfn olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə 15 dekabr 2020-ci ildə əsgər Hümbətov Səfayət Ələddin oğlu (ölümündən sonra) "Vətən uğrunda" medalı ilə təltif edilib.

Ailəli idi, iki övladı yadigar qalıb.



Burda hər yer vətəndir,
Qaya, yamac, dağ, dərə.
Biz hamımız borcluyuq,
Həmişə şəhidlərə.

Şəhidlər əridibdir,
Ürəyimizdən buzu.
Göylərə qaldırıbdır,
Bizim qürurumuzu.

Sən də şəhidliyinlə,
Tarixə yazılmısan,
Bu xalqın ürəyində,
Əbədiyyən qalmısan.

Qalmısan qəlbimizin,
Müqəddəslik yerində.
İki balan böyüyür.
Bu vətən üzərində.

Onlar bizə doğmadır,
Ata iftixarıdır.
Şəhidlərin balası,
Vətən yadigarıdır.

Zəfər tarixi yazdı,
Ömrümüzə bu savaş.
Rahat uyu, rahat yat,
Vətən yuxunu, qardaş.

## Gözəlov Xalid Həsən oğlu



Xalid Həsən oğlu Gözəlov 1996-cı il, noyabrın 4-də Biləsuvar rayonun Aşağı Cürəli kəndində anadan olub. Gözəlovlar ailəsinin üç oğul payının ortancılı idi. O, 2002-ci ildə Zaqatalada 2 saylı orta məktəbin 1-ci sinfinə gedib. Atasının işi ilə əlaqədar daha sonra təhsilini Biləsuvarda davam etdirib. 2012-ci ildə Oktay Babayev adına orta məktəbdən məzun olub.

Qardaşı Davud Gözəlov deyir ki, Xalid mehriban, dözümlü, səbrli, təmkinli, çox vətənpərvər insan idi: "Orta məktəbi bitirdikdən sonra ali məktəbə imtahan verərək, ödənişsiz əsaslarla Texniki Universitetə daxil oldu. Amma orada oxumadı, çünki istəyi hərbi sahəyə idi. Daha sonra yenidən sənədlərini Dövlət Sərhəd Xidməti Akademiyasına verərək, istəyinə nail oldu. Akademiyanı bitirən kimi xüsusi bacarığına görə pilot vəzifəsinə təyin olunmuşdu. Xalid uşaqlıqdan idmanın güləş növü ilə məşğul idi. Saysız-hesabsız mükafatlar, medallar qazanmışdı. Çempion da olmuşdu. 2019-cu ildə baş leytenant rütbəsi almışdı".

Davud Gözəlov deyir ki, Xalid müharibədən bir neçə gün əvvəl evə gəlmişdi: " Xalid müharibə başlayandan 1 gün sonra şəhid oldu. Onların yerinə yetirdikləri tapşırıqlar məxfi olduğu üçün hansı şəraitdə şəhid olduğunu bilmirik. Amma sonradan Füzuli istiqamətində şəhid olduğunu öyrəndik. 2-ci Fəxri Xiyabanda Polad Həşimovun dəfn edildiyi sırada dəfn olunub".

Atası Həsən Gözəlov deyir ki, oğlunun müharibədə olduğunu bilməyiblər, onun şəhidlik xəbərini qəfil alıblar, dünyaları qaralıb: "Xalidin şəhidlik xəbəri bizi elə sarsıdıb ki, heç nə ilə təsəlli tapa bilmirik. Hələ indiyə kimi heç kəs bizi sakitləşdirə, ovuda



bilmir. Elə səhər yoxdur ki, onu gözü yaşlı açmayaq. Allah o xəbəri heç kəsə qismət etməsin, heç kəsin qapısını qara xəbər döyməsin, elə sar-sıldıq, elə pis hala düşdük ki, indiyə qədər də özümüzə gəlməmişik".

Xalid nişanlı olmasa da, neçə il idi sevdiyi qız vardı, evlənib ailə həyatı qurmaq istəyirdi. Atanın-ananın arzusu oğlunun toyunu görmək, onun bəy otağını qurmaq idi, lakin onun şəhid olması bu arzuları yarımçıq qoyub.

Xalid şəhid olanda 23 yaşı tamam olmamışdı, noyabrın 4-də ailə üzvləri 24 yaşını məzarının üstündə qeyd ediblər.

Şəhid mayor Murad Məmmədovun türkiyəli yazar, hərbi ekspert Abdullah Ağara müsahibəsi zamanı dediklərindən:

– Sentyabrın 27-də, müharibə başlayanda əks-hücum əmrini alan kimi həyəcan təbili çalındı və plana uyğun olaraq hamımız təyyarələrimizə tərəf qaçdıq. Və bir anda 20 təyyarə havaya qalxdı. Düz 20 "AN–2 Antonov". Bunu görməli idiniz. Bilirsiniz, İkinci Dünya Müharibəsindən bəhs edən filmlər var. Təyyarə səhnələri və səmanı dolduran səslər... Aramızda yalnız bir fərq vardı: o, kino idi, bizimki isə real...

...Bizim çox sadə, asan başa düşülən, lakin həyata keçirilməsi bir qədər çətin planımız var idi. Qısacası belə idi: "Uçuş zamanı təyyarə ilə bağlı problem olarsa, təcrübəli pilot təyyarədə qalacaq, təyyarəni hədəfə aparacaq, rütbəsi və yaşı daha kiçik olanlar paraşütlə tullancaqlar". Hədəf düşmənin dərinlikləri idi. Hədəf düşmən radarlarının bizi görüb, bizə atəş açması idi. Hədəf düşmənin bizi vurması idi.

Hədəf təyyarələri düşmənin dərinliklərində mümkün qədər uzağa uçdurmaq idi... Təbii ki, ölməmək üçün əlimizdən gələni etməli idik. Amma həm də düşünürdük, mühakimə edirdik və nələrin baş verə biləcəyini anlayırdıq. Dediyim kimi, biz müharibənin "canlı yem"ləri idik. Bu, bir taktika, düşməni aldatmaq idi.

O vaxt bilmirdik, sonradan öyrənəcəkdik. Pilotlarımız təyyarədən atılmağa hazırlaşarkən güllələniblər. Şəhidlərimizin nəşlərinə çatanda paraşütləri onların üzərində idi.

Rus "D-6" paraşütünu geyinmək çox çətindir. Bu çətinlik döyüşün gərginliyi, tələsikliyi, qəfil vəziyyətləri qarşısında daha da artır. Adətən, belə fövqəladə və ya taktiki vəziyyətlərdə ikinci pilot baş pilota mexanizmdə kömək edir. Sonra isə bir-birimizin ardınca tullanırdıq. Görünür, şəhidlərimizin özlərini xilas etmək üçün bu son anları da olmayıb. Anladıq ki, onlar tullanmağa bir az qalmış düşmən tərəfindən vurulublar. Bir dəqiqə! Arxalarında paraşütləri ilə. Təyyarə vurulmazdan bir saniyə əvvəl tullana bilsəydilər, biz indi onlarla da danışa bilərdik. Həmin şəhidlər "AN-2 Antonov" eskadrilyamızın 5-ci tağım komandiri mayor Abbas Qasımov və baş leytenant Xalid Gözəlov idi.

Baş leytenant Xalid Gözəlov və mayor Abbas Qasımov bir-birlərinə çox bağlı idilər. İki can yoldaşı, iki silahdaş. Birlikdə uçurdular. Təyyarələrlə sanki danışır, onlara nələrisə başa salır və əmrlərinə qulaq asdırardılar. Avqustda Abbas məzuniyyətdə idi. Məzuniyyətdən qayıdanda başqası ilə uçmalı idi. Qayıdanda dedi ki, yox, biz birlikdə uçacağıq. Onların taleləri burada birləşdi. Birlikdə uçdular, birlikdə şəhid oldular.

Ailələri tez-tez bu sualı verirdi: "Onun bədəni bütöv idimi?" Üzlərinə baxaraq bu suala cavab vermək çox çətin idi, amma məcbur olduq: Bəli, onların bədənləri bütöv idi. Baş leytenant Xalid Gözəlovun anası övladının şəhadətini qəbul edə bilməyib. Hər dəfə yanına gələndə bizdən formamızı geyinməyimizi xahiş edirdi: "Sən gələndə elə bilirəm, Xalidim gəlir".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Vətənə xidmətə görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



Şəhidlər ölməzdi, vətən bölünməz.
Tarixin belə bir kəlamı vardı.
Qəhrəman ölməyir şəhid olanda,
Ömrünün əbədi davamı vardı.

Həm idmançı kimi, həm döyüşçü tək,
Vətənə can dedin, dedi can vətən.
Sən ki, bir pilotsan, bilirsən axı,
Nətəhər görünür səmadan vətən.

İndi darıxanda səninçün atan,
Baxır şəkillərə, baxır doyunca.
Özün qəlbimizə həkk olunubsan,
Adın yazılıbdı səma boyunca.

Zamanın o dırx dörd savaş günləri,
Tarixi qələbə yaz hər gününə.
Bütün şəkillərin təbəssümlüdür,
Sən də sevinirsən zəfər gününə.

Peyğəmbər ömrüdür şəhidin ömrü.
Əbədi, ölümsüz adı mənalı.
Özünə yaxşı bax, özünü qoru.
Ey səma igidi, Şuşa qartalı.

## Hacıyev Ramid Nəriman oğlu



Azərbaycan Silahlı Qüvvələrinin mayoru, Vətən müharibəsinin şəhidi Ramid Nəriman oğlu Hacıyev 1987-ci il fevralın 11-də Cəbrayıl rayonunun Mirək kəndində anadan olub.

Ramid 1994-cü ildə Xətai rayon 48 saylı tam orta məktəbin 8-ci sinfini başa vurduqdan sonra C.Naxçıvanski adına hərbi məktəbə daxil olub, həmin məktəbi müvəffəqiyyətlə bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Ramid Hacıyev ali hərbi məktəbi bitirdikdən sonra müxtəlif hərbi hissələrdə xidmət göstərib, Tabor komandiri olub. 2010-cu ildə leytenant, 2012-ci ildə baş leytenant, 2016-cı ildə kapitan, 2020-ci ildə mayor rütbəsi alıb. Üç hərbi medal, çoxlu sayda fəxri fərmanla təltif olunub.

Onun hələ 16 yaşı var idi, sevginin qığılcımlarını hiss edəndə... Hələ kursant olarkən Sevinc xanıma aşiq olur qəhrəmanımız... 8 ildən sonra isə bu sevginin təməli onların evliliyi ilə möhkəmlənir. Hərbiçinin həyat rejiminə uyğunlaşmaq məsuliyyət, bir o qədər də çətinlik tələb edir. Hacıyevlər ailəsi də bu sınaqların olduğu yolda Ramidə dəstək olub, onunla xoşbəxt bir ömrü paylaşacaq xanımla ailə qurmasına xeyir-dua verib.

Övlad şirin nemətdir... Tanrı elə bu nemətdən Ramid Sevinc cütlüyünə 3 övlad bəxş edib. Bir oğul, iki əkiz qız övladı... Əli, Dəniz və Yağmur... Əli artıq böyüdüyünün fərqindədir. Qızlar isə hələki çox hadisələri dərk etmir. Ramid o atalardan olub ki, vətən qarşısındakı vəzifələrini hər şeydən üstün tutub. Övladları bəzən onunla vaxt keçirə bilib, bəzən isə ən əlamətdar günlərdə atalarını yanlarında görə bilməyiblər.



Vətənin bölünməzliyi və müstəqilliyi uğrunda gedən İkinci Qarabağ savaşında 18 oktyabr 2020-ci il tarixdə Talış kəndi istiqamətindəki döyüşlərdə qəhrəmancasına həlak olaraq Şəhidlik zirvəsinə ucalmışdır.

Ailəsi nigaran qalmasın deyə Ramid döyüşlərdən vaxt tapdıqca onlarla əlaqə saxlayıb. Hər dəfə onun səsinin gəlməyi ailəyə bir ümid olub. Oktyabrın 16-sı ailəyə verilən ağır xəbər onların ümidini puç edib. Doğmalarına əvvəl yaralı olduğu deyilsə də, Tərtərdə Ramidi soraqlayan ailəsi 2 gün onun döyüş meydanından nəşinin çıxarılmasını gözləyib. Əsgərlərimiz düşmən mərmisinin altında güclə də olsa, onun cansız bədənini ərazidən çıxartmağı bacarıb. Sonda isə mayorumuzun cənazəsi ailəsinə təhvil verilib.

Ramid hərbiçi olsa da, Allah ona xüsusi bir istedad bəxş eləyib. Yəqin ki, Qarabağ torpağının sehrindəndir ki, Ramid gözəl səsə sahib olub. Kim bilir, bəlkə də hərbini seçməsəydi bu günün məşhur xanəndələrində olardı. Tale isə onu əlində qaval tutmağa yox, silah tutmağa vadar elədi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ramid Hacıyev ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ramid Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən, Ramid Hacıyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

II Fəxri Xiyabanda dəfn olunub.

Salam sənə, ey qəhrəman,
Salam sənə, cənab mayor.
Ey tarixin yaddaşında,
Həyatı bir kitab mayor.

Səhifələdim varaq-varaq,
İgidlik yollarını mən.
Oxudum fərmanlarını,
Gördüm medallarını mən.

Gördüm Sevinc bacımızla,
Əbədi sevginizi də.
O səndən yadigar qalan,
Əli, Yağmur, Dənizi də.

İndi sənin balaların,
Bu vətənə əmanətdir,
Hamı bilir, şəhid oğlu,
Qızı olmaq şərafətdir.



Çünki şəhidlər yaşayır,
Millət üçün, vətən üçün.
Əsas odur ad yaşasın,
Nə fərqi var, bədən üçün?

Tarixdə kimlər olmayıb,
Kimlər ömür etməyibdi.
Hamı ölüb, yoxa çıxıb,
İgid adlar getməyibdi.

Sən də igid, qəhrəmansan,
Öz xalqının yaddaşında.
Yaşayırsan bu vətənin,
Hər qayası, hər daşında.

## Abbasov Möhlət Eldəniz oğlu



Abbasov Möhlət Eldəniz oğlu 19 mart 2001-ci ildə Daşkəsən rayonunda anadan olub. Ailəsinin ilki olan Möhlət 2007-ci ildə Gəncə Şəhər 21 nömrəli tam orta məktəbin birinci sinifinə başlayıb, 2018-ci ildə isə həmin məktəbdən məzun olub. 2019-cu ildə Vətənə borcunu yerinə yetirmək üçün Hərbi Xidmətə yollanıb.

27 sentyabr 2020-ci ildə başlayan Vətən Müharibəsinə qoşulanda hərbi xidmətinin bitməyinə 3 gün qalmışdı. Amma o, Vətənini seçir. Düşmənə qarşı igidliklə, mərdliklə vuruşur.

Möhlət Abbasov 7 noyabr 2020-ci ildə Şuşanın Daşaltı istiqamətində qəhrəmancasına şəhid olub.

Döyüşlərdə göstərdiyi igidliklərə görə üç medalla təltif edilib.



Cəmi üççə gün qalmışdı,
Xidmətinin bitməsinə.
Vətəninə öz borcunun,
Bitib sona yetməsinə.

Qəfildən savaş başladı,
Meydanlara atıldın sən.
Ev demədin, vətən dedin,
Savaşlara qatıldın sən.

Bu vətənin dar gününə,
Tez özünü yetirmisən.
Daşkəsəndən Şuşayacan,
Həsrətləri bitirmisən.

Qalmadı Şuşa həsrəti,
Tükəndi dərdi vətənin.
Daşaltı istiqaməti,
Tarix olduğun yer sənin.

Hər igidin işi deyil,
Tarix yazıb ad qazansın,
Hər insanın sonu deyil,
Millət onu vətən sansın.

Sən vətənə çevrilmisən,
Hamımızın can yerisən.
Zəfər yazan tariximin,
İgid, qəhrəman yerisən.

## Teymurlu Mirrahil Ramiz oğlu



Bu torpaq, yurd üçün canını, qanını əsirgəməyən qəhrəman döyüşçülərimizdən biri də Teymurlu Mirrahil Ramiz oğludur. O, 16 oktyabr 1991-ci ildə Füzuli rayon Mahmudlu-1 kəndində anadan olub. Cümşüd Naxçıvanski adına hərbi liseyi bitirib. 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2012-cu ildə xidmətini uğurla başa vurub.

2013-cü ildə Azərbaycan Respublikası Ərazilərin minalardan təmizlənməsi üzrə Milli Agentlik təşkilatının minaaxtarma vəzifəsində işə başlayıb. 2018-ci ildə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi tank bölüyünün baş mexanik sürücüsü olaraq xidmət göstərib.

Mirrahil Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş meydanında xidməti vəzifələrinin icrası zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən odlu silahdan açılan atəş nəticəsində şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda" "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilib.



Vətənin uğrunda canını verən,
Cəsur döyüşçümüz, şəhidimizsən.
Sən vətənin üçün tarix yazmısan,
Tarixə dönmüsən, igidimizsən.

Səni unutmarıq zaman keçsə də.
Şəhidlər heç zaman unudulmayır.
Bütün şəhidlərin ruhu önündə,
Hər insan baş əyir və salamlayır.

Yerin cənnət olsun, ruhun şad olsun.
Harda şəhid varsa vətən oradır.
Sən bizi apardın Şuşaya qədər,
İndi də yolumuz Zəngəzuradır.

## Əliyev Bəybala Fazil oğlu



Bəybala Əliyev 1996-cı il oktyabrın 22-də Gədəbəy rayonunun Səbətkeçməz kəndində anadan olub. 2002–2013-cü illərdə Səbətkeçməz kənd tam orta məktəbində təhsil alıb. Subay idi. Bəybala Əliyev 2013–2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildən isə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin sıralarında "matros" (dənizçi) hərbi rütbəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin matrosu olan Bəybala Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşub. Bəybala Əliyev oktyabrın 2-də Murovdağ döyüşləri zamanı şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 08.12.2020-ci il tarixində Gədəbəy rayonunun Səbətkeçməz kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Bəybala Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.



Adın Bəybaladır, özün şəhidsən.
Tarixə yazılır şəhidin adı.
Bu ad hər igidin qisməti deyil,
Nə qədər insan var, şəhid olmadı.

Bu sözü sonuncu peyğəmbər deyib:
Şəhidlər cənnətin mələkləridir.
Onları vətənə bağlayan eşqdi,
Milli ruhla dolu ürəkləridir.

Səni ayaqüstə alqışlayıram.
Sən ola bilməyir hər insan, igid.
Hər bir qarışını müqəddəs bilib,
Vətəni dənizdən qoruyan igid.

İndi bu vətənin, indi bu xalqın,
Ən uca zirvəsi, dənizi sənsən.
İndi Gədəbəydən Murovdağacan,
Hər kəsin doğması, əzizisən sən.

## Quliyev İlqar Akif oğlu



1973-cü il fevralın 3-də Goranboy rayonunda anadan olub. 1980–1990-cı illərdə Fəxralı kənd tam orta məktəbində təhsil alıb. 1991–1996-cı illərdə isə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında (AKTA) "Mühasibat uçotu" üzrə ali təhsil alıb. Ailəli idi. 2 övladı yadigar qaldı.

Azərbaycan Ordusunun mayoru olan İlqar Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda döyüşlərdə savaşıb. İlqar Quliyev sentyabrın 30-da Füzuli döyüşləri zamanı şəhid olub. Goranboy rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İlqar Quliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 25 dekabr tarixli Sərəncamına əsasən İlqar Quliyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 25 dekabr tarixli Sərəncamına əsasən İlqar Quliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.



Səni salamlayıram,
Canımızda can igid.
Sən Koroğlu, Babəkin,
Yadigarısan, igid.

Səni salamlayıram,
Anaların diliylə,
Səni salamlayıram,
Körpələrin əliylə.

Səni salamlayıram,
Günəşəcən, ayacan.
Sizlər bizi apardız,
Bakıdan Şuşayacan.

Səni salamlayıram,
Burda azan səsindən.
Zəfər tariximizin,
Müqəddəs səhifəsindən.

Səni salamlayıram,
Cıdır düzündən, şəhid.
Sıldırım qayaların,
Bulaq gözündən, şəhid.

Səni salamlayıram,
Canımızda can igid.
Sən Koroğlu, Babəkin,
Yadigarısan, igid.

## Əhmədov Əli və İslam qardaşları





İslam İlqar oğlu Əhmədov 1994-cü il sentyabrın 19-da Mingəçevir şəhərində anadan olub. Qardaşı Əli İlqar oğlu Əhmədov da Vətən müharibəsində şəhid olub.

Azərbaycan Ordusunun əsgəri olan İslam Əhmədov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. İslam Əhmədov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub və sentyabrın 28-də Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İslam Əhmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Qeyd edək ki, İslamın qardaşı Əli Əhmədov da Vətən Müharibəsində şəhid olub. Atasız böyütmüşdü onları anası Sevinc Əhmədova, birinin 27-di digərinin 26 yaşı vardı. Öz arzuları vardı mingəçevirli qardaşların. Onlardan biri nişanlı, digəri subay idi. Anası, qohum əqrəba Əlinin toyuna hazırlaşırdı. Bəy kostuyumu



da elə otağında asılı qalıb. Vətən müharibəsinin ilk günü Sevinc ana əvvəl kiçik, bir neçə saat sonra isə böyük oğlunun şəhid xəbərini alır. Əli və İslam Əhmədov qardaşları sevdikləri vətən uğrunda şəhid olurlar. Yaxınları Əlinin yaxşı tankçı olduğunu deyir. Elə döyüşdə də qəhrəmanlıqları ilə seçilib.Şəhid anası Sevinc xanım təskinliyi onların xəyalları ilə danışmaqdan və torpaqların azad olunmasından aldığını bildirir.

"İslam həmişə deyirdi ki, ana, mən şəhid olacağam. Həmişə onu deyirdi. Əli də institutu qurtarıb əsgərliyə getdi, sülhməramlıya düşdü. Altı ay Bakıda, 6altı ay da Əfqanıstanda qulluq elədi. İslam həmişə deyirdi ki, ana, sən fəxr elə ki, oğullarının ikisi də əsgərlikdə medal alıb gəlib".

Sevinc xanım deyir:"Birinci İslam şəhid olub, sonra Əli. Amma birinci Əli gəlib, böyük qardaşı İslama yol verib ki, qoy birinci böyük qardaşım getsin. Əlini dəfn edib gələndən sonra İslamı gətirdilər".

Şəhid anası əlavə edib ki, Əlinin toyuna hazırlaşıblar: "İslam subay idi, Əliyə nişan aparmışdıq. Evi təmir edirdik. Yanvarın 5-də Əlinin ad günü idi, dedik, onda elə toyunu da edərik".

Hər iki qardaş döyüşlərdə qəhrəmanlıqları ilə seçilib. Ağdərə rayonu istiqaməti uğrunda gedən döyüşlərdə şəhid olublar. İslam müharibəyə gedən gün dostu Fuad Hacıyevlə görüşüb vidalaşıb: "Dedi gedirik, inşallah şəhidlik zirvəsinə yüksələrik. Son tapşırığı anası oldu. Anasını mənə tapşırdı".

**Əli Əhmədov** Vətən müharibəsində Ağdərə rayonu istiqamətində gedən döyüşlərdə qardaşı İlslamla eyni gündə şəhidlik zirvəsinə ucalıb.

Əli İlqar oğlu Əhmədov 5 yanvar, 1993-cü ildə Mingəçevirdə anadan olub. Universiteti bitirdikdən sonra hərbi xidmətə yollanıb. Azərbaycan Sülhməramlı Qüvvələrinin tərkibində 6 ay Əfqanıstanda xidmət edib. Azərbaycan Ordusunun kiçik çavuşu Əli

Əhmədov torpaqlarımızın bütövlüyü uğrunda Vətən müharibəsi zamanı Ağdərə istiqamətində döyüşlərdə iştirak edib.

O, döyüşün ilk günü, sentyabrın 27-də Suqovuşan döyüşü zamanı şəhid olub. Sentyabrın 27-də Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Sağlığında "Əfqanıstanda sülhməramlı missiyaya görə" medalına layiq görülən Əli Əhmədov ölümündən sonra Prezidenti İlham Əliyevin sərəncamına əsasən "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medallarıyla təltif edilib.

Yenə də gəlmişəm şəhid evinə,
Çünki igidlərin yazarı mənəm.
Bütün şəhidlərin anası anam,
Bütün şəhidlərin məzarı mənəm.

Mənəm sinəsində məzarlıq olan,
Hələ özüm üçün başdaşım da var.
Bütün anaların dərdi mənimdir,
Yenə ehtiyatda göz yaşım da var.

Girəndə hər dəfə şəhid evinə,
Ən böyük ocağa, pirə girirəm,
Baxanda bir şəhid anası mənə,
Hər dəfə utanıb yerə girirəm.

Bağışla sən məni, şəhid anası.
Hər gün ziyarətə gedə bilmirəm.
Sən mənə analıq edirsən amma,
Mən sənə oğulluq edə bilmirəm.



## İsmayılzadə Məhəmməd Füzuli oğlu



İsmayılzadə Məhəmməd Füzuli oğlu 12.06.1996-ci il Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub.

Universitetini yarımçıq qoyaraq ailəsindən gizlin döyüşə gedib Xüsusi təyinatlı həmlə taburuna qoşularaq plamiyotçu olup düşmənin atdığı raket nəticəsində Füzulidə şəhid olub.

Döyüşlərdə göstərdiyi igidliyə görə Vətən uğrunda medalı ilə təltif edilib.

Peyğəmbər adını daşıyan şəhid,
Məqamın mübarək, adın mübarək,
Şuşada qalanan zəfər tonqalın,
Ocağın mübarək, odun mübarək.

Mübarək, dediyin sonuncu sözlə,
Dastanlar yazılır, bax, varaq-varaq.
Bütün ürəklərdə iz buraxmısan,
Tarixə dönmüsən tarix yazaraq.

Yazaraq söyləmək çətindir indi,
Sənin göstərdiyin igidliyini,
Peyğəmbər adınla müqəddəs oldun,
Tanrı təsdiqlədi şəhidliyini.

Sənin igidliyin, qəhrəmanlığın,
Tarixə yazılan qələbə, qardaş,
İndi tələbələr səni öyrənir,
Təhsili yarımçıq tələbə qardaş.

Uyu o müqəddəs vətən yuxunu,
Şəhidlik yuxusu şirin olacaq.
Vətən yaddaşında, xalq ürəyində,
Əbədi taxt kimi adın qalacaq.



**Əliyev Elnur Ərəstun oğlu**



27 sentyabr 2020-ci il tarixindən başlayaraq Vətən müharibəsində qəhrəmanlıq göstərən oğullarımızdan biri də Göyçay rayon sakini, 20 yaşlı şəhid Elnur Əliyevdir.

Elnur Ərəstun oğlu Əliyev 2000-ci il fevral ayının 10-da Potu kəndində dünyaya göz açıb. İlk təhsilini Nizami adına Göyçay şəhər 7 nömrəli tam orta məktəbdə alıb. Orta məktəbi bitirdikdən sonra 2019-cu il dekabr ayının 16-dan başlayaraq Xüsusi Təyinatlı Qüvvələrdə kiçik çavuş, xilasetmə taborunda manqa komandiri kimi çalışmağa başlayıb.

Şəhid atası Ərəstun Əliyevin sözlərinə görə, onun oğlu hərbi xidməti zamanı fərmanlar və təşəkkürnamələr ilə təltif olunub.

Vətən müharibəsi zamanı şəhid E.Əliyev böyük qəhrəmanlıqlar nümayiş etdirib. Oktyabrın 6-da Qubadlı istiqamətində gedən şiddətli döyüşlər zamanı başından ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb.

"Oğlumun bir sözü var idi: Ya tarix yazacam, ya da tarixdə qalacam", – deyə şəhidin atası qeyd edib.

O, həm tarix yazdı, həm də şəhidlik zirvəsinə ucalaraq əbədi olaraq tarixdə qaldı.

Şəhid E.Əliyev 19 oktyabr 2020-ci il tarixində böyük izdiham ilə Göyçay Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Xatırladaq ki, Ali Baş Komandan İlham Əliyev tərəfindən döyüşlər zamanı göstərdiyi böyük şücaətlərə görə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

Yenə dilim əsdi, gözlərim doldu.
Bu yol həqiqətə aparan yoldu.
Sən özün dediyin kimi də oldu.
Tarixə dönmüsən, tarix yazaraq.

Dar gündə vətənin köməyindəsən,
Daşıdın yükünü kürəyində sən.
Bu xalqın əbədi ürəyindəsən,
Səni oxuyuruq biz varaq-varaq.
Tarixə dönmüsən, tarix yazaraq.

Vətən sevgisinin tələbi kimi.
Sən Koroğlu kimi, sən Nəbi kimi.
İgid, qəhrəmanlıq məktəbi kimi,
Zəfər tarixində adın qalacaq,
Tarixə dönmüsən, tarix yazaraq.



**İsgəndərov Əsəd Bəybala oğlu**



44 günlük Vətən Müharibəsdə şəhidliyə ucalan qəhrəman oğullarımızdan biri də Əsəd İsgəndərovdur. Əsəd Bəybala oğlu İsgəndərov 27 oktyabr 1990-cı ildə Göygöl rayonu Topal Həsənli kəndində anadan olub.

Əsəd müharibə zamanı özüyeriyən artilleriya taqımının top komandiri kimi Füzuli və Cəbrayıl rayonları istiqamətində döyüş yolu keçib. 2 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmənin top mərmisinin düşməsi nəticəsində şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əsəd İsgəndərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Füzulinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Əsəd İsgəndərov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Bu gün səndən danışırıq,
Bu gün səni anırıq biz.
Dilimizdə fəxr edirik,
İçimizdə yanırıq biz.

Heç vaxt üzünü görməmiş,
Adamlar da sevir səni.
Çünki sən hamımız üçün,
Qorumusan bu vətəni.

Bax, şəhidlik belə olur.
Can içində can olursan.
Vətən üçün can verirsən,
Müqəddəs insan olursan.

Şəhidlər öldüyü günü,
Əbədiyyən dirilibdi.
Ölümündən sonra sənə,
Medallar da verilibdi.

Sağ ol, özünə yaxşı bax,
İgid, qəhrəman balamız.
Ölümüylə vətən olub,
Canımızda can balamız.



## Balabəyov Pərviz Tofiq oğlu



Pərviz Tofiq oğlu Balabəyov 14 iyun 1987-ci ildə Hacıqabul rayonunda anadan olub. 2 qardaş və 1 bacı olmaqla, ailədə 5 nəfər olublar. 1993-cü ildə Hacıqabul rayon Fariz Cəbrayılov adına 2 saylı tam orta məktəbinin 1-ci sinfinə gedib və 2004-cü ildə həmin məktəbin 11-ci sinfini başa vurub.

2005-ci ildə Pərviz Hacıqabul rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılır və Tovuz rayonunda yerləşən hərbi hissəyə göndərilir. 2007-ci ildə xidmətini başa vurduqdan sonra evinə, ata-anasının yanına qayıdır və qaz xətlərinin yenidən qurulma işində qaynaqçı vəzifəsində çalışmağa başlayır. 2011-ci ildən etibarən ölkənin müxtəlif şəhər və rayonlarında su xətlərinin çəkilməsində baş usta vəzifəsində işləyir.

Pərviz ərəb dilini sərbəst bildiyindən, "Qurani Kərim"i orijinaldan səlis şəkildə oxuyurdu.

Ürəyi Vətən, torpaq sevgisilə döyünən Pərviz könüllü olaraq müddətdən artıq hərbi xidmət etmək qərarına gəlir və 2015-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, BMP zirehli texnikasında tuşlayıcı vəzifəsində xidmət etməyə başlayır. Xidməti dövründə komandanlıq tərəfindən müxtəlif medallarla təltif olunur.

2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olan Pərviz 2020-ci il sentyabr ayının 27-dən etibarən başlayan və 44 gün davam edən II Qarabağ müharibəsində də iştirak edir və ilk döyüş yolu Cəbrayıl istiqamətindən başlayır. O, düşmənin dörd zirehli texnikasını və onlarla canlı qüvvəsini məhv edir. Müharibənin ilk günündə göstərdiyi qəhrəmanlıqlarla adını qızıl hərflərlə tarixə yazaraq, şəhadətə ucalır. Şəhidin nəşi doğulub, boya-başa çatdığı Hacıqabul

rayonuna gətirilir və orada yerləşən "Şəhidlər Xiyabanı"nda böyük izdihamla torpağa tapşırılır.

Şəhidin **bacısı Günel xanım** qardaşı Pərvizi belə xatırlayır: "Atamızı 2004-cü ildə yol qəzasında itirmişik. Qardaşım çox mərd, qeyrətli bir oğul idi. Bizim üçün çox əziyyətlər çəkib. Çox vətənpərvər bir insan idi. Şəhid olmağı arzulayırdı. Hər dəfə **"Görəsən, mən nə vaxt şəhid olacağam?"** ,- deyirdi. Son danışığı müharibə başlamamışdan bir gün öncə – sentyabr ayının 26-da anamız ilə oldu. Müharibədən heç nə danışmadı, sadəcə **"Ana, özündən muğayət ol, özünə yaxşı bax, Allaha əmanət ol"** ,- dedi. Özünə arzuladığı şəhidlik məqamına çatdı. Mən qardaşımla fəxr edirəm".

Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qul-luqçusu, Hacıqabul rayonunda anadan olan Pərviz Tofiq oğlu Balabəyov ölümündən sonra **"Füzulinin azad olunmasına görə", "Vətən uğrunda"** və **"Cəsur döyüşçü"** medalları ilə təltif edilib.



Səni araşdırıram,
Bayaqdan oxuyuram.
Atdığın hər addımda,
Vətən eşqi duyuram.

Qısa bir taleyində,
Yolların uzun olub.
Sən özün söyləmisən,
Şəhidlik arzun olub.

Arzun olub vətənçün,
Ad qazanıb, ad etmək.
Əzəl torpağımızı,
İşğaldan azad etmək.

Sağ ol, arzuna çatdın,
Şuşa azaddır indi.
Sizlərin sayənizdə,
Xalqımız şaddır indi.

Səni tarix yazacaq,
Tarixlər daçıyacaq.
Adın ürəyimizdə,
Əbədi yaşayacaq.

## Rəşidov İlham Tahir oğlu



Rəşidov İlham Tahir oğlu 1983-cü il martın 1-də Türkmənistanın Marı vilayətində anadan olub. Sonradan Rəşidovlar ailəsi Azərbaycana gəliblər və Xudat şəhərində yaşamağa başlayıblar.

Azərbaycan Ordusunun baş giziri olan İlham Rəşidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. İlham Rəşidov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub. Xudat şəhərində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən İlham Rəşidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İlham Rəşidov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən İlham Rəşidov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



Sən savaşa qatılaraq,
Yetsin həsrət sona dedin,
Vətən sənə oğul dedi,
Sən vətənə ana dedin.

İgidlikdə sığışmadı,
Bir tabuta, bir ağa can.
Hamı səni alqışladı,
Bakıdan Murovdağacan.

Düşmənlərin neçə-neçə,
İgidini yerə yıxdın,
Vətən üçün şəhid olub,
Müqəddəs bir yola çıxdın.

Vətən üçün şəhid olmaq,
Hər igidin işi deyil.
İnsanı müqəddəs etmək,
Dünyanın vərdişi deyil.

İndi sənə minnətdardır,
Hər bir vətəndaş, gizirim.
Səni unutmayacayıq,
Ey müqəddəs baş gizirim.

## İsayev Alik Şakir oğlu



Alik Şakir oğlu İsayev 2001-ci il fevralın 23-də Xızı rayonunda anadan olub. Əslən qədim Borçalı mahalının Başkeçid elindəki (indiki Gürcüstan Respublikasının Dmanisi rayonu) Hamamlı kəndindən olan Alik İsayevin ailəsi ötən əsrin sonlarında Xızı rayonunda məskunlaşıblar.

Sadəcə demirdi, can atırdı ön cəbhəyə Alik... Heç zaman görmədiyi, amma ruhunu, rayihəsini, çağırışını, fəryadını hiss etdiyi Qarabağa aparırdı onu bütün yollar. Arzuları o qədər çox idi kı...

Amma ən ümdəsi vətəninə faydalı olmaq, işğal altında inləyən yurdun yaralarına öz əlləri ilə məlhəm qoymaq istəyirdi bizim cəsur Alik Şakir oğlu İsayev!

Bacardı da! Möhkəm iradəsinə, dəmir intizamına və bədən quruluşuna görə xüsusi təyinatlı qüvvələrin tərkibinə cəlb edildi. Həm də kəşfiyyatçı kimi...

Uşaqlıqdan vətənpərvərlik hissi ilə böyüyən Alik hərbi xidmət zamanı Xüsusi Təyinatlı Qüvvələrin sıralarına cəlb olunub və daha sonra kəşfiyyatçı kimi xidmətə davam edib. 44 günlük Vətən müharibəsində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikasının məhv edilməsində böyük rol oynayıb.

A.İsayev Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub.

Vətən yolunda şəhid oldu Alik. İndi ailə səbirsizliklə onun döyüş yoldaşlarını və Alikin yer aldığı videogörüntüləri gözləyirlər. 40 qorxmaz azərbaycanlı balasının arasında Alikin hər an tuş gələ biləcəyi ölümü göz altına alaraq, savaşa necə atıldığını, döyüş öncəsi duyğularını, təbəssümünü, arzularını doya-doya seyr etmək



üçün. Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) şəhid olan kəşfiyyatçısı, əsgər Alik Şakir oğlu İsayev Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının və Hadrut qəsəbəsinin işğaldan azad olunmasında fəal iştirak edib. Azərbaycanın göz bəbəyi olan Şuşa uğrunda gedən döyüşlərdə də gizirlərlə birlikdə irəli atılıb. Namərd bir düşmən gülləsi bizim mərd Alikin fiziki ömrünə son qoysa da, xəyallarını yaşadıb. Artıq Qarabağ düşməndən təmizlənib. Şəhadət zirvəsinə yüksələn dağlar oğlunun ruhu şaddır.

Alik uşaqlıqdan qəhrəman olmaq istəyirdi. Oldu da...Vətənini qorumaq, ona sahib çıxmaq istəyirdi. Bacardı bunu! Dağın zirvəsinə çıxaraq, "Qarabağ, Qarabağ" deyə hayqırarkən, o cənnət guşəmizə qovuşmaq istəyirdi. Yetişdi arzusuna! Cəmi 19 yaşında elə qürurverici həyat yaşadı kı, yalnız ailəsinin deyil, böyük nəslin, qocaman el-obanın, rayonun fəxarəti oldu. Nə qədər deyil, necə yaşamağın önəmlidir. "Şəhidlər ölməz, Vətən bölünməz" məsəlinə canlı şahid və şəhid olan Alik İsayev kimi!

Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə "Cəsur döyüşçü" ,"Vətən müharibəsi iştirakçısı","Kəlbəcərin azad edilməsinə görə" ,"Xocavəndin azad edilməsinə görə" , "Şücaətə görə" medalları ilə təltif edilib.

Ey Şuşa qartalı, ey igid adam,
Məqamın mübarək, yerin mübarək.
Vətənə can dedin, müqəddəs dedin,
Ocağın mübarək, pirin mübarək.

Səni unutmarıq keçsə də illər.
Hər zaman yaşayan bir insan oldun.
Peyğəmbər sözüdür, şəhidlər ölməz.
Bu cavan yaşında qəhrəman oldun.

Vətəni işğalda saxlayanların,
Çoxunu qanına sən bələmisən.
Düşmənin zirehli texnikasını,
Canlı qüvvəsini məhv eləmisən.

Savaş tarixini araşdıranlar,
Hələ çox yazacaq şəhidliyindən.
Gələcək dünyaya yeni nəsillər,
Hamı danışacaq igidliyindən.



## Abbasov Asim Rasim oğlu



Asim Rasim oğlu Abbasov 1987-ci il mayın 26-da İmişli rayonunun Hacırüstəmli kəndində anadan olub. 2012-ci ildən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi. 2016-cı ilin 2–5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdu.

Azərbaycan Ordusunun çavuşu Asim Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ərazi bütövlüyümüzün bərpası üçün başlayan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub.

Döyüşçü yoldaşlarının arasında Asimin ləqəbi "Qara qartal" idi.

Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Kimlər yaşamayıb əsrlər yoyu?
Tarix yaddaşında iz olan qalıb.
Səni oxuyuram, Asim Abbasov.
Vətənə yadigar dörd balan qalıb.

Onların qanında sənin qanın var.
Sabahın mərd oğlu, mərd qızıdırlar.
Şəhidlər peyğəmbər dilində kəlmə,
Quran ayəsində söz, yazıdırlar.

Sizin sayənizdə azad olundu,
Şuşanın, Laçının həsrəti dindi.
Qara qartal imiş savaş ləqəbin,
Hamı fəxr eyləyir adınla indi.





**Əliyev Fərid Hamlet oğlu**



Şəhid Əliyev Fərid Hamlet oğlu 22 mart 2001-ci ildə İsmayıllı şəhər Kürdmaşı kəndində anadan olmuşdur. 2007–2018 ci illərdə C.Həsənov adına Kürdmaşı kənd tam orta məktəbində təhsil almışdır. 2018-ci ildə İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinin “Turizm və Onun Təşkili” ixtisası üzrə təhsilini davam etdirmişdir.

2019-cu ildə təhsilinə fasilə verərək hərbi xidmətə getmişdir. Azərbaycan Ordusunun əsgəri olan Fərid Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur.

Fərid Əliyev sentyabrın 28-də doğulduğu İsmayıllı rayonunun Kürdmaşı kəndində dəfn olunmuşdur.

Şəhid Əliyev Fərid Hamlet oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə ”Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Vətənin dar günüydü,
Atıldın savaşa sən.
İndi vətən qoynunda,
Çevrilmisən daşa sən.

Şəhidlərin məzarı,
Uzaqlardan seçilir.
İndi and içilən,
Şəhidə and içilir.

Sən oldun zəfərimiz.
Sən oldun and yerimiz,
Ziyarət etdiyimiz,
Ocağımız, pirimiz.

Yerin mübarək, şəhid.
Ruhun şaddır, bilirəm.
Uğruna savaşdığın,
Yer azaddır, bilirəm.

Bilirəm, yaşayacaq,
Adın tarix boyunca.
İndi vətən yuxunu,
Yaşa, yaşa doyunca.



## Cəfərov Zaur Hüseyn oğlu



Cəfərov Zaur Hüseyn oğlu 1980-ci il martın 4-də Kəlbəcər rayonunun Başlıbel kəndində ziyalı bir ailədə dünyaya göz açıb. İbtidai təhsilinə 1986-ci il şəhid Namiq Əbdüləliyev adına Başlıbel kənd orta məktəbində başlayıb. 1993-cü il aprel ayının əvvəlləri erməni silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonunun işğal olunması nəticəsində məcburi olaraq ailəsi ilə birlikdə əvvəlcə Qax rayonuna, sonra isə Bakıya köçüb. Orta təhsilini 1997-ci ildə Qaradağ rayonu Qızıldaş qəsəbəsində şəhid Azər Namazovun adını daşıyan orta məktəbdə başa vurub.

Hələ 13 yaşındaykən Ata yurdu, Ana Vətəni Kəlbəcərin işğal olunması, köçkünlük həyatının çətinlikləri, 9 qohumunun Birinci Qarabağ müharibəsində şəhid olması, 49 qohumuna ermənilər tərəfindən mühasirəyə alınaraq 113 gün boyu ağır günlər yaşadılması, onlardan 18-nin ermənilərə direniş göstərərkən qətlə yetirilməsi, digər 9 nəfərinin qarlı yollarda şəhid olması, 19 nəfərin isə girov götürülməsi elə uşaq vaxtlarından Zaurda düşmənə nifrəti və hərbiyə marağı artırmışdı.

Təəccüblü deyil ki, orta təhsilini uğurla başa vuran Zaur Ali Hərbi Məktəbə daxil olub. Hərbi təhsilini 2001-ci ildə leytenant rütbəsi ilə bitirib. 11–22 sentyabr 2000-ci ildə Rumıniya və Türkiyəyə kurs və təlimlərə göndərilib. Azərbaycan Ali Hərbi Məktəbini bitirərək Dövlət Attestasiya Komissiyasının 20 avqust 2001-ci il tarixli qərarı ilə "Raket qoşunlarının artilleriya və raket artilleriya qoşunlarının döyüş fəaliyyətinin idarə edilməsi, operativ-taktiki, taktiki-raket, yerüstü artilleriya və sahil raket artilleriya silahlarının döyüş tətbiqi, yerüstü artilleriyanın taktiki komandanlığı" ali peşə istiqaməti üzrə bakalavr dərəcəsi verilib.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 01.10.2001-ci il tarixindən 28.07.2002-ci il tarixinə kimi fəaliyyət göstərən zabit ixtisas kursunu müvəffəqiyyətlə bitirib. Xidmətinin böyük bir hissəsi Naxçıvan dağlarında – Əlahiddə Ümumqoşun Ordu Korpusunda keçmişdir. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 12.05.2003-cü il tarixindən 25.06.2003-cü il tarixinə kimi fəaliyyət göstərən artilleriya batareya komandiri kursunu, 14.11.2005-ci il tarixindən 17.12.2005-ci il tarixinə kimi fəaliyyət göstərən artilleriya divizionu komandirinin maddi-texniki təminat üzrə müavini kursunu, 01.09.2008-ci il tarixindən 11.10.2008-ci il tarixinə kimi fəaliyyət göstərən artilleriya divizionunun qərargah rəisi – divizion komandirinin müavini kursunu, 03.02.2014-cü il tarixindən 15.03.2014-cü il tarixinə kimi fəaliyyət göstərən artilleriya divizionunun komandiri kursunu müvəffəqiyyətlə bitirib.

Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə nazirinin 0109t №-li 26 iyun 2008-ci il tarixli əmri ilə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, 0135t №-li 19 iyul 2008-ci il tarixli əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, 26 iyun 2014-cü il tarixli 0199t №-li əmri ilə "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, 0204t №-li əmri ilə isə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif olunmuşdur.

Vətəninin darda olduğunu dərindən dərk edən və işğal altında olan torpaqları azad etmək fikrini ehtiyata buraxılmaqdan üstün tutan Zaur hərbi xidmətini davam etdirmək üçün 2014-cü ilin sentyabr ayında imtahan verərək magistratura səviyyəsi üzrə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil olub. Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə nazirinin 087t №-li 12 may 2016-cı il tarixli əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991–2001)" yubiley medalı ilə təltif olunmuşdur. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi



Akademiyasının İxtisaslaşdırılmış elmi şurasının 16 iyun 2016-cı il tarixli qərarı ilə "Hərbi və dövlət müdafiəsini idarəetmə" ixtisasının "Hərbi idarəetmə (əməliyyat-taktiki səviyyə) ixtisaslaşması üzrə magist elmi-ixtisas dərəcəsi verilib. Təhsilini bitirdikdən sonra polkovnik-leytenant rütbəsinə yüksəlib və xidmətini Birinci Ordu Korpusunda davam etdirib. Nümunəvi xidmətinə görə qısa bir müddət ərzində diviziya komandiri vəzifəsindən hərbi hissənin qərargah rəisi vəzifəsinə qədər yüksəlib. Komandir yoldaşları onu "Ağır artilleriyanın atası" adlandırırdı. Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2018-ci il tarixli 0212t №-li əmri ilə "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı, 0164t №-li əmri ilə isə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı ilə təltif edilib.

O, 2018-ci ildə vaxtsız dünyasını dəyişən Birinci Qarabağ müharibəsi veteranı, N saylı hərbi hissənin tibbi bölüyünün həkimi, ehtiyatda olan zabit, tanınmış həkim, ortoped, Tibb Elmləri üzrə Fəlsəfə doktoru, Azərbaycan Travmatoloqlar Cəmiyyətinin üzvü, Tibb Universitetinin dosenti, 1 saylı Şəhər Klinik Xəstəxanasının travmatoloq-cərrahı, şair, yazıçı, müəllim Sabir Mirzəyevin (Mahir Hacib) dayısı oğlu idi.

Polkovnik-leytenant Cəfərov 2016-cı il Aprel döyüşləri və 2020-ci il Tovuz döyüşlərində öz əsgərləri ilə birgə səngərdə düşmən həmlələrinə qarşı mübarizə aparıb.

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq 2020-ci il 25 iyun tarixində Azərbaycan Respublikası Prezidentinin 2127 №-li sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edilib.

Zaur Cəfərov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində öz briqadası ilə çiyin-çiyinə vuruşub. 28 ildir gözlədiyi zaman yetişmişdi. Daim irəli can atırdı. Yerə-göyə sığmırdı. Düşmənin döyüş meydanında qoyub qaçdığı texnikanı özü idarə edərək qənimət gətirirdi. Dostları Polad Həşimov və İlqar Mirzəyevin, bibisi oğlu Yalçın Mustafayevin qisasını almaq üçün dəridən-qabıqdan çıxırdı. Bir gün döyüşlərin şiddətli vaxtında xəbər alır ki, qardaşının tələbəsi Ələkbər Ələsgərov şəhid olub. Polkovnik-leytenantımız 22 yaşlı şəhid Ələkbər Ələsgərovun xatirəsini əbədiləşdirmək üçün ağır döyüşlərin getdiyi bir vaxtda düşmən tankını hərbi qənimət kimi ələ keçirib tankın üzərinə şəhidin adını həkk elətdirib və təsəlli üçün şəklini çəkib şəhidin ailəsinə göndərib və Ələkbərin qanının yerdə qalmadığını bildirib. Madagiz-Ağdərə istiqamətində rəhbərliyi ilə keçirilən hərbi əməliyyatlar zamanı Ermənistan Silahlı Qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb.

Həmçinin Ermənistan Silahlı Qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib. 3 oktyabr tarixində Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin və Murov dağ silsiləsinin işğalçılardan azad olunmasında müstəsna əmək sərf edib. Şəhadətindən 4 gün öncə oğlu və kiçik qardaşı ilə görüşən şəhidimiz ona dostlarının və bibisi oğlunun qisasını aldığını və tezliklə onları Kəlbəcərin Başlıbel kəndinə, öz dədə-baba yurduna aparacağını bildirib və dəfələrlə inanılmaz vəziyyətlərdən sağ çıxdığı üçün qurban kəsmələrini onlara, ilk dəfədir ki, tapşırmışdır. Polkovnik-leytenant 2020-ci il oktyabrın 9-dan 10-a keçən gecə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən sərəncamında olan minik avtomobili ilə minaya düşərək qəhrəmancasına şəhid olub.



Oktyabrın 19-da polkovnik-leytenant Zaur Cəfərovun nəşi əvvəlcə valideynlərinin yaşadığı Bakı şəhəri Yeni Ramana qəsəbəsinə gətirilib. Şəhidin cənazəsi Yeni Ramana qəsəbəsində izdihamla qarşılanmış, böyükdən-kiçiyə, demək olar ki, hər kəs onun valideynlərinin yaşadığı əraziyə toplaşmışdır. Oradan avtomobil karvanı ilə II Fəxri Xiyabana yürüş olub. Vida mərasimində Milli Məclisin deputatı Aqil Məmmədov, Milli Məclisin deputatı, Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı – "Azərittifaq"ın sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor Eldar Quliyev, Azərbaycan Hüquqşünaslar Konfederasiyasının İdarə Heyətinin üzvü, Xüsusi Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü və vitse-prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin İnsan Hüquqları Komitəsinin, İctimai birliklər və dini qurumlar Komitəsinin və İntizam Komissiyasının üzvü, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü Fazil Mustafa, Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının Sədr müavini Bəxtiyar Qasımov, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Şahin Həsənli (Hacı Şahin) və Kəlbəcər rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak edib.

Şəhidin yas mərasimində atası Hüseyn Cəfərovdan götürülən video müsahibə zamanı onun qürurla səsləndirdiyi fikirlər ürəkləri daha da dağlayır:

"Zaman keçəcək, o dağıdılan, yandırılan evlər, tikililər yenidən tikiləcək, analar igid oğullar doğacaq. Bəs Qarabağı kim doğacaq?! Qarabağ doğulmayacaq. Qarabağı can-qan bahasına geri qaytarmaq lazımdır!"

Zaur həmin gün II Fəxri Xiyabanda, cəbhə dostları general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevin məzarlarının sol tərəfində yaylım atəşi ilə təntənəli şəkildə torpağa tapşırılıb.

Vətən müharibəsindəki hərbi vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 15.12.2020-ci il tarixində "Vətən uğrunda" medalı, 29.12.2020-ci il tarixində "Suqovuşanın azad olunmasına görə" medalı ilə, 30.12.2020-ci il tarixində "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

Ailəli idi. 2 qız, bir oğul övladı əmanətdir.

Sən vətənin bağrına,
Zəfər yazan qan – şəhid.
Sən tarixi şəxsiyyət,
Milli qəhrəman şəhid.

Hamı səni oxuyur,
Səni danışır indi.
İgidlər sən olmağa,
Sənsiz çalışır indi.

Elə bir iz qoymusan,
Vətənin yaddaşında,
Ruhunda yaşayırsan,
Qayanın da, daşın da.

Sən qisasını aldın,
Neçə-neçə dostunun,
Dağıtdın, viran etdin,
Düşmənlərin postunu.

İndi də uyuyursan,
Dostlarının yanında,
Əbədi qalacaqsan,
Bu vətənin canında.



## Quliyev Ramil Nuralı oğlu



Ramil Nuralı oğlu Quliyev 1981-ci il yanvarın 28-də Kürdəmir rayonunun Qarasu kəndində anadan olub.

Baş gizir Ramil Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edib.

O, sentyabrın 29-du Füzulinin azadlığı uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid oldu. Kürdəmir rayonunun Qarasu kəndində dəfn olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Ramil Quliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidlər uca olur,
Uludan ulu insan.
Sən Kürdəmir-Füzuli,
Zəfərin yolu insan.

Nə xoşbəxtsən dadmısan,
Şəhidliyin dadın sən,
Vətənin dar günündə,
Dayanıb susmadın sən.

Atıldın döyüşlərə,
İgid, cəngavər kimi,
Tarixə zəfər yazdın,
Qəhrəman əsgər kimi.

İndi səni oxuyur,
Məktəblərdə uşaqlar,
Unutmaz səni, qardaş,
Azad etdiyin dağlar.



**Rəsulzadə Təbriz Əfrayim oğlu**



Təbriz Rəsulzadə (tam adı: Təbriz Əfrayim oğlu Rəsulzadə; 5 fevral 1993; Qax, Azərbaycan – 27 sentyabr 2020; Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı, Vətən müharibəsinin şəhidi.

Təbriz Rəsulzadə 1993-cü il fevralın 5-də Qax rayonunun Cəlayir kəndində anadan olub. Azərbaycan Ordusunun baş leytenantı olan Təbriz Rəsulzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. Təbriz Rəsulzadə sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Qax rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Təbriz Rəsulzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Prezident İlham Əliyevin 18.12.2020-ci il tarixli sərəncamı ilə Təbriz Rəsulzadə, Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirməsinə, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənməsinə görə ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edildi.

Salam var Şuşadan Rəsulzadəyə,
Salam var Təbrizdən Təbrizə qədər.
Sizlər yol açdınız, zəfərin yolun,
Dərbənd, Zəngəzurdan dənizə qədər.

Cəsur igidliyin miras qalıbdır,
Sabahın qəhrəman nəsillərinə,
Davamlı zəfərin davamlı yolu,
Bəsdir bu vətənin min illərinə.

Adın bu vətənin daş yaddaşından,
Heç vaxt silinməyən qızıl ad olsun.
Səni unutmarıq, unutmarıq biz,
Yerin behişt olsun, ruhun şad olsun.





## İsmayılov İmamverdi Yoloğlu oğlu



İkinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olan igid Vətən oğullarından biri də kapitan İsmayılov İmamverdi Yoloğlu oğludur. O, 1 may 1989-cu ildə Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 1996-cı ildə İslam Nəsibov adına Aşağı Əskipara kənd tam orta məktəbin I sinfinə daxil olmuş, 2004-cü ildə həmin məktəbin VIII sinfini bitirmişdir.

Həmin ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdur. 2007-ci ildə həmin liseyi bitirmiş və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2011-ci ildə həmin məktəbi bitirmişdir. Sonra 1 il Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) təhsil almışdır. Təhsilini bitirdikdən sonra Qusar rayonunda, Sumqayıt şəhərində (Nasosnu), Bakı şəhərində Müşviq qəsəbəsində "N" saylı hərbi hissələrdə işləmişdir. 2017-ci ildən Mingəçevirdə "N" saylı hərbi hissədə xidmət etmişdir. Həmin hərbi hissənin tərkibində olan həmlə taborunun qərərgah rəisi olmuşdur. Kapitan rütbəsi daşıyan İmamverdi İsmayılov Murov istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. 29.09.2020-ci il tarixdə Qazax rayonunun Ağköynək kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir. Ailəliydi. Emin və Elnur adlı adlı iki oğul övladı yadigar qalıb. Böyük oğlu Emin İsmayılov Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyin II sinif şagirdidir. Kiçik oğlu Elnur İsmayılov isə azyaşlıdır.

Bütün şəhidlərimiz kimi kapitan İmamverdi İsmayılovun xatirəsi hər zaman əziz tutulur. Şəhid kapitanımızın göstərdiyi igidlik cənab Prezident İlham Əliyev tərəfindən də yüksək qiymətlən-

dirilmişdir. O, ölümündən sonra ölkə Prezidentinin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

Bir şəhid məzarının,
Dayanmışam önündə,
Bu şəhid tarixidir,
Dünən, bu günün də.

Sizlər tarix yazdınız,
Şuşanın dağlarına,
Gedib qonaq oldunuz,
Cənnətin bağlarına.

Hər millətin, hər xalqın,
Tarixində olmayır,
Sizin kimi igidlər,
Yaddaşlarda qalmayır.

Necə də işıq saçır,
Hər şəhidin məzarı,
Şəhidlər böyüklükdə,
Vətən ilə tən yarı.

İmamverdi dayanıb,
Şəhidlər sırasında,
Hər şəhid sızıldayır,
Vətənin yarasında.

Sizinlə fəxr edirik,
Bizim hamımız indi.
Qarşınızda baş əyir,
Bütün xalqımız indi.



## Rəhimov Fariz Zahir oğlu



Fariz Rəhimov (tam adı: Fariz Zahir oğlu Rəhimov; 20 sentyabr 2001; Qəbələ, Azərbaycan – noyabr 2020; Şuşa, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, İkinci Qarabağ müharibəsi şəhidi.

Fariz Rəhimov Zahir oğlu 2001-ci il 20 sentyabr tarixində Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. Milliyyətcə ləzgi olan Fariz Rəhimov 2006-cı ildə Əmirvan kənd orta məktəbində orta təhsilə başlamış və 9-cu sinfi bitirdikdən sonra 2016-cı ildə Bakı şəhər 12 saylı Bakı Peşə Liseyinə qəbul olub və 2017-ci ildə həmin təhsil müəssisəsindən Geniş Profilli Dəzgahçı dərəcəsi ilə məzun olub. 2021-ci ildə Fariz Rəhimovun təhsil aldığı 12 saylı Bakı Peşə liseyinin (indiki Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Mərkəzinin) kitabxanaçisi AYB nin üzvü Xanım Mehdixanlının həmin peşənin 9 şəhid məzunu haqqında yazdığı "Unutmaq olarmı sizi şəhidlər" kitabında Fariz Rəhimova həsr edilmiş "Şuşa Fatehi" adlı məqalə yer alıb.

Azərbaycan Ordusunun əsgəri olan Fariz Rəhimov 2019-cu ilin payız çağırışında hərbi xidmətə çağrılıb. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsində Füzuli, Cəbrayıl, Xocavənd, Laçın, Şuşa istiqamətində gedən döyüşlərdə savaşıb. Fariz Rəhimov Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Əmirvan kəndində yerləşən Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş

tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fariz Rəhimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Salam, Fariz Rəhimov,
Salam, igid qardaşım.
Sən mənim zəfər yerim,
Sən mənim qan yaddaşım.

Bu gün səndən yazıram,
Səsim tutub hər yanı,
Zəfər tariximizin,
İgidi, qəhrəmanı.

Heç bilmirəm nə yazım,
Necə yazım mən səni,
Qanınla azad etdin,
Sən müqəddəs vətəni.

İndi sən də vətənsən,
İndi sən də müqəddəs.
Səni öz ürəyində,
Yaşadacaqdır hər kəs.



## Vəliyev Elyar Arif oğlu



Elyar Arif oğlu Vəliyev 1991-ci il oktyabrın 17-də Qobustan rayonunun Sədəfli kəndində doğulub. Vəliyevlər ailəsinin ilki olan Elyar kənd orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətini başa vurduqdan sonra hərbçi olmaq qərarına gəlib. 2010-cu ildə Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə daxil olub və burada öz şücaəti ilə komandir heyətinin rəğbətini qazanıb.

Vətən Müharibəsi başlayanda Elyar artıq 10 il idi ki, Xüsusi Təyinatlı Qüvvələrin giziri idi. O, Vətən Müharibəsinə kimi 2016-cı ilin aprel döyüşlərinin və 2020-ci ilin Tovuz döyüşlərinin iştirakçısı olmuşdu. Sentyabrın 27-dən başlayan Vətən Müharibəsində Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda döyüşüb. Oktyabrın 19-da Qubadlı döyüşləri zamanı şəhid olub.

Görünür, müharibə gənc Elyarın taleyinə yazılıbmış. Döyüşçü yoldaşları onun qorxmaz, cəsur və Vətən eşqi ilə alışıb yanan bir dost kimi xatırlayırlar. Elyar Vətən Müharibəsinin gedişatında bir neçə dəfə hərbçi yoldaşlarını ölümdən xilas edib. Belə döyüşlərin birində Elyar Vəliyev və digər hərbçi yoldaşları Füzuli rayonunun Horadiz kəndi yaxınlığında düşmənin 200-ə yaxın canlı qüvvəsini məhv ediblər. Həmin gecə onların xüsusi şücaəti sayəsində düşmənin 12 tankı və xeyli sayda hərbi sursatı darmadağın edilib, bir neçəsi texnikası ələ keçirilib.

Daha sonra Cəbrayıl istiqamətindəki döyüşlərə yollanan Elyarın növbəti tapşırığı içərisində düşmənin yüksək rütbəli zabitləri olan hərbi nəqliyyat vasitələrini partlatmaq olub. Tapşırıq uğurla yerinə yetirilib. Elyar düşmənin UAZ markalı avtomobilini

partladaraq biri polkovnik olmaqla bir neçə erməni zabitini məhv edib.

Döyüş başlayan gündən bir an belə gözlərini yummayan, qorxu hissinin nə olduğunu unudan **Elyarın son döyüşü Xocavənd rayonunun Qırmızı Bazar adlanan ərazisində olub.** Yanındakı hərbçi yoldaşları şəhid olandan sonra döyüş meydanında tək qalan qəhrəmanımızın döyüş sursatı tükənib. Bu zaman xain düşmənin snayper gülləsi gizir Elyar Vəliyevin ürəyinə sancılıb. Tale elə gətirib ki, ömrünün 29-cu payızını yaşayan gizir Elyar Vəliyev doğum günündən iki gün sonra ən uca zirvəni – Şəhidlik məqamını fəth edib.

**Atası Arif Vəliyev** onu xaraktercə sərt, xasiyyətcə mülayim bir övlad kimi xatırlayır: "Xüsusi təyinatlı dəstənin giziri olan Elyar Vəliyev 2016 və 2020-ci illərdə 3 döyüşdə iştirak edib, çoxlu sayda yaralı döyüş yoldaşlarını xilas edib. Vətən Müharibəsi zamanı düşmənin 12 tankını, 200-ə yaxın canlı qüvvəsini məhv edib, bir yaralı erməni əsgərini əsir götürüb. Cəbrayılın azad edilməsi zamanı bir hərbi avtomobili partladıblar, yüksək rütbəli zabitləri məhv ediblər. Bir "KamAZ" dolu erməni əsgərini məhv ediblər. Elyar erməni qərargahını ələ keçirib və erməni polkovniki məhv edib. Gülləsi başa çatanadək döyüşüblər".

**Anası Səmayə Vəliyevanın** sözlərinə görə, Elyarın qardaşı da hərbçidir: "İki oğlum var. Hər ikisi hərbçidir, müharibədə iştirak edib. Sonuncu dəfə oktyabrın 18-də Elyarla telefonla danışmışdıq. Ayın 19-da şəhid olub".

Elyarın dəfələrlə həyatlarını xilas etdiyi hərbçi yoldaşları bu gün onu ehtiramla yad edirlər. **Şəhidimizlə çiyin-çiyə döyüşən Səxavət Salmanov** bildirir ki, peşəkar döyüşçü olan Elyar sanki hərbçi olmaq üçün doğulmuşdu: "Elyar Vəliyevlə uzun müddət xüsusi təyinatlılar qrupunda birgə xidmət etmişik. Elyar Vəliyevin sayəsində Aprel və Tovuz döyüşlərində çoxlu yaralılarımızın



həyatı xilas olunub. O, döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirirdi. Mən döyüşlərin birində yaralanmışdım. Elyar Vəliyev mənə vaxtında tibbi yardım göstərməsəydi, çoxlu qan itirəcəkdim və şəhidlik zirvəsinə ucalacaqdım. Bu gün onun sayəsində mən yaşayıram. Elyar Vəliyevin əhatəsində olan 50 nəfərlik dəstə 600 nəfərlik erməni ordusunu tamamilə məhv edib".

**Şəhidin idman müəllimi Sərhad Quliyev** onunla fəxr edir: "Mən ona əlbəyaxa döyüşün sirlərini öyrətmişəm. O, idman sahəsində göstərdiyi gücü torpaqlarımızın işğaldan azad olunmasında da göstərdi. O, əsl qəhrəman idi".

*Şəhid Elyar Vəliyev ailəli idi və üçəm olmaqla beş övlad atası idi.* Şəhidimizin anası deyir ki, müharibəyə yollananda Elyarın son sözü o olub ki, övladlarım üçün, onların xoşbəxt gələcəyi naminə döyüşə getməliyəm.

Bu gün Elyar başda olmaqla bütün şəhidlərimizin övladları atalarının qalib etdiyi bu Vətəndə rahat şəkildə böyüyüb boya-başa çatacaq və şəhid atalarının ruhların şad edəcəklər.

Qeyd edək ki, şəhid Elyar Arif oğlu Vəliyev ölümündən sonra **" Vətən uğrunda" medalı və "Vətən Müharibəsi Qəhrəmanı"** fəxri adı ilə təltif olunub. Xatirəsinin əbədiləşdirilməsi məqsədilə onun adı Qobustan rayonunun mərkəzi küçələrindən birinə verilib.

Sən də hər şəhid kimi,
Vətənin mənasısan,
Bu torpağın balası,
Beş uşaq atasısan.

Sənin gül balaların,
Xalqa əmanətindir.
Milli ruh, milli kimlik,
Sənin məhəbbətindir.

Səndən qalan igidlik,
Səndən qalan ad böyük.
Atanın gözlərində,
Həsrətli fəryad böyük.

Böyük xalqlar içindən,
Böyük igidlər çıxır.
Sizlərin əlinizlə,
Bu vətənin canından,
Tək-tək güllələr çıxır.

Sənə minnətdarıq biz,
Ey tarixin yaddaşı,
Ey analar övladı,
Ey igidlər qardaşı.



**Nuran Mirzəyev Akif oğlu**



Nuran Mirzəyev Akif oğlu 27 iyul 1999-cu ildə Quba rayonunun Dağlı kəndində ləzgi ailəsində anadan olub. 2005–2014-cü illərdə Qımıl kənd ümumi orta məktəbində təhsil alıb. Təhsilini davam etdirərək 2014-cü ildə Quba Peşə Liseyinə daxil olub. 2017-ci ildə Quba Peşə Liseyini bitirərək Rabitə, elektrik mantyoru, sürücü ixtisaslarına yiyələnib. 2017–2019-cu illərdə həqiqi hərbi xidmətdə olub. Subay idi.

28 sentyabr 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən səfərbərliyə çağırılıb və 29 sentyabr 2020-ci ildə Vətən Müharibəsinə yollanıb. 19 oktyabr 2020-ci ildə Füzuli, Cəbrayıl,Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 21 oktyabr 2020-ci ildə Quba rayonunun Qımıl kəndində dəfn olunub.

Təltif və mükafatları:
(15.12.2020) – "Vətən uğrunda" medalı (ölümündən sonra)
(24.12.2020) – "Cəbrayılın azad olunmasına görə" medalı (ölümündən sonra)
(29.12.2020) – "Qubadlının azad olunmasına görə" medalı (ölümündən sonra)
(30.12.2020) – "Hərbi xidmətlərə görə" medalı (ölümündən sonra)

Şəhid Nuran Mirzəyevin atası müsahibə verərəkən oğlunu uzaqdan tanıdığını deyir:

"Bizə oğlumun şəhid olması ilə bağlı yox, yaralanması ilə bağlı xəbər verdilər. Beyləqana getdim. Bir yer var idi, şəhidləri ora gətirmişdilər. Uzaqdan orda olanlara baxa-baxa axtarırdım oğlumu. Hardasa 10 metrlik məsafədən birinin ayağını gördüm. Gəlib yaxınlaşdım həmin adama. Şəhidlərin arasında idi. Üstünə mələfə örtülmüşdü.Yaxınlaşıb, üstündən mələfəni açdım. Şəhid mənim oğlum idi, o idi Nuran, gülə-gülə gözləri açıq mənə baxırdı... Ucaboy, hündür birisi idi, boyu 1 metr 81 sm idi. Oğlum 42 razmer ayaqqabı geyinirdi. İnanın ki, oğlumun üzünü görmədən, ayağından tanıdım. Bəlkə də ata kimi qoxusundan tanıdım onu..."

Şəhid atası deyir ki, oğluma diqqqətlə baxdım. Gözləri açıq, təbəssümü sifətində donub qalmışdı:

"Qucaqladım oğlumu, cansız bədəninə sarıldım. Gözləri açıq qalmışdı, onu qucaqlayandan sonra gözlərinin biri batdı. Cənazənin yanında Beyləqanda "Peyğəmbər" məscidinə çatanda, açıq qalmış o biri gözü də bağlandı...orda dayanan hərbi polisdə işləyənlərdən biri bizim qohum idi, məni tanıyıb yaxınlaşdı, ürəkdirək verdi və bizi müşayət elədi."

Akif Mirzəyev deyir ki, oğlu peşə məktəbini bitirmişdi. Quba Rayon Qaz İstismar idarəsində işləyirmiş:

"Həqiqi hərbi xidmətdən 2 ilə yaxın idi gəlmişdi. Səfərbərlik vaxtı müharibəyə yollandı. Çox mədəni bir uşaq idi. Hər kəsin hörmətini qazanmışdı, istər iş yerində, istərsə də dostları arasında. Sentyabrın 29-da müharibəyə yola düşdü. Cəbrayıl və Qubadlı istiqamətində döyüşlərdə iştirak edib. Döyüş yoldaşları deyir ki, həmişə öndə gedirmiş. Qumbaratan imiş. Qubadlı uğrunda gedən döyüşlərdə minamyot atəşindən qəlpə yarası alıb."

Şəhid atasının dediyinə görə bu yaxınlarda oğlunun döyüş yoldaşları gəlibmiş onlara. Oğlunun döyüş yolundan və son vəsiyyətini atasına çatdırıblar:



"Sağ olsunlar, oğlumun döyüş yoldaşları gəlmişdi bizə. Xeyli söhbət etdik. Onların dediyinə görə, oğlum ölümündən 4 gün əvvəl Cəbrayıl rayonunda bir tağımı ölümdən qurtarıb. Düşmən onların irəlilədiyi yeri minalayıbmış. Oğlum təsadüfən orda bir məftil, ya da sim görüb. Əraziyə baxış keçirəndə görüb ki, onların irəliləyib hücum edəcəyi mövqelər minalanıb, arxasınca gələnləri geri qaytarıb. Mianaxtaranlar gəlib ordan xeyli mina təmizləyiblər. Qubad-lıda hansısa yüksəkliyi alandan sonra düşmən bizim mövqeləri minatanlarla atəşə tutub. Qəlpə sifətindən dəyib, başının arxa-sından çıxmışdı. Şəhadətə qovuşmamış dostlarından su istəyib. Su içən kimi canını tapşırıb. Gülərüz və şən uşaq idi. Müharibə yoldaşları deyir ki, həmişə bizi ruhlandırırdı, mahnılar zümzümə edirdi. Həmişə üzü gülürdü, təbəssüm üzündən əskik deyildi. Şəhid olanda sifətinin təbəssümü elə üzündə qalmışdı. Gülə-gülə şəhid olmuşdu."

"Anası müharibəyə gedəndə oğluna bir ovuc konfet vermişdi. Dostları deyir ki, susuz qalan vaxtlar konfet paylayırdı bizə. Hərəmizə bir dənə iris verib deyirdi ki, ağzınızın tamını dəyişin...

Oğlumun cansız bədənini qucaqlayıb bağrıma basdım. Onu oxşayıb, hönkür-hönkür ağladım. Birdən gözlərim şalvarının cibindən çölə çıxmış bir dənə konfetə sataşdı... elə bil oğlumun cibindən bir konfet çıxıb mənə baxırdı. Birdən yadıma düşdü ki, anası bir ovuc konfet vermişdi müharibəyə yola salanda. Hamısını dostlarına paylamışdı. Sadəcə bircə o konfeti saxlamışdı. İndi o konfet bizdə, ona baxıb təsəlli tapırıq. O konfetdə oğlumun əl izi var, cibinin qoxusu var." – deyir şəhid atası Akif Mirzəyev. Atası deyir ki, sonuncu dəfə mənimlə ölümündən bir gün qabaq danışdı. Dedi ki, ata yadındadır, mənə həmişə bir şeir deyirdin?!

"Şəhid olmamışdan bir gün əvvəl mənə zəng elədi. O qədər qürurlu danışırdı ki...Dedi ki, ata, həmişə mənə sevdiyin bir şeri

deyirdin, yadındadır?.. Yadına düşmədisə, deyim... Ata, bax, o şeri sənə deyirəm qulaq as...

> "Vətən mənə oğul desə, nə dərdim,
> Mamır olub qayasında bitərdim."

Oğlum o şeri mənə dedi və əlavə etdi ki, ata, ən çox sevdiyin şerdi, nəsə olsa ağlama...Axı bu şeri özün mənə sevdiribsən, bu Vətəni mənə sən sevdirmisən...Heç vaxt narahat olma, qələbə bizimdir. Səndən bir xahişim var, halallığını istəyirəm, başqa heç nə. Bu şeri mənə telefonla bir də dedi və həmin günün səhərisi şəhid oldu." – deyir şəhid atası Akif Mirzəyev.

"Oğlum subay idi. Şəhid olandan sonra xəbərim olub ki, qonşu kənddən qız istəyirmiş... Bir dəfə anası ilə danışanda deyib ki, ana siqaret çəkmək istəyirəm. Atam bilsə, görəsən məni danlayarmı?.. Amma bilsəm danlamaz siqaret çəkərdim. Anasına dedim ki, yox çəkməsin. Olmaz. Döyüş yoldaşları mənlə görüşəndə onu da dedilər ki, şəhid olan günə kimi siqaret çəkməyib. Deyib ki, atam icazə verməyib, siqaret çəkə bilmərəm."



Atan səndən danışır,
Kədərli, şirin-şirin.
İndi dil əzbəridir,
Son dediyin sözlərin.

Sənə oğul söylədi,
Vətən şəhidliyinlə.
Min bir qəhrəmanlığın,
Min bir igidliyinlə.

İstəmişdin qayada,
Mamır kimi bitməyi.
Gözün aydın ey şəhid,
Çiçək kimi bitmisən.
Vətənin ürəyinə,
Zəfər yolu getmisən.

Atan icazə verib,
Siqaret də çək indi.
Bu vətən,
Bu torpaqlar,
Bu məmləkət sənindi.

Sən indi qəlbimizin,
Uca zəfər dağısan,
Rahat uyu, rahat yat,
Tanrının qonağısan.

**Həmidov Şükür Nəriman oğlu**



Şükür Nəriman oğlu Həmidov 1975-ci il, aprelin 1-də Qubadlının Armudluq kəndində anadan olub.

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda misilsiz qəhrəmanlıq göstərək şəhid olanlardan biri də Şükür Həmidovdur. O, işğal atında olan Lələtəpə yüksəkliyini fəth edən zabitlərdəndir. O zabitlərdən ki, əsgəri ilə çiyin-çiyinə qanlı döyüş meydanına atılaraq ölümün gözünə dik baxıb. Özünün təbirincə desək, Lələtəpə romantikasını Azərbaycan əsgərinin qarşısından silahını ataraq qaçan düşmən zabitini görmə həzzini yaşayıb.

Həmin kənddə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olub. Həmin liseyi bitirdikdən sonra 1993-cü ildə Bakı Birləşmiş Ali Hərbi Komandirlər Məktəbinə qəbul olub. Hələ təhsilini hərbi liseydə davam etdirən zaman könüllü olaraq döyüşlərə qatılmaq arzusunda olduğunu bildirib. Motoatıcı ixtisasına yiyələnən Şükür Həmidov 1995-ci ilin iyun ayında ilk hərbi rütbəsini, leytnant rütbəsini alaraq Naxçıvan Muxtar Respublikasında yerləşən N saylı hərbi hissələrin birində tağım komandiri kimi xidmətə başlayıb. Orada mayor hərbi rütbəsinə qədər yüksəlib. 2006-cı ildə Silahlı Qüvvələrin Hərbi Akademiyasına daxil olub. 2008-ci ildə Hərbi Akademiyanı bitirdikdən sonra cəbhə bölgəsində yerləşən N saylı hərbi hissələrin birində bölmə komandiri kimi xidmətimi davam etdirdim. Sonra müxtəlif vəzifələrdə tabor komandiri, qərargah rəisi kimi xidmət edərək, hərbi hissə komandiri vəzifəsinədək yüksəlib.



O, 2016-cı il Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad edilməsi uğrunda döyüşlərdə böyük şücaət göstərib. Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2016-cı il tarixli Sərəncamı ilə Şükür Həmidov "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Lələtəpə yüksəkliyinin azad edilməsi əməliyyatı zamanı göstərdiyi şücaətə görə Şükür Həmidova vaxtından əvvəl polkovnik hərbi rütbəsi verilib.

Həmidov sağlığında verdiyi müsahibədə Lələtəpə döyüşlərini belə xatırlayır: *"Həmin günlər düşmən öz aləmində gizli tədbirlər həyata keçirirdi. Onlar arxadakı bölmələrini önə çəkirdilər, döyüş təlimləri adına müəyyən qruplaşmalar yaradırdılar, artilleriya, motoatıcı, mexanikləşdirilmiş tank bölmələrini önə gətirib ərazilərdə cəmləşdirirdilər. Təbii ki, bizim bölmələr boş durmayıb qarşı tərəfin bütün hərəkətini müşahidə edirdi. Baş verənləri təhlil etdikdən sonra anlamışdıq ki, düşmən hücumu ola bilər. Yanılmadıq... Aprelin 1-dən 2-nə keçən gecə düşmən təxribat fəaliyyətinə başladı. Həmin istiqamətdə hərbi hissə komandiri idim. Baxdım ki, düşmən açıq şəkildə hücuma başlayır. Həmin vaxt ön xətdə xidmət aparanların hamısı adi əsgərlər idi. Həmin əsgərlər düşmən hücumunun qarşısını rəşadətlə aldılar. Onlara Azərbaycan əsgərinin zərbi-dəstini göstərdilər. Düşmənə sübut etdilər ki, bu, 1992–1993-cü illərdəki peşəkar zabitlər tərəfindən idarə olunmayan, silah-sursat qıtlığı yaşayan özünümüdafiə bölmələri deyil, bu, ən müasir ordularla müqayisə ediləcək Azərbaycan Ordusudur".*

Silahdaşları bildirirlər ki, Şükür Həmidovun ən böyük arzusu işğal altındakı torpaqlarımızı, eləcə də doğma Qubadlı rayonunu işğaldan azad etmək olub və o, Qubadlının bir neçə kəndinin azad edilməsi əməliyyatlarında iştirak edib.

Milli Qəhrəman Şükür Həmidov 22 oktyabrda Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı.

Vətən müharibəsindəki şücaətlərinə görə, Şükür Nəriman oğlu Həmidov Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Zəfər" ordeni, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Səni şəhidliyindən,
Öncə tanımışam mən,
Hər kəsin dilinin əzbəri idin.
Baş komandan önündə,
Ordumuz düzülmüşdü,
Sən bayraq qrupunun rəhbəri idin.

Sən vətəni qorudun,
Ürək kimi, can kimi.
Adın tarixə düşdü,
Milli qəhrəman kimi.

İndi yeni nəsillər,
Sən ruhda, sən soydadır,
Zəfərin ilk toxumu,
Lələtəpə boydadır.

Daş üstündən yazını,
Min il də pozmaq olmur.
Silahla yazdığını,
Qələmlə yazmaq olmur.

Sən hələ nəsillərin,
Ruhuna dolacaqsan.
Vətənin yaddaşında,
əbədi qalacaqsan.



**Ramaldanov Babək Meyvəddin oğlu**



Babək Meyvəddin oğlu Ramaldanov (9 avqust 1982; Bakı, Azərbaycan SSR – 16 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Vətən müharibəsinin şəhidi

Babək Ramaldanov 1982-ci il avqustun 9-da Bakı şəhərində anadan olub. Əslən Qusar rayonunda idi. 1989–1997-cı illərdə Xətai rayonunda 59 nömrəli tam orta mətəbdə, 1997–2000-ci illərdə isə Cəmşid Naxçıvansi adına Hərbi Liseydə təhsil alıb. 2000–2004-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Mətəbində (AAHM), 2017– 2019-cu illərdə isə Rusiya Silahlı Qüvvələrinin Ümumqoşun Liseyində ali hərbi alıb. Ailəli idi. Ramaldan və Süleyman adında 2 oğlu yadigar qaldı. Onun əmisi – Azərbaycan Silahlı Qüvvələrinin zabiti, Qarabağ müharibəsinin qazisi Şair Ramaldanovdur.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Babək Ramaldanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Babək Ramaldanov oktyabrın 16-da Füzuli döyüşləri zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Babək Ramaldanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Babək Ramaldanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Babək Ramaldanov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Təltifləri:

(26.06.2008) – "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı
(26.06.2013) – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı
(26.06.2014) – "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı
(26.06.2018) – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı
(26.06.2019) – "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı
(15.12.2020) – "Vətən uğrunda" medalı (ölümündən sonra)
(15.12.2020) – "Azərbaycan Bayrağı" ordeni (ölümündən sonra)
(24.12.2020) – "Cəbrayılın azad olunmasına görə" medalı (ölümündən sonra)



İndicə dinlədim böyük oğlunu,
İndicə dinlədim ananı sənin.
Çəkib ayağına sərmək istədim,
Külli kainatı, dünyanı sənin.

Sən necə igidsən,
Necə qəhrəman,
Oxuyub mat qaldım döyüş yoluna.
Sənin ucaldığın zirvələr ki var,
Tanrı pay göndərir ölməz quluna.

Artıq yazmağa da gücüm çatmayır,
Bilmirəm, bilmirəm neynəyirəm mən.
Qələmi qoyuram,
Ayağa qalxıb,
Ruhun qarşısında baş əyirəm mən.

## Əliyev Nihad Heydər oğlu



Azərbaycan Ordusunun 44 günə zəfərlə bitirdiyi Vətən müharibəsində qəhrəmancasına şəhid olan əsgərlərdən biri də Nihad Əliyevdir.

Nihad Heydər oğlu Əliyev 22 noyabr 2000-ci ildə Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində anadan olub. Əslən Laçın rayonunun Alxaslı kəndindən idi. 2007-ci ildə Alxaslı kənd orta məktəbində təhsil almağa başlayıb, 2016-cı ildə bu məktəbin 9-cu sinfini bitirərək Zərdab rayon peşə məktəbinə daxil olub.

3 iyun 2019-cu ildə həqiqi hərbi xidmətə çağrılıb və Gəncə şəhərində hərbi xidmət keçib. Üç ay sonra xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə Göytəpə şəhərində davam etdirib.

Azərbaycan Ordusunun əsgəri olan Nihad Əliyev Vətən müharibəsi zamanı Kəlbəcər rayonun Koroğludağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Nihad Əliyev 28 sentyabr 2020-ci ildə Göygöl rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Silahlı Qüvvələrinin əsgəri Nihad Heydər oğlu Əliyev "Vətən uğrunda", " Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.



Vətənin dar günündə,
Ona imdad elədin,
Sən Laçını görmədin,
Amma azad elədin.

Elədin ata, ana,
Yurdunu azad, şəhid.
İndi ana qoynunda,
Rahat uyu, yat, şəhid.

Vətən ən böyük ana,
Ən böyük həsrət idi,
Həsrətlər yetdi sona,
Laçın azaddır indi.

Murovdağın uğrunda,
Canını qurban etdin,
Düşmənin neçə-neçə,
Bölüyün viran etdin.

Şəhidlər ölmür, Nihad,
Hər bir zaman yaşayır,
İndi sənin adını,
Qardaşoğlun daşıyır.

## Əkbərov Əmrah Şahid oğlu



2020-ci ilin Vətən müharibəsində tarix yazıb şəhidlik zirvəsinə ucalan Əmrah Şahid oğlu Əkbərov ömrünün 22-ci baharına təzəcə qədəm qoymuşdu. 21 fevral,1998-ci ildə dağlar diyarı Lerik rayonunun Livədirqə kəndində dünyaya göz açmış igidimiz Heydər Əliyev adına Ali Hərbi Məktəbi təzəcə bitirib leytenant rütbəsində Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlamışdı.

Vətənə, torpağa bağlı, köksündə qəhrəman ürəyi döyünən Əmrah Əkbərov müharibənin ilk günündən otuz il düşmən tapdağında qalan müqəddəs yurd yerlərinin azadlığı naminə döyüşə atılır. Füzuli, Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə yağı düşmənin texnikasını, canlı qüvvəsini məhv edir. Əmrah hər dəfə odun-alovun içinə atılanda yağıdan sona qədər döyüşərək qisasını alacağına and içir.

12 oktyabrda Hadrut istiqamətində ağır döyüşlər gedirdi. Həmişə olduğu kimi, Əmrah yenə qalib olmaq istəyi ilə döyüşür. Düşmən çoxlu itki versə də, Əmrahın dəstəsi mühasirəyə düşür. **O, yoldaşlarını xilas etmək üçün özünü düşmənin səngərinə atır və üzərindəki qumbaranı partladır.** Beləcə, Vətən, torpaq, əqidə naminə Əmrah öz həyatını qurban verir, yoldaşlarını qoruyur. İgid leytenantın torpağa axıtdığı bu qan onun Vətənə son övladlıq borcu olur...

**052 saylı hərbi hissənin** baş kəşfiyyatçısı Əmrah Şahid oğlu Əkbərov ölümündən sonra "Hərbi xidmətlərə görə", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.



Təcəzə leytenanat rütbəsi alıb,
Vətən savaşına qatılan igid,
Qorxmaz, cəsarətli bir oğul kimi,
Qanlı meydanlara atılan igid.

Təzə doğum günün olmuşdu sənin,
Vətənin azadlıq gününə düşdü.
Sən elə igidsən, elə qəhrəman,
Adın igidlərin önünə düşdü.

Füzuli, Cəbrayıl döyüşlərində,
Nə qədər düşməni viran etmisən,
Bir gün yeniləyib vətən andını,
Neçə bölükləri talan etmisən.

Bölüyü düşəndə müasirəyə,
Bütün dostlarını qoruyan sənsən.
Özünə bağlayıb qumbaraları,
Düşmən səngərini dağıdan sənsən.

Bu qədər cəsarət hər adamda yox,
Qələmim yazmayır, baxır eləcə.
Təsəvvür edirəm o döyüş anın,
Göz yaşım dayanmır, axır eləcə.

## Şirvanov Mehman Mirəziz oğlu



Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Vətən müharibəsinin şəhidi Mehman Şirvanov 1980-ci il fevralın 24-də Lənkəran rayonunun Ürgə kəndində anadan olub.

1986-1997-ci illərdə orta təhsilini kənd məktəbində alan Mehman 1998-2002-ci illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində oxuyub. Hərb sənətinə yiyələnən zabit Mehman Şirvanov 23 il ərzində Naxçıvan, Yevlax, Tərtər və Goranboy rayonlarında nümunəvi və qüsursuz xidmət edib. Xidmət dövründə bir sıra xarici ölkələrdə, o cümlədən Rumıniyada, Türkiyədə və NATO tərəfindən təşkil olunan ixtisasartırma kurslarına qatılıb. O, 2016-cı ildə Aprel döyüşlərində böyük igidlik göstərib.

Mehman Şirvanov Azərbaycan Silahlı Qüvvələrinin Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissəsinin zabiti idi.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Mehman Şirvanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində savaşıb. Mehman Şirvanov sentyabrın 27-də şəhid olub. Lənkəran rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Mehman Şirvanov "Qarabağ" ordeni ilə təltif edildi.



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mehman Şirvanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Bundan əlavə, Prezidentin İlham Əliyevin müvafiq sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilib

Qorudun vətəni iyirmi üç il,
Neçə ruha dönən bədən öyrətdin.
Yenicə hərbiyə gələn gənclərə,
Vətən dərsi keçib vətən öyrətdin.

Öyrətdin igidlik, qəhrəmanlığı,
Gənclərlə şəhidlik zirvəsi doldu,
Sənin hərb yoluna, vətən yoluna,
Aprel döyüşləri nümunə oldu.

İndi yaşayırsan ürəyimizdə,
Bilirəm, bu sevgi ovutmaz səni,
Zəfər savaşının igidi kimi,
Tarix heç bir zaman unutmaz səni.

## Hüseynov Zaur Vaqif oğlu



**Zaur Vaqif oğlu Hüseynov** 1995-ci il iyunun 24-də Masallı rayonunun Hışgədərə kəndində anadan olub. 2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb. Ailəli idi. Bir qızı yadigar qaldı.

Azərbaycan Ordusunun leytenantı olan Zaur Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Zaur Hüseynov sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. Masallı rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Zaur Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman cəsarət göstərdiyinə, habelə qətiyyətli addımlar nümayiş etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Zaur Hüseynov ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Zaur Hüseynov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.



Sənin kimi igidə,
Vətən intizar qalıb,
Özün çıxıb getmisən,
Qızın yadigar qalıb.

Qalıb igidliyinin,
Əbədi ölməzliyi,
Əsgəri tanrıyacan,
Aparır şəhidliyi.

Bu gün biz Füzulinin,
Azadlığın görürük.
Sizin sayənizdədir,
Hadrutacan gedirik.

Sizdən ibrət götürür,
Bu gün nəsillər indi.
Zəngəzurdan Təbrizə,
Bütün zəfər sənindi.

## Gözəlov Murad Zabil oğlu



**Gözəlov Murad Zabil oğlu** 12 may 1995-ci ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur. 2001-ci ildə Şəmsəddin Orucov adına Həsənabad qəsəbə tam orta məktəbə daxil olmuşdur. 2010-cu ildə məktəbi bitirmişdir. 2010-cu ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kollecinə Neft və Qaz emalı fakültəsinə qəbul olur. 2014-cü ildə kollec təhsilini bitirmişdir.

Murad Gözəlov 2014-cü ildə kollec təhsilini bitirərək hərbi xidmətə yollanmışdır və Tərtər şəhərinin Xüsusi Təyinatlı Kəşfiyyat taborunda xidmət etmişdir. Hərbi xidmətini Baş kəşfiyyatçı kimi xidmət edib 2016-cı ildə hərbi xidmətini uğurla başa vurmuşdur.

Murad Gözəlov 2016-cı ildə hərbi xidməti uğurla başa çatdırdıqdan sonra müxtəlif vəzifələrdə çalışır. 2018-ci ilin mart ayından "Neftçala Operating Company LTD" şirkətində operator olaraq işə başlayır. Karyerasında daim uğur qazanan Murad, neftin hazırlanması və sabitləşdirilməsi üzrə mütəxəssis vəzifəsinə yüksəlir. Karyerasında qazandığı uğurlar onun təhsil həyatından da yan keçmir. 2020-ci ildə Ali təhsil müəssisələrinə qəbul imtahanları zamanı arzusunda olduğu Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neft-Qaz Mühəndisliyi fakültəsinə qəbul olur.

Murad Gözəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı sentyabrın 27-də könüllü olaraq döyüşlərə qatılır. Kəşfiyyat qrupunda döyüşən Murad mərdliyi, rəşadəti ilə seçilmiş, döyüşün fəal iştirakçılarından olmuşdur.



Murad Gözəlov Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişdir. 05 noyabr 2020-ci il tarixində Neftçala rayonu Mərkəzi qəbirstanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şəhid Gözəlov Murad Zabil oğlu ölümündən sonra **"Vətən uğrunda" medalı** ilə, 24.06.2021-ci il tarixli Sərəncamına əsasən **"Cəsur döyüşçü" medalı** ilə,24.12.2020-ci il tarixli Sərəncamına əsasən **"Cəbrayılın azad olunmasına görə" medalı** ilə və 29.12.2020-ci il tarixli Sərəncamına əsasən **"Qubadlının azad olunmasına görə" medalı** ilə təltif edilib.

Neftçi qardaş, nə var, nə yox?
İgidlik necədir sənə?
Tanrıya qədər ucalmaq,
Şəhidlik necədir sənə?

Təhsilini saxlamısan,
Savaş var, deyib, getmisən.
Neçə döyüşdə olmusan,
Düşməni viran etmisən.

Sənə tapşırılan işi,
Nə tez sona yetirirdin?
Kəşfiyyatçı mərdliyinlə,
Öndən xəbər gətirirdin.

Sən vətənin dar günündə,
Önə çıxdın, sinə gərdin.
Can verməsin deyə vətən,
Sən canını ona verdin.

## Əfəndiyev Nurlan Mürvət oğlu



Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, II Qarabağ Müharibəsinin şəhidi Nurlan Mürvət oğlu Əfəndiyev 8 oktyabr 1995-ci ildə Oğuz rayonunun Xalxalqışlaq kəndində anadan olub. Xalxalqışlaqda məktəbə başlayan Nurlan orta təhsilini 2012-ci ildə şəhid İntizam Rəhimov adına Qumlaq kənd tam orta məktəbində bitirib. Nurlan Əfəndiyevin ailəsi sadə, zəhmətkeş kəndli ailəsi idi. Odur ki, Nurlan da uşaqlıqdan zəhmətə bağlı böyümüşdü. Bütün təsərrüfat işlərində ailəyə kömək edərdi. Bərbər ixtisasına yiyələnmişdi. Ən böyük arzusu yanğınsöndürən olmaq idi. Qaçışla məşğul olur, rayon yarışlarında iştirak edirdi.

Nurlan 2014-2015-ci illərdə Gəncə şəhərində N saylı hərbi hissədə hərbi xidmətdə olub. Dəfələrlə komandanlıq tərəfindən təşəkkürnamələr alıb, yaxşı xidmət etdiyinə görə iki dəfə məzuniyyətə buraxılıb.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət qulluqçusu Əfəndiyev müharibə zamanı Murovdağ döyüşlərində savaşıb. O, oktyabrın 6-da Murovdağ uğrunda mübarizədə Goranboy rayonu Buzluq kəndi yaşayış məntəqəsi istiqamətində, düşmənlə təmas xəttində "Cəngavər" döyüş mövqeyində qəhrəmancasına şəhid olub. Oktyabrın 7-də Xalxalqışlaq kəndində dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Nurlan Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" , Kəlbəcərin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında şücaət nümayiş



etdirdiyi üçün "Kəlbəcərin azad olunmasına görə" və ərazilərimizin işğaldan azad olunması zamanı döyüş tapşırığını yerinə yetirərkən fərqləndiyi üçün "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

Bu gün şagirdlər də səni öyrənir,
Ey Oğuz elinin igidi Nurlan.
Tarixə yazmısan sən öz adını,
Zəfər tariximin şəhidi Nurlan.

Zəhmətkeş ailədə doğulmusan sən.
Zəhmətlə böyüyüb boya çatmısan.
Sənin tək igidlər çox az doğulur,
Zəfər dastanını sən yaratmısan.

Qazan xandan bəri, Babəkdən bəri,
Sənin tək igidlər olubdur haçan?
Zəfər yollarımız ucalıb gedir,
Oğuz ellərindən Murovdağacan.

## Əhmədli Şahid Gülməmməd oğlu



İkinci Qarabağ Müharibəsində şücaət göstərən, Vətənin, torpağın azadlığı uğrunda öz canından keçən qəhrəmanlarımızdan biri də Baş Leytenant Əhmədli Şahiddir.

Əhmədli Şahid Tərtərin Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına iştirak edib və 12 oktyabr 2020-ci ildə şəhid olub.

Şəhidimizin həyat yoldaşı Dilşad Əhmədli bildirib ki, Əhmədli Şahid Saatlı rayonunun Qaracalar kəndində 1992-ci il 17 oktyabr tarixində dünyaya göz açıb: "Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. İlk təyinatı 2015-ci ildə Tərtər rayonunda düşmənlə üz-üzə olan posta olub. Son təyinat yeri isə Mingəçevir idi".

Dilşad Əhmədli qeyd edib ki, Baş Leytenant Əhmədli Şahid Aprel zəfərində də böyük şücaət göstərib: "Müdafiə naziri Zakir Həsənov igidliyinə görə onun özü ilə görüşüb, mükafatlandırıb, Fəxri Fərmana layiq görmüşdü".

D.Əhmədli həyat yoldaşının müharibənin başlayacağı günü səbrsizliklə gözlədiyini vurğulayıb: "İkinci Qarabağ Müharibəsinə sentyabrın 26-sı gedib.

Həmin tarixdən sonra onu bir daha görmədim. Tərtərin Talış kəndində üz nahiyəsindən snayper gülləsinə tuş gəlib.

Mənə tez-tez deyirdi ki, kaş müharibə başlasın, torpaqlarımızı geri qaytaraq. Bunun başqa yolu olmadığını təkrarlayırdı. Xocalı soyqırımında baş verən müsibətləri xatırladıb, qisasını alacağı anı həvəslə gözlədiyini danışırdı. Anası və mən düşməndən özünü qorumasını tapşıranda, "düşmən kimdir ki, məni öldürsün" deyirdi.



Murov dağı silsiləsindəki Murov zirvəsinin azad edilməsində iştirak edib. Bundan əlavə, onun adına zirvə verilib – Şahid zirvəsi. Suqovuşanın alınması əməliyyatında yer alıb. İştirak etdiyi əməliyyatlar çox olub. Amma mən hamısı haqqında məlumatlı deyiləm.

O, Şahid Əhmədli ilə 2016-da ailə həyatı qurduğunu deyib: "İki qız övladımız var. Böyük qızımın 3, balaca qızımın isə 1 yaşı var".

Dilşad Əhmədli Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancan igidin Şahid Əhmədli olduğunu bildirib: "Həmin postun alınmasında böyük qəhrəmanlıq göstərib.

Yoldaşımın mərdliyini qorxmazlığını, şücaətini izah etmək və danışmaq mənim üçün böyük qürurdur. Onun haqqında danışmaq nə qədər çətin olsa da, istəmirəm unudulsun, istəyirəm hamı onu tanısın. Bu vətənin necə igidlər böyütdüyünə hamı şahid olsun. Tək onu yox, bütün şəhidlərimizi yadda saxlamaq, anmaq, unutmamaq bizim mənəvi borcumuzdur".

Həyat yoldaşının fərdi keyfiyyətlərindən söz açan D.Əhmədli qeyd edib ki, Baş Leytenant Əhmədli Şahid çox yaxşı hərbçi və gözəl ata idi: "Xarakter olaraq təmiz, mehriban və ailəsinə bağlı idi. Başqalarının yanında sakit olmasına baxmayaraq, övladları və mənimlə şən davranan, deyib-gülən biri idi. Fəxr edirəm ki, onun həyat yoldaşı və övladlarının anasıyam. O, Şahid olduğu üçün pis olmuram. Övladlarımın atası və həyat yoldaşımı itirdiyim üçün pis oluram..."

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Şahid Əhmədli ölümündən sonra 3-cü dərəcəli **"Vətənə xidmətə görə"** ordeni ilə təltif edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Şahid Əhmədli ölümündən sonra **"Vətən uğrunda"** medalı ilə təltif edilib.

Qeyd edək ki,Şahid Əhmədli vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə daha əvvəl **"Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi"** yubiley medalı və **"Azərbaycan Ordusunun 100 illiyi"** yubiley medalı ilə də təltif edilib.

Səndən oxuyuram, cənab leytenant,
Zəfər tarixində səndən yazıram.
Sənintək şəhadət meyini dadmaq,
Qəhrəman olmağa mən də hazıram.

Amma ki, şəhidlik deməklə olmur.
Tale hər insanın surəti deyil.
Sənin tək vuruşmaq, qəhrəman olmaq,
Şəhidlik hər kəsin qisməti deyil.

Onunçün deyirəm, cənab leytenan,
Amma hislərini az duyuram mən.
Sən necə igidsən, necə qəhrəman,
Aprel zəfərindən tanıyıram mən.

Vətənin dar günü, çətin günüydü,
Canından can verdin canına, qardaş.
Mübariz postunu azad eləyib.
Getdin Mübarizin yanına, qardaş.



Verdin cavabını namərd düşmənin,
Biz cana can dedik, sən də qana qan.
Qələbə yolları uzanıb gedir,
İndi Saatlıdan Murovdağacan.

Şərəfli olsa da şəhidlik, qardaş,
Ayrılıq bilirəm necə çətindir.
Sənin adın-sanın və iki balan.
Bu gün vətəninə əmanətindir.

## Zalov Fəqan Amil oğlu



Fəqan Amil oğlu Zalov 1997-ci ilin aprel ayının 1-də Sabirabad rayonunun Qalaqayın kəndində qaçqın düşərgəsində anadan olub. Əslən Füzuli rayonunun Aşağı Güzlək kəndindəndir. 2003–2007-ci illərdə Füzuli rayon Babı kəndindəki Marks Hacıyev adına tam orta məktəbdə təhsil alıb. 2010–2014-cü illərdə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon Alı Mustafayev adına Zilanlı kənd tam orta məktəbində təhsilini davam etdirib. 2015-ci ildə hərbi xidmətə çağırılıb. Artilleriya Qoşunlarında müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət edib.

**Aprel döyüşləri**

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq, Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlayıb. Azərbaycan Artilleriya Qoşunlarının əsgəri Fəqan Zalov tarixə "Aprel döyüşləri" kimi düşən hərbi əməliyyatlarda iştirak edib. Həmin döyüşlərdə yaralanan əsgər Zalov müalicəsi bitdikdən sonra xidmətini davam etdirib. 2017-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətini başa vurduqdan 9 ay sonra 2017-ci ilin oktyabrından dekabrınadək müddətdən artıq həqiqi hərbi xidmət qulluğu kursu keçərək, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (matrosu) olub.

**Dəniz canavarı**

2017-ci ilin dekabr ayından 2019-cu ilin mart ayına qədər HDQ-nin Gözətçi Gəmilər Diviziyasının gəmisində xidmət edib. Gəmidə xidmət etdiyi dövrdə Xəzəryanı dövlətlərinin birgə təşəbbüsü ilə keçirilən "Beynəlxalq dəniz kuboku" yarışlarına qatılıb.



Onun xidmət etdiyi gəmi dəniz kuboku yarışlarında dəfələrlə qalib gəlib. Yarışlarda Fəqan Zalov bir çox fəxri fərmanlarla təltif olunub.

2018-ci ilin mart ayından 2018-ci ilin dekabr ayınadək "N" saylı hərbi hissənin nəzdindəki Xüsusi Təyinatlı Kəşfiyyat kursunu birincilik dərəcəsi ilə bitirdiyinə görə "kiçik miçman" rütbəsi alıb. 2019-cu ilin mart ayından "N" saylı hərbi hissədə Sualtı Hücum (SAH) Xüsusi Təyinatlı Qüvvələrində xidmət edib. Xidmət dövründə kəşfiyyatçı kimi "Dağçılıq", "Paraşüt", "Antiterror", "Amfibiya" kurslarını bitirib. Müdafiə Naziri Zakir Həsənovun "081t" nömrəli 20 iyun 2019-cu il tarixli Sərəncamına əsasən Fəqan Zalov "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı ilə təltif edilib.

**Vətən müharibəsi**

2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində genişmiqyaslı silahlı təxribata başlayan Ermənistan Silahlı Qüvvələrinin bölmələrinin cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində ölənlər və yaralananlar olub. Azərbaycan Prezidenti İlham Əliyev bu barədə məlumatlandırıldıqdan sonra Ermənistan Silahlı Qüvvələrinin döyüş fəaliyyətinin qarşısını almaq məqsədilə hücum əməliyyatlarının başlaması qərarı verilib.

Azərbaycan Ordusunun Sualtı Hücum (SAH) Xüsusi Təyinatlı Qüvvələrinin kiçik miçmanı Fəqan Zalov İkinci Qarabağ müharibəsi zamanı əvvəlcə Cəbrayılın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşub. Cəbrayıl rayonundan başlayan əks-hücum əməliyyatlarında qarşı tərəfin illər boyu qurduğu və möhkəmləndirdiyi mühəndis-istehkam və müdafiə zolaqlarının yarılmasında bir çox istiqamətdəki strateji yüksəkliklərin ələ keçirilməsində fərqlənib. Xüsusi Təyinatlı Qüvvələr tərəfindən dörd gün ərzində Cəbrayıl şəhəri istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən, Cəbrayıl şəhəri və rayonun 14 yaşayış məntəqəsi – Aşağı

Maralyan, Çaxırlı, Mehdili, Quycaq, Şəybəy, Cəfərabad, Çərən, Daşəsən, Dəjəl, Horovlu, Karxulu, Mahmudlu, Şürbəyli və Yuxarı Maralyan işğaldan azad edilib.

Fəqan Zalov 11 oktyabr 2020-ci ildə Cəbrayıl rayonunun Soltanlı kəndi istiqamətində ayağından qəlpə yarası alaraq yaralanır. Əvvəlcə, Füzuli rayonunda, sonra Beyləqan rayonunda, sonuncu dəfə isə Hacıqabul rayonunda yerləşən xəstəxanaya yerləşdirilir. Verilən məzuniyyətdən imtina edərək döyüş meydanına qayıdır. İlk olaraq Xocavənd istiqamətində gedən döyüşlərdə adsız yüksəkliklərin ələ keçirilməsində fərqlənir.

Oktyabrın 19-da SAH Xüsusi Təyinatlı Qüvvələrinin də iştirak etdiyi hərbi əməliyyatlar nəticəsində Azərbaycan Silahlı Qüvvələri tərəfindən Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Hasanlı, Alıkeyxalı, Qumlaq, Hacılı, Göyərçin Veysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri işğaldan azad edilir.

Fəqan Zalov bundan sonra Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə də vuruşaraq fərqlənib. Onun son döyüşü Xocavənd istiqamətində olub.

**Şəhadət**

Fəqan Zalov 9 noyabr 2020-ci ildə üçtərəfli bəyanatın imzalanmasına 6 saat qalmış Xocavənd rayonunun (601 və 436 metr) yüksəkliklərinin cənub istiqamətində "Qızılqaya" adlı ərazidə yarımqrup tərkibində hücum əməliyyatını yerinə yetirən zaman qarşı tərəfin atdığı mərmilərin partlayışı nəticəsində qəlpə yarası alıb. Boyun hissəsindən girərək, ağ ciyərini və ürəyini parçalayan qəlpənin yarası ölümcül olduğu üçün onu xilas etmək mümkün olmur. Beləliklə o, şəhidlik zirəsinə ucalır.

Fəqan Zalov Füzuli rayonunun Babı kəndində yerləşən qəbiristanlıqda Ana torpağa tapşırılır.



Qaçqın düşərgəsində,
Doğulub böyümüşdü,
Füzuli-ana yurda,
Alnıaçıq dönmüşdü.

Aprel döyüşlərində,
Yaralandı, durmadı.
Onu vətən önündə,
Ağrı, acı yormadı.

Yorulmadan savaşdı,
Vuruşdu igid əsgər,
Sonunda ana yurda,
Qovuşdu igid əsgər.

Sən ömrünü bölmüsən,
Vətən ilə tən yarı,
Ey gəmilər əsgəri,
Ey dəniz canavarı.

Sənin iştirakınla,
Neçə-neçə məntəqə,
Rayon azad edilib,
Otuz ildir gözləyən,
Qayalar şad edilib.

Sən qəlpə yarasıyla,
Xəstəxanaya getdin,
Amma müalicədən,
Tamam imtina etdin.

Qayıtdın döyüşlərə,
Sən qorxmaz igid kimi,
Əbədi qalacaqsan,
Tarixdə şəhid kimi.

## Balıyev Hüseynağa Salman oğlu



Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixinə əbədi olaraq qızıl hərflərlə həkk olundu. Bu tarixi qələbənin qazanılması naminə canınını fəda etmiş zabitlərimizdən biri də Azərbaycan Silahlı Qüvvələrinin mayoru Hüseynağa Salman oğlu Balıyevdir.

Hüseynağa Balıyev 1987-ci il dekabrın 22-də Salyan şəhərində dəmiryolçu ailəsində anadan olub. Ailədə dörd övlad – iki qız və iki oğlan olublar. Dördü də ali təhsil alıb. Qardaşı İsa Balıyev Aprel döyüşlərinin iştirakçısıdır.

Hüseynağa 2004-cü ildə orta məktəbi bitirdikdən sonra hərbçi peşəsinə yiyələnmək üçün Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2010-cu ildə oranı əla qiymətlərlə bitirərək, Naxçıvandakı hərbi hissədə zabit kimi qulluq etməyə başlayıb. 2015-ci ildə onun xidmət yeri cəbhə xəttinin Ağcabədidən keçən hissəsində yerləşən hərbi hissələrdən birinə dəyişdirilib. Əvvəlcə qərargah rəisi, bir müddət sonra isə tabor komandiri kimi xidmət edib.

Hüseynağa Balıyev 2011-ci ildə çoxdan sevdiyi, onlarla üzbəüz qonşuluqda yaşayan Nərmin xanımla ailə həyatı qurub. Şəhid olanda qızı Rənanın 9, oğlu Harunun isə 3 yaşı vardı.

"Hüseynağaya öz atamın adını qoymuşdum, qızı Rənaya da öz adımı... Heç vaxt inanmazdım ki, Hüseynağa şəhid olacaq. Nə vaxt zəng vururdu, deyirdi "məndən nigaran qalmayın, hər şey yaxşıdır", – deyə anası Rəna xanım xatırlayır.

Nərmin xanım da həyat yoldaşından danışanda göz yaşlarını saxlaya bilmir: "... 10 ildir ailə həyatı qursaq da, Hüseynağa zabit həyatı ilə bağlı evdə çox az olmuşdu. Olduqca qayğıkeş və mehri-



ban ailə başçısı idi. Qadına qarşı misilsiz dərəcədə nəzakət nümayiş etdirirdi. Uşaqlara baxıb sevinərdi... Sonuncu gəlişində uşaqlara elə həsrətlə baxdı ki... Heç vaxt mənə iş buyurmazdı. Zabit həyatı ona özünəqulluq vərdişi aşılamışdı. Həm də çox səliqəli idi. Axırıncı dəfə evə avqust ayının sonunda gəldi. Uşaqları da götürüb, Hacıqabul rayonunda yerləşən "Qədir-xum" ailəvi istirahət mərkəzinə getdik. Sanki ürəyinə dammışdı ki, şəhid olacaq. Evə qayıdanda Haruna veliosiped də alıb qoydu... Elə bilirəm ki, baş verənlər bir yuxudur, Hüseynağa yenə qapını açıb evimizə girəcək. Şəhid olmamışdan iki gün əvvəl, oktyabr ayının 6-da evə zəng vurub hal-əhval tutdu. Sonda telefonu oğlumuz Haruna verməyimi istədi. Haruna dedi ki, "özündən muğayat ol, oğlum!" Mənə çox ağırdır onun yoxluğunu qəbul etmək. Hüseynağa şəhid olanda tabeliyində qulluq etmiş əsgərlər "instaqram"da "Qızıl komutanımız şəhid oldu. Onun özündən də, soyadından da bir dənə idi. Bizim qayğımıza doğma balası kimi qalırdı" yazmışdılar".

– Hüseynağa bizə müharibə barədə heç bir şey demədi. Elə televizordan aldığım məlumatdan bilirdim ki, Vətən Müharibəsi başlayıb. Gözləyirdim, o qayıdanda soruşaram olanları, qismət olmadı... balam şəhid oldu Vətən yolunda. Oğlu Harun deyir ki, "Nənə sən ağlama, ağladığına görə atam qayıtmır...", – deyə Rəna xanım söhbəti davam etdirir.

Hüseynağa Balıyev oktyabr ayının 8-də Xocavənd rayonunun Hadrut qəsəbəsinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olub. O, döyüşdə əsgərlərinə düşmənin atdığı minadan qorunmaq üçün təkrar "yerə yatmaq" əmri vermək üçün qalxarkən özü şəhid olub. Sağlığında igid komandirə verilmiş mayor rütbəsi vəsiqəsi o dəfn olunan zaman məzarı başında atasına təqdim olunub.

"Sonuncu dəfə 3 günlük evə gəlməsi vidalaşamaq üçün imiş, amma görüşüb gedəndə gülə-gülə çıxdı... Peşəkar hərbçi olan oğlum Qələbə ilə başa çatmış müharibədə komandir kimi şəhid oldu.

Mən Hüseynağa ilə fəxr edirəm. Komandir Hüseynağa Balıyevin adından – onun əvəzinə bütün şəhid əsgər və zabitlərin valideynləri qarşısında baş əyirəm. Vətən sağ olsun!" – deyir atası Salman kişi.

Silahlı Qüvvələrin tabor komandiri, mayor Hüseynağa Balıyev ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda medalı" ilə təltif edilib.

Sən vətən fədaisi,
Zəfərli yol, zamansan,
Vətənini canından,
Çox sevən qəhrəmansan.

Hərbi savaş marağın,
Uşaqlığından olub,
Özün tarix olmusan,
Adın tarixdə qalıb.

Sən savaşdın ordunun,
Tam qələbə yeri tək,
Qərərgah rəisi tək,
Tabor komandiri tək.

Müharibə olanda,
Meydana atılmısan,
Öz əsgərlərin ilə,
Savaşa qatılmısan.

Sizin sayənizdədir,
Bu gün Şuşa azaddır.
Bu gün yollar çəkilir,
Yeni kəndlər salınır,
Qəsəbələr tikilir.



## Əsədov Ruslan Rövşən oğlu



Əsədov Ruslan Rövşən oğlu 2002-ci il martın 7-də Samux rayonunun İnstitut qəsəbəsində anadan olub. 2008-2019-cu illərdə Samux rayonunda İnstitut qəsəbə tam orta məktəbində təhsil alıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb.

Azərbaycan Ordusunun əsgəri olan Ruslan Əsədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ruslan Əsədov oktyabrın 29-də Füzuli döyüşləri zamanı şəhid olub. Samux rayonunda dəfn olunub.

Atası Rövşən Əsədov deyir ki, daima vətəninə bağlı olub. Ən böyük istəklərindən biri də xüsusi təyinatlı qüvvələrdə xidmət etmək olub. Bacısı Leyla Əsədova isə qardaşının xatirələri ilə yaşayır.

Əsədovlar ailəsində hər zaman orduya böyük maraq olub. Bu maraq Ruslanı daha da hərbiyə ruhlandırıb, orduya olan sevgisini artırıb. Hərbi sahəyə olan həvəs Ruslanı idmana bağlayır. Hələ uşaq yaşlarından karate ilə məşğul olur. Bir çox uğurlar qazanır, nüfuzlu yarışların qalibi olur. İndi Əsədovlar ailəsində bir şəhid adı var. Hansı ki, bu adla bütün Azərbaycan fəxr edir.

Ailənin tək təsəllisi isə Vətən müharibəsində qazanılan qələbə, torpaqlarımızın azad olunmasıdır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə

yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərancamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

Bütün Azərbaycanın,
Qəhrəman igidisən,
Ailənin tək oğluydun,
İndi tək şəhidisən.

Ağır əməliyyatlar,
Sanki sənə güc verib.
Od, alov qaldırmısan,
Qəfil meydana girib.

Murovdağda savaşıb,
Andına sadiq oldun.
Vətəni azad edib,
Cəm ürəklərə doldun.



**Rəfiyev Seyfəli Musa oğlu**



Rəfiyev Seyfəli Musa oğlu 1997-ci il, dekabrın 21-də Siyəzən rayonunda anadan olub.

Vətən müharibəsi başlayan zaman döyüşlərə qatılıb. Füzuli rayonu ərazisində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açlan atəş nəticəsində şəhid olub.

Göstərdiyi qəhrəmanlıqlara görə "Vətən Uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Şəhidlər ölməzdilər,
Hamının əzbər sözü,
Onların sayəsində,
Doğma oldu bu xalqa,
Qələbə, zəfər sözü.

Rəfiyev Seyfəli də,
Vuruşdu hər igid tək.
Qismət oldu bu xalqa,
Bu gün Laçına getmək,
Bu gün Şuşanı görmək.

Ruhun şad olsun sənin,
Ey vətən fədaisi.
Sənin silah səsindir,
Bu gün zəfər nəğməsi.

## Abbasov Samir Adəm oğlu



Deyirlər, torpaq uğrunda ölən varsa, Vətəndir! Qarabağı azadlığa qovuşduran, müqəddəs Vətən torpağını düşmən tapdağından qurtaran, uca şəhidlik məqamına yüksələn neçə-neçə cəsur, mərd oğullarımızdan biri də əsgər Samir Abbasovdur.

Samir Adəm oğlu Abbasov 2001-ci il avqustun 24-də Şabran rayonu Uzunboyad kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb.

Samir Vətən müharibəsində igidlik göstərərək Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. 13 oktyabrda Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "İgidliyə görə" , "Laçının azad olunmasına görə" , "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.



Deyirlər, torpağın canı vətəndir.
Sən də şəhid olub vətən olmusan.
Bu xalqın, millətin milli ruhuna,
Zəfər tarixində bədən olmusan.

Yerin mübarəkdir, adın mübarək.
Kimsə bu tarixi unuda bilməz.
Balasın itirən qəmli ananın,
Tanrı da qəlbini ovuda bilməz.

Ey şəhid Abbasov, ey müqəddəs ruh.
Sən tək igid varsa, niyə varam mən?
Sən tarix yazmısan vətən boyunca,
Səndən şeir yazan bir yazaram mən.

## Əzizov Elgün Elman oğlu



Əzizov Elgün Elman oğlu 1 avqust, 1990-cı ildə Şamaxı rayonu Qurdtəpə kəndində anadan olub.

Ailədə 5 uşaqdan üçüncüdür Elgün. 1996-cı ildə Bakı şəhəri Binəqədi rayonunda yerləşən Qorxmaz Baxşıyev adına 179 saylı tam orta məktəbdə 1-ci sinifə başlayıb və 2007-ci ildə orta məktəbi bitirib. 2007-ci ildə Müəllimlər Universitetinin Tarix fakültəsinə, Şamaxı filialına qəbul olub. 2011-ci ildə ali təhsilini başa vurduqdan sonra Hərbi xidmətə yollanıb. 2012-ci ildə hərbi xidmətini bitirib. 2013-cü ildə ailə həyatı qurub və 3 uşaq atası olub. Ailəsinə və ətrafındakı insanlara qarşı çox diqqətcil insan olub. 2016-cı ilin noyabr ayına qədər müxtəlif işlərdə işləyib, 2016-cı ilin noyabır ayında MN təlim tədris mərkəzinə daxil olaraq oranı uğurla başa vurub.

2017-ci il fevralın 14-də Leytenant vəzifəsində xidmətə başlayıb. 2020-ci il fevralın 23-də Baş Leytenant rütbəsinə layiq görülüb. Bu illər ərzində vəzifəsini şərəflə davam etdirən, əsgərinə və Vətəninə bağlı Elgün Əzizov "İkinci Qarabağ" müharibəsində iştirak edib.

6 oktyabr 2020-ci il tarixində Füzuli istiqamətində gedən döyüşlərdə öz əsgərini xilas etmək istəyərkən 2 güllə yarası almasına baxmayaraq döyüş meydanını tərk etməyib, qanının son damlasına kimi vuruşaraq qəhrəmancasına şəhid olub. 7 oktyabr xalqın böyük izdihamı ilə Müşviqabad qəsəbəsində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş



tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elgün Əzizov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elgün Əzizov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Elgün Əzizov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildib.

Həmişəki sözündür,
Hər şey yaxşı olacaq,
Azərbaycan ordusu,
Torpaqları alacaq.

Hər şey yaxşı oldu da,
Torpaqlar geri döndü,
Bircə sən qayıtmadın,
Həsrətin üzü döndü.

Özün qayıtmasan da,
Şəhidliyin qayıtdı,
Döyüşdə göstərdiyin,
İgidliyin qayıtdı.

Qayıtdı acı xəbər,
Yayıldı ondan ona.
Doğmaların sarıldı,
Müqəddəs tabutuna.

Həmişəki sözündür,
Hər şey yaxşı olacaq,
Azərbaycan ordusu,
Torpaqları alacaq.



**Cəfərov Etibar Teyyub oğlu**



Cəfərov Etibar Teyyub oğlu 1983-cü il aprelin 4-də Şəmkir rayonunun Morul kəndində anadan olub. 1990–2001-ci illərdə M.Əhmədov adına Şəmkir şəhər tam orta məktəbində təhsil alıb. Ailəli idi. Zamiq və Zümrüd adlı iki övladı yadigar qaldı.

Etibar Cəfərov 2001–2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2004-cü ildə hərbi hazırlıq üzrə təlim-tədris kurslarından keçərək gizir rütbəsinə yiyələnib və Naxçıvan şəhərində yenidən hərbi xidmətə başlayıb.

Müxtəlif hərbi hissələrdə xidmət edib. Etibar Cəfərov xidməti dövründə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)" yubiley medalı, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" yubiley medalı ilə təltif edilib.

**İkinci Qarabağ müharibəsində iştirakı**

Azərbaycan Silahlı Qüvvələrinin giziri olan Etibar Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcərin və Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Etibar Cəfərov Murovdağ döyüşləri zamanı itkin düşüb. Oktyabrın 23-də şəhid olduğu müəyyənləşib. Şəmkir rayonunun Morul kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün

Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Etibar Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Etibar Cəfərov ölümündən sonra " İgidliyə görə " medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Etibar Cəfərov ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Hər şəhidin adı var,
Vətənin hər yerində.
Silməz vətən qəlbindən,
Şəhidlərin birin də.

Sən də bir şəhid kimi,
Vətənin canındasan.
İndi mələk olmusan,
Tanrının yanındasan.

Adın kimi etibar,
Qazanmısan vətəndə.
Şəhidlər yaşayırlar,
Hər insan, hər bədəndə.

Adın mübarək olsun,
Yerin mübarək olsun.
Uğruna can verdiyin,
Pirin mübarək olsun.



**Məmmədov Elcan Zöhrab oğlu**



Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, Vətən müharibəsinin şəhidi Elcan Zöhrab oğlu Məmmədov 1989-cu il avqustun 9-da Tərtər şəhərində Zöhrab və Sahilə Məmmədovların ailəsində anadan olub.

Elcan Məmmədov 1996–2007-ci illərdə Sabunçu rayonunda N.Rzayev adına 169 nömrəli tam orta məktəbdə təhsil alıb. 2007–2010-cu illərdə isə Azərbaycan Texniki Universitetində "Maşınqayırma" üzrə ali təhsil alıb.

Elcan Məmmədov 2011–2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra o, 2018-ci ildə Silahlı Qüvvələrin TTM-də üçaylıq təlimlərdə oldu və "leytenant" hərbi rütbəsi aldı. 2018–2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2020-ci ildən isə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi.

Elcan Məmmədov 2020-ci ilin 12–15 iyulunda Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində baş verən Tovuz döyüşlərində savaşıb.

Azərbaycan Ordusunun leytenantı olan Elcan Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elcan Məmmədov sentyabrın 27-də Talış döyüşləri zamanı şəhid olub. Ramana qəsəbəsində dəfn olunub.

Gülnarə Məmmədova ilə ailəli idi. Ayan adında bir qızı və Ramal adında bir oğlu yadigar qaldı.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elcan Məmmədov ölümündən sonra **"Vətən uğrunda" medalı** ilə təltif edildi, həmçinin " **İgidliyə görə" medalı** ilə də təltif olunmuşdur.

Azərbaycanın Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elcan Məmmədov ölümündən sonra " **Suqovuşanın azad olunmasına görə" medalı** ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Elcan Məmmədov ölümündən sonra **"Laçının azad olunmasına görə" medalı** ilə təltif edildi.



İndicə oxumuşam,
Sənin döyüş yolunu.
Mərmilər bəzəyibdir,
Savaşda sağ-solunu.

Mərmilər yağış kimi,
Tökülsə də üstünə.
Xəbis, xain düşmənin,
Dayanmısan qəstinə.

Sonacan vuruşmusan,
Neçə düşmən vurmusan,
Sonuncu nəfəsədək,
Vətəni qorumusan.

Qarşında yağı düşmən,
Savaşa peşman olub,
Adın Elcan idisə,
İndi vətəncan olub.

Hər insan sevir indi,
Yaşadır canda səni,
Oğlun Ramal da səni,
Qızın Ayan da səni.

**Cabbarov Orxan Rövşən oğlu**



Orxan Rövşən oğlu Cabbarov 1995-ci il oktyabrın 16-da Tovuz rayonunda anadan olub. 2002–2008-ci illərdə Rusiya Federasiyasının Vladivostok şəhərində 34 saylı tam orta məktəbdə, 2008–2013-cü illərdə 179 saylı Binəqədi rayon tam orta məktəbində təhsil alıb. Sərbəst güləş və karate ilə məşğul olub. Ailəli idi. Ayxan adlı bir oğlu yadigar qaldı.

Orxan Cabbarov 2013-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib. Xidməti zamanı Xüsusi Təyinatlı Qüvvələrin 6 aylıq kursuna yazılıb, kursu bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etməyə qərar verib.

2015-ci ildən Vətən müharibəsinə qədər Xüsusi Təyinatlı Qüvvələrin Cəlilabad və Xızı rayonlarında yerləşən "N" saylı hərbi hissələrində xidmət edib.

Orxan Cabbarov 2016-cı ilin 2–5 aprelində baş verən döyüşlər zamanı Talış istiqamətində döyüşlərdə iştirak edib.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri olan Orxan Cabbarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

Müharibə zamanı o, Ermənistan Silahlı Qüvvələrinin zabitini əlbəyaxa döyüş zamanı öldürüb. Orxan Cabbarov noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub.

Tovuz rayonunun Bozalqanlı kəndində dəfn olunub.



Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Cabbarova "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Cabbarov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Cabbarov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Orxan Cabbarov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Təltifləri:

"Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı

(09.12.2020) – "Vətən Müharibəsi Qəhrəmanı" medalı (ölümündən sonra)

(15.12.2020) – "Vətən uğrunda" medalı (ölümündən sonra)

(24.12.2020) – "Cəbrayılın azad olunmasına görə" medalı (ölümündən sonra)

(29.12.2020) – "Şuşanın azad olunmasına görə" medalı (ölümündən sonra)

Bu gün sənin haqqında,
Qürurla oxuyuram.
Döyüşün ortasında,
Mərdliyini duyuram.

Oxuyuram, bilirəm,
Sən zəfərin yolusan,
Sən Şuşa fatehisən,
Sən Şuşa qartalısan.

Sən o qanlı savaşı,
Gözlərinlə görmüsən.
Əlbəyaxa döyüşdə,
Erməni palkovniki,
Boğaraq öldürmüsən.

Sənin igidliyini,
İndi hər kəs danışır.
Şəhidlər ölmür, qardaş.
Vətəninə qarışır.



## Məmmədov Kənan Hüseyn oğlu



Dünyaya gələcək övladına ad verib, üzünü görmədən həlak olan şəhidlərimizdən biri də Məmmədov Kənan Hüseyn oğludur.

Məmmədov Kənan 1993-cü il iyulun 17-də Ağdaş rayonunda anadan olub. Kotavon kəndindəki V.Cəfərov adına məktəbi bitirib. Hərbi Xidmətini Naxçıvan Muxtar Respublikasında başa vurub. Xidmətdən sonra hərbidə qalaraq kiçik çavuş kimi xidmət göstərib. 2014-cü ildə Bakıda N saylı hərbi hissədə gizir vəzifəsində xidmətini davam etdirib. 2015-ci ildə isə Beyləqan rayonunda tank komandiri olaraq xidmətə başlayıb.

Şəhidin həyat yoldaşı Zəhra Məmmədova qəhrəmanımız haqqında danışıb.

Zəhra xanım Kənanın şəhid xəbərini eşidəndə fəryad qoparıb, qızını belə unutduğunu deyir:

"Yoldaşım Beyləqan rayonunda tank komandiri idi. 2016-cı ilin Aprel döyüşlərinə qatılmışdı. Aprel döyüşləri zamanı bibisi oğlu şəhid olmuşdu. Sentyabrın 27-i gecə saat 4-də Kənanı döyüşə yola saldıq. Evdən çıxarkən qızına baxdı, köks ötürdü. Döyüşə gedəndə qorxmursanmı dedim. "İslanmışın yağışdan nə qorxusu. Dağ boyda generalımız şəhid olub, inşallah, mənə də qismət olar o şərəf" – dedi. Sonuncu dəfə ayın 28-i səhər danışdıq, "hər şey əladı, özündən və uşaqlardan muğayat ol, sənə güvənirəm" deyə bildirdi. Kənan Füzilinin Qaraxanbəyli kəndində düşmən postunu alarkən başından vurularaq şəhid oldu. Mənə zəng gəldi, tanımadığım şəxs dedi ki, "Kənan yaralıdır, Kotavona gətirirlər, tez gəlin". Fəryad qopardım, qızımı belə unutmuşdum. Üzünü görə bilmədim, amma hiss etdim ki, al bayrağa bükülü tabutdakı mənim yarımdır".

"2017-ci ildə ailə həyatı qurmuşduq. Bizdə bir ailəni ayaqda tutacaq hər şey vardı: sevgi, dostluq, sədaqət və hörmət... 2018-ci il sentyabrın 28-də qızımız dünyaya gəldi, adını İnci qoyduq. Kənanın şəhid olmasından iki ay sonra isə oğlumuz dünyaya gəldi. Oğlumuzun olacağını biləndə çox sevindi. Arzu vardı ki, oğluna şəhid olan bibisi oğlunun adını qoyacaq. Mən onun arzusunu yerinə yetirərək oğlumuza Ruslan adını qoydum. Övladlarımı atası kimi Vətənə, millətə xeyirli övlad olaraq böyüdəcəyəm"

Kotavan kənd qəbiristanlığında dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra " **Vətən uğrunda", "Hərbi xidmətə görə", "Cəbrayılın azad olunmasına görə","Füzulinin azad olunmasına görə" medalları** ilə təltif olunub.

And içib torpağını,
Yadlara vermədin sən.
Övladına ad verib,
Üzünü görmədin sən.

Vətənin ürəyidir,
Hər bir şəhidin yeri.
Sən də qəlbimizdəsən,
İgid tank komandiri.

Sən düşmənin əlindən,
Vətən alan adamsan,
Qızının ad günündə,
Şəhid olan adamsan.

And içib torpağını,
Yadlara vermədin sən.
Övladına ad verib,
Üzünü görmədin sən.



## Məstəliyev Nurəddin Hasil oğlu



**Nurəddin Hasil oğlu Məstəliyev** (13 fevral 2000, Qızıldaş, Bakı – 2020) – Dövlət Sərhəd Xidmətinin kəşfiyyatçı əsgəri, Vətən müharibəsinin şəhidi.

Nurəddin Məstəliyev 2000-ci il fevralın 13-də Bakı şəhəri, Qaradağ rayonu, Qızıldaş qəsəbəsində dünyaya göz açmışdır. Əslən Yardımlı rayonunun Ökü kəndindəndir. İbtidai təhsilinə 2007-ci ildə Azər Namazov adına 180 saylı orta məktəbdə başlamışdır. Nurəddin kiçik yaşlarından idmanla məşğul olmağa başlayıb. Bir çox turnirlərə qatılan Nurəddin dəfələrlə rəqiblərindən fərqlənərək mükafatlar, sertifikatlar və medallar ilə təltif olunmuşdur. İdman məşğuliyyətini peşəkar səviyyəyə çatdıran Nurəddin Karatenin Göjü-ryü növü üzrə 80 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək Respublika Birincisi kimi ən yüksək mükafata layiq görülüb. 2016-cı ildə orta məktəbi bitirdikdən sonra 8 saylı texniki peşə liseyində "qaynaqçı" peşəsi üzrə ixtisaslaşıb. Peşə təhsilini bitirdikdən sonra hərbi xidmətə yola düşüb.

Nurəddin 2019-cu il iyul ayında hərbi xidmətə yollanıb. 2020-ci ilin sentyabr ayına qədər Dövlət Sərhəd Xidmətində hərbi xidmət keçib. Peşəkar idmançı olduğu üçün kəşfiyyat bölüyünə qoşulub.

Sentyabrın 27-də Vətən müharibəsinin başlaması ilə döyüşə yollanıb. Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə şücaət göstərmişdir. Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşmüşdür. Döyüş meydanında düşmən snayperinin gülləsinə tuş gəlmişdir. Aldığı xəsarətdən yerindəcə şəhidlik zirvəsinə ucalmışdır. Şəhid 13 noyabr 2020-ci ildə doğulub boya-başa çatdığı, valideynləri ilə yaşadığı Qızıldaş qəsəbəsinə gətirilmiş, qəsəbə

sakinləri tərəfindən izdihamla qarşılanmış və təntənəli surətdə torpağa tapşırılmışdır. Vida mərasimində Milli Məclisin deputatı, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov, Qaradağ rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Qızıldaş bələdiyyəsinin sədri İdris Alışanov, sədr müavini Fərid Tağıyev və Müdafiə Nazirliyinin nümayəndələri iştirak etmişdir.

Uğurları:

19 Dekabr 2015 – Ümumilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr, gənclər, qızlar və kişilər arasında Qocyu-ryu Okinava Karate-do və Kobudo idman növü üzrə Açıq Respublika turniri İRİQUMİ-CYUQO döyüş qaydaları üzrə +65 kq çəki dərəcəsində bacarıq göstərərək II yerə layiq görülmüşdür.

20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş yeniyetmələr, gənclər, qızlar və kişilər arasında Qocyu-ryu Okinava Karate-do və Kobudo idman növü üzrə respublika turnirində 75 kq çəki dərəcəsində III yeri tutmuşdur.

13 Mart 2016 – Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo Növləri Federasiyasının 20 illiyinə həsr olunmuş XIX Açıq Bakı birinciliyi və çempionatının +16 yaş, +75 kq çəki dərəcəsində I yerə layiq görülüb.

21–22 May 2016 – Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo Növləri Federasiyası. Beynəlxalq Juqo Kobute və Kempo-Ryu Federaiyası. Ümumilli Lider Heydər Əliyevin 93-cü ildönümünə həsr olunan XIX Açıq Respublika Kuboku İRİQUMİ-CYUQO döyüş qaydaları üzrə +65 kq çəki dərəcəsində bacarıq göstərərək II yerə layiq görülmüşdür.

17 İyul 2016 – Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo Növləri Federasiyası yeniyetmələr və Gənclər arasında Bakı Şəhər Açıq Turniri – 60 kq çəki dərəcəsində III yerə layiq görülüb.



Azərbaycan Qocyu-Ryu Okinava Karate-Do və Kobudo Növləri Federasiyası və Juqo Kobute və Kempo-Ryu Federasiyasının böyüklər, gənclər və yeniyetmələr arasında XIX Açıq Respublika Çempionatı və Birinciliyində İRİQUMİ-CYUQO döyüş qaydaları üzrə 70 kq çəki dərəcəsində bacarıq göstərərək III yerə layiq görülmüşdür.

Təltif və mükafatları:

(15.12.2020) – "Vətən uğrunda" medalı – Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə təltif olunmuşdur.

(25.12.2020) – "Füzulinin azad olunmasına görə" medalı – Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə təltif olunmuşdur.

(25.12.2020) – "Xocavəndin azad olunmasına görə" medalı – Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə təltif olunmuşdur.

Şəhidlər ölməyir, deyib babalar.
Sən də ölməmisən, yaşayacaqsan.
Müqəddəs şəhidlik adını, qardaş.
Sən də sonsuzadək daşıyacaqsan.

Aylar ötüşəcək, illər keçəcək.
Çox insan öləcək, unudulacaq.
Vətən tarixində, el yaddaşında,
Bircə şəhidlərin adı qalacaq.

Qalacaq tarixdə qızıl hərflə,
Vətənin yolunda candan keçənlər.
Daim nurlanacaq Nurəddin kimi,
Sənin tək ölməzlik suyu içənlər.

## Kazımov Emin Fərman oğlu



Emin Fərman oğlu Kazımov 1987-ci il dekabrın 7-də Yevlax rayonunda anadan olub.

Azərbaycan Ordusunun əsgəri olan Emin Kazımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Emin Kazımov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Emin Kazımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Adın da şəhiddir, özün də şəhid.
Müqəddəs zirvəyə çatdın sonunda.
Sən vətən uğrunda şəhid olmusan.
Medal da verilib: "Vətən uğrunda".

Bu medal hər kəsə qismət olmayır.
Amma sən almısan, Emin Kazımov.
Vətənin canında, xalqın xanında,
Əbədi qalmısan, Emin Kazımov.



## Qədirov Elvin Azər oğlu



Elvin Azər oğlu Qədirov 2001-ci il mayın 5-də Zaqatala rayonunun Yeni Suvagil kəndində anadan olub. 2007–2018-ci illərdə A.Qədirov adına 2 saylı Yeni Suvagil kənd tam orta məktəbində təhsil alıb.

Elvin Qədirov 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Elvin Qədirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elvin Qədirov sentyabrın 27-də Ağdam döyüşləri zamanı şəhid olub. Zaqatala rayonunun Yeni Suvagil kəndində torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elvin Qədirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Savaş başlayanda bir nəfər kimi,
Hamı döyüşlərə atıldı, getdi.
Elvin də vətənin o dar günündə,
İgid əsgərlərə qatıldı, getdi.

Vuruşdu Ağdamın azadlığıyçün.
Birlikdə düşmənə qan uddurdular.
Neçə ermənini əsir götürüb,
Neçə bölüyünü viran qoydular.

Ən güclü döyüşlər getdiyi zaman,
Elvin yağıları peşman elədi.
Vuruşdu vətənçün sonuna qədər,
Canını vətənə qurban elədi.





## Hüseynov Rəhim Qədir oğlu



Rəhim Qədir oğlu Hüseynov 1984-cü il iyulun 1-də Zərdab rayonunda anadan olub. 1998–2001-ci illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə təhsil alıb. 2001–2005-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib. 2005–2006-cı illərdə Silahlı qüvvələrin təlim və tədris mərkəzində oxuyub. O, ingilis, rus, erməni dillərini mükəmməl bilirdi. Şəhid mayor Rəhim Hüseynov Azərbaycan Silahlı Qüvvələrinin tərkibində NATO-ya bəyan edilmiş və dəfələrlə götürdüyü öhdəliyi müvəffəqiyyətlə yerinə yetirmiş Əməliyyat İmkanları Konsepsiyası (OCC Bn) taborunun komandiri idi. Rəhim Hüseynov 2020-ci ildə NATO-nun Əfqanıstan İslam Respublikasında Qətiyyətli Dəstək – qeyri-döyüş missiyasında Azərbaycan sülhməramlı kontingentinin və eyni zamanda Həmid Karzai Beynəlxalq Hava Limanının (HKIA) Qüvvə Qorunması taborunun komandiri vəzifəsində NATO Meritorious Service Medalı (NATO-nun xidmətə görə mükafat medalı) ilə təltif olunan ilk və tək azərbaycanlı zabitdir. Şəhid mayor Rəhim Hüseynov xidmət müddəti ərzində NATO təlimləri və kursları çərçivəsində dünyanın müxtəlif ölkələrində Azərbacan Silahlı Qüvvələrini layiqli şəkildə təmsil edib, Azərbaycan bayrağını şərəflə daşıyıb.

Azərbaycan Ordusunun mayoru olan Rəhim Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başladılan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Rəhim Hüseynov oktyabrın 20-də Qubadlı döyüşləri zamanı şəhid olub. Şəhid mayorumuz II Fəxri Xiyabanda dəfn edilib.

Sağlığında misilsiz xidmətlərinə görə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" medalı (III dərəcə), "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalına layiq görülən Rəhim Hüseynov Prezident İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra "Qarabağ" ordeni ilə, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Bütün şəhidlər kimi,
Sən də fəxr yerisən.
Xalqın ziyarətgahı,
Ocağısan, pirisən.

Dörd dildə danışırdın,
Təcrübəli komandir.
İndi bütün əsgərlər,
Səndən mərdlik öyrənir.

Həmişə öyrətmisən,
Gələcək nəsilləri.
Boynubükük dayanıb,
Məzarının gülləri.

Üç oğul böyüdürdün,
Hikmət, Rüfət və Fikrət.
İndi səndən qalanlar,
Bu vətənə əmanət.



**Sərxoşov Seymur Ramiz oğlu**



Seymur Ramiz oğlu Sərxoşov 1987-ci ildə Qaradağ rayonunun Qızıldaş qəsəbəsində dünyaya göz açıb. Orta məktəbi də həmin qəsəbədə bitirib.

Uşaqlıqdan zəhmətkeş, çalışqan uşaq kimi bilinən Seymur ali məktəbi uğurla bitirdikdən sonra ailəsinə dəstək olmağa başlayır. Qardaşı Sənan Sərxoşov belə deyir: "Fikri ancaq işləmək, ailəsinə baxmaq olub. Onun bir məqsədi var idi – işləmək və ailəsinə baxmaq".

Atası Ramiz Sərxoşovun sözlərinə görə, Seymurun böyük arzuları var idi: "Nəqliyyatı bitirdiyinə görə yol polisi olmaq istəyirdi. Müəyyən səbəblərə görə alınmadı, sonra başladı sürücü işləməyə. Sürücü işlədiyi müddətdə Qarabağ zonasından başqa bütün Azərbaycanı gəzmişdi. Sonra qardaşını da apardı özüylə işləməyə. Ardınca isə məni də apardı, üçümüz işləyirdik".

Anası Mehparə xanım deyir ki, ailənin yükünü öz üzərinə götürən Seymurun vətənpərvər, möhkəm xarakteri ilə yanaşı, musiqi duyumu da var idi. O, Lökbatan qəsəbəsində Cabbar Qaryağdıoğlu adına musiqi məktəbini bitirmiş, orada tarda ifa etməyi öyrənmişdi. Uşaqlıqdan ifa etdiyi qəhrəmanlıq nəğmələrindən birini də şəhadəti ilə özü yazdı: "Hərbidən çox öz sahəsinə marağı var idi. Amma vətən çağıranda marağı böyük oldu. Gülə-gülə getdi. Bacısı zəng eləyib dedi, sənə çağırış gəlib. İlk kəlməsi bu oldu ki, nə yaxşı?"

Qardaşı Kənan Sərxoşov deyir ki, müharibəyə getmək üçün özü can atırdı: "Nə qədər deyirdik getmə, xeyri yox idi. Deyirdi, qardaşlarım hamısı oradadır, mümkündür ki, mən getməyim? Amma bizə elə də hiss elətdirmirdi onu. İçində yaşayırdı, amma bizə hiss elətdirmirdi. Biz onun könüllü yazıldığını da bilmirdik".

Seymur Füzuli-Cəbrayıl-Xocavənd-Hadrut istiqamətlərində qəhrəmancasına vuruşur. Bacısının yuxusuna bir günlük gəldiyini deyərək, o gecənin səhəri əbədiyyətə qovuşur. Seymur Sərxoşov Hadrut istiqamətində gedən döyüşlərdə şəhid olur: "Bacısı 3 gün ard-arda eyni yuxunu görmüşdü. Dedi ana, Seymuru yuxuda görmüşəm. Ona dedim, Seymur, nə yaxşı gəlmisən? Dedi ki, bir günlük gəlmişəm, qayıdıb gedəcəm. Ayın 18-i günü də həmin yuxunu görmüşdü. Oktyabrın 13-də danışdıq axırıncı dəfə. Bir az danışdıq, sonra nə qədər elədik zəng çatmadı. Ayın 18-də xəbər çıxdı ki, şəhid olub. Demirdi döyüşdəyəm. Deyirdi, ordumuz hücuma keçib, hər şey yaxşıdır. Evdə atadan-anadan muğayat olun, nigaran qalmasınlar".

Şəhid Seymur Sərxoşov doğulduğu Qızıldaş qəsəbəsində dəfn edilib. Ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb: "Oğul kimi o, öz borcunu verdi. Başımızı dik elədi. Utanacaq iş görmədi Seymur. Başqa bir yerdə başına hadisə gəlsəydi, çox heyfsilənərdim. Amma o bacılarına, qardaşlarına elə bir yol qoydu ki... Qardaşım uşağı hərbi forma geyinir, Seymurun otağına hər girəndə hərbi salam verir. Bir kəlməsi də var, deyir, Qarabağ Azərbaycandır, Qarabağ əmimindir".



Verdin bu vətənə,
Sən də can, şəhid.
Ailənin dayağı,
Çalışqan şəhid.

Anan fəxr eləyir,
Sənin adınla.
Biz də fəxr edirik,
Belə qadınla.

Sənin tək oğulu,
Böyüdüb onlar.
Azaddır bu vətən,
Bitib intizar.

Yerin mübarəkdi,
Adın mübarək,
Hadrudda ocağın,
Odun mübarək.

## Cabbarov Əli Baba oğlu



Cabbarov Əli Baba oğlu 2002-ci il yanvarın 8-də Bakının Binəqədi rayonunun Binəqədi qəsəbəsində anadan olub.

Əli Cabbarov 2008–2019-cu illərdə Binəqədi rayonu 182 nömrəli tam orta məktəbdə təshil alıb. Elə həmin il Bakı Humanitar Kollecinə daxil olub.

2020-ci il yanvar ayında hərbi xidmətə çağırılıb və həmin ayın 14-də hərbi xidmətə yola düşüb. Bir müddət xidmət etdikdən sonra 2020-ci il 27 sentyabr tarixində başlamış əks-hücum əməliyyatında ağır döyüşlərdə iştirak edib.

Əli Cabbarov Füzuli və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib, şücaət göstərib.

Oktyabr ayının 27-də Xocavənd rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Cabbarov Əli Baba oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra **"Vətən uğrunda"**, **"Fizulinin azad olunmasına görə"**, **"Xocavəndin azad olunmasına görə"** medalları ilə təltif olunub.



Min dəfə görüşmüşük,
Bu küçənin tinində,
Bu ev sizin eviniz,
Hər kəs, hər şey yerində.

Bircə sən gəlməyirsən,
Məhləmizə, şəhidim.
Gəlməsən də göndərdin,
Zəfər bizə, şəhidim.

Hamıya hörmət ilə,
Salam, kəlam verərdin.
Hər bir zaman üzündə,
Təbəssüm gəzdirərdin.

Elə savaşlara da,
Təbəssümlə qatıldın.
Vətənin dar günündə,
Meydanlara atıldın.

Dünya fırlanır yenə,
Zaman axışıb gedir.
İndi bütün məhləmiz,
Sənin ilə fəxr edir.

## Pənahov Ülvi Nizami oğlu



Ülvi Nizami oğlu Pənahov (4 mart 2001; Nizami rayonu, Azərbaycan – 2 oktyabr 2020; Tərtər rayonu, Azərbaycan) – Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhididir.

Ülvi Pənahov 2001-ci il martın 4-də Nizami rayonunun Keşlə qəsəbəsində anadan olub.

Azərbaycan Ordusunun 44 günə zəfərlə bitirdiyi Vətən müharibəsində qəhrəmancasına şəhid olan əsgərlərdən biri də Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Pənahov Ülvi Nizami oğludur.

Ülvi Pənahov 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Pənahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Pənahov oktyabrın 2-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Nizami rayonunun Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Pənahov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və



şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Pənahov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

Qürurlandı bu vətən,
Savaş çağrış səsindən.
Sən tək bir igid çıxdı,
Keşlə qəsəbəsindən.

Nərə çəkib girişdin,
Savaşın meydanına.
Qorxu, vəlvələ düşdü,
Düşmənlərin canına.

Silahlı qüvvələrin,
Qəhrəman əsgərisən.
İndi bütün ölkədə,
Dillərin əzbərisən.

Fəxr ilə danışır,
Hamı igidliyindən.
Daha uca zirvə yox,
Sənin şəhidliyindən.

## İsgəndərov Əhmədağa Novruz oğlu



Şəhidlik zirvəsi qəhrəmanlıq simvoludur. O, vətənə məhəbbətdən, torpağa, yurda bağlılıqdan irəli gəlir. Məhz bu sevgi və 30 illik nifrət hissi, qisas əzmi Vətən müharibəsində qəhrəmanlığı alın yazısı seçən mərd oğullarımızı şəhidlik zirvəsinə yüksəltdi. Bu gün vətənimizin göylərində ruhu dolaşan, adı dillər əzbəri olan, məzarı önündə səcdə etdiyimiz şəhidlərdən biri də Əhmədağa İsgəndərovdur.

Əhmədağa Novruz oğlu İsgəndərov 20 sentyabr 1989-cu ildə Bakı şəhərində anadan olub. 1996-cı ildə Bakı şəhəri N.Nərimanov rayonu 82 nömrəli pilot-orta məktəbinin birinci sinifinə gedib. 2007-ci ildə həmin məktəbi bitirib və 614 balla Azərbaycan Dövlət İqtisad Universitetinin İnformatika və İdarəetmə fakültəsinin Menecment ixtisasına qəbul olunub, "əlaçı" təqaüdünə layiq görülüb. Universitetdə təhsil aldığı müddətdə ixtisasını dərindən mənimsəyib. 2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetindən məzun olan Əhmədağa elə həmin il Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarında hərbi xidmətə çağırılıb. Mingəçevir şəhəri "N" saylı hərbi hissəsində xidmət edib və 2012-ci ildə xidmətini başa vurub.

Əhmədağa İsgəndərov hərbi xidmətdən qayıtdıqdan sonra ixtisası üzrə bir sıra təkmilləşdirmə kurslarında iştirak edib. 2013-cü ildə satış və distrübütorluq sektorunda ölkənin aparıcı şirkəti olan Veysəloğlu Şirkətlər Qrupunda İnsan Resursları mütəxəssisi olaraq peşəkar fəaliyyətə başlayıb və İnsan Resursları əməliyyatları bölmə müdiri vəzifəsinə qədər yüksəlib. 2018-ci ildən etibarən peşəkar fəaliyyətini ölkənin önəmli restoranlarını özündə birləşdirən Saffron Restoranlar Qrupunda davam etdirib. Əhmədağa İsgəndərov Azərbaycan Respublikasının Əmək Qanunvericiliyi, kadr inzibatçılığı və əmək haqqı sahəsində ölkənin aparıcı ekspertlərindən biri idi.



Şəhidimiz ailəli olub, bir övladı yadigar qalıb.

Əhmədağa İsgəndərov 21 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi toplanışa çağırılıb, 27 sentyabrda başlayan Vətən müharibəsinin ilk günlərindən cəbhədə döyüşlərə qatılıb. Cəbrayıl-Füzuli-Xocavənd istiqamətində ordumuzun uğurlu əməliyyatlarında iştirak edib. Əhmədağa İsgəndərov 7 oktyabrda Füzuli rayonu uğrunda gedən döyüşlərdə xidməti vəzifəsini icra edərkən qəhrəmancasına şəhidliyə yüksəlib. Bir gün sonra Kürdəxanı qəbristanlığında torpağa tapşırılıb.

Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına əsasən şəhid Əhmədağa İsgəndərov "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Yenə də bir şəhidin,
Məzarı önündəyəm,
Qovuşmaq həsrətində,
Ayrılıq günündəyəm.

Bir oğul qoyub gedib,
Ata, ana yanında.
İndi zirvələrdədir,
Bu vətənin canında.

O da könüllü olub,
Şəhidlik zirvəsində.
Daim yaşayacaqdır,
Qələbə nəğməsində.

## Solnçyev Dmitriy Aleksandroviç oğlu



44 günlük Vətən müharibəsində tarix yazan qəhrəmanlarımızdan biri də Solnçyev Dmitriy Aleksandroviç oğludur. O, 1995-ci il aprelin 15-də Bakı şəhərində anadan olub. Milliyyətcə rus idi. Uşaq yaşlarında həm anasını, həm də atasını itirib. Bir bacısı var idi.

2001–2012-ci illərdə Nəsimi rayonunda 240 nömrəli tam orta məktəbdə təhsil alıb. 2012–2016-cı illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) ali təhsil alıb. Subay idi.

Dmitri Solnsev 2016–2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarından müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Nəsimi Rayon Hərbi Komissarlığına müraciət edib və Azərbaycan Ordusu sıralarına yazılıb.

Azərbaycan Ordusunun əsgəri olan Dmitri Solnsev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin, Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Dmitri Solnsev oktyabrın 25-də Qubadlı döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə Dmitri Solnsev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin



azad olunmasına görə", "Füzulinin azad olunmasına" medalları ilə təltif edildi.

Şəhidin bacısı Yuliya Solntseva onunla bağlı xatirələrini bölüşüb: "Dmitri deyirdi ki, rus olsam da, Azərbaycanda yaşayıram, bura mənim torpağımdır, öz borcumu yerinə yetirməliyəm".

Dmitri Solnçevin bacısı oğlu Anar Süleymanov deyir ki, Azərbaycan ərazisində yaşayan, dilindən, dinindən və millətindən asılı olmayaraq hər bir kəs Azərbaycanı müqəddəs vətəni bilməlidir:

"Mənim dayım Dmitri də Azərbaycanda yaşayan və Azərbaycanı sevən biri idi. O həmişə torpaqlarımızın işğalından söz düşəndə kədərlənir, ermənilərə qarşı xüsusi nifrət edirdi. Dayım ali məktəbi qırmızı diplomla bitirib və işləyirdi. Hər zaman Azərbaycan bayrağı ilə qürur duyurdu. Heç kimlə məsləhətləşmədən hərbi təlimlərə yazıldı və könüllü olaraq vətənə xidmətə yollandı. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsində törətdiyi təxribatların qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələrinin tərkibində döyüşə atılıb və şəhid oldu. Mənim dayım mənim üçün nümunədir, qürur mənbəyidir. Bu gün mən də Azərbaycan torpaqlarının işğaldan azad olunması üçün canımdan keçməyə hazıram. Dayım döyüşlərdə şücaəti ilə seçilib. Hamımız Azərbaycan torpaqları uğrunda döyüşməyə hazır olmalıyıq. Qarabağ Azərbaycandır".

Milliyyət fərqi yox, dinin fərqi yox,
Vətən müqəddəsdir, vətən əzizdir.
Kim öz vətənini sən tək sevirsə,
Ürəyi təmizdir, ruhu təmizdir.

Bakıda doğulub böyümüşdün sən.
Doğma yurd bilirdin Azərbaycanı.
Vətən şəhidlərin ruhuna dolur,
Şəhiddə yaşayır vətənin canı.

Səni heç bir zaman unutmarıq biz.
Həm fəxr yerimiz, həm acımızsan.
Susmadın vətənin o dar günündə,
Zirvəyə ucalmış baş tacımızsan.



## Babayev Vüsal Sübbuh oğlu



Babayev Vüsal Sübbuh oğlu 8 yanvar 1992-ci ildə Pirallahı rayonunda anadan olub. Uşaq vaxtı tərbiyəsi, ağlı, zəkası ilə yaşıdlarından seçilib. Yaxınları deyir ki, Vüsal son tikəsini belə hər kəslə bölüşən bir uşaq olub.

Vüsal 1999–2010-cu illərdə Pirallahı rayonu 186 nömrəli tam orta məktəbdə təhsil alıb, çalışqan, savadlı bir məktəbli olub. Müəllimləri deyir ki, bir dəfə musiqi dərsində şagirdlər sıra ilə hərə bir mahnı oxumağa başlayıb. Sıra Vüsala çatanda isə o, himnimizi ifa edib. Vüsal uşaq vaxtlarından bayrağına, himninə, gerbinə, millətinə, Vətəninə bağlı bir oğul kimi böyüyüb.

Orta məktəbi bitirdikdən sonra Vüsal Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Burada oxuyan zamanlarda da tərbiyəsi, savadı, bacarığı ilə fərqlənib. 2014-cü ildə hərbi məktəbi leytenant rütbəsi ilə bitirib. Daha sonra baş leytenant rütbəsinə layiq görülüb. Həmin il silahlı qüvvələrin təlim və tədris mərkəzinə daxil olub. 2015-ci ildə yerüstü artilleriya tağım komandiri kursunu bitirib.

Babayev 2015-ci ildən Goranboy rayonu 708 saylı hərbi hissədə, 2018-ci ildən isə Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində ağır artilleriya komandiri vəzifəsində xidmət edib. Bu müddətdə əsgərlərinin, iş yoldaşlarının sevgisini, rəğbətini qazanıb. Əsgərlərinin hər zaman qayğısına qalıb. İşlədiyi müddətdə Fəxri Fərman və medallarla təltif olunub.

Vüsal bir çox hərbi təlimlərdə iştirak edib. Vətən müharibəsinin gedişatında oktyabrın 21-i Füzuli rayonunun Gecəgözlü kəndində yaralı döyüş yoldaşını xilas edərkən yanına mərmi düşməsi nəticəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Vüsal Babayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

İgidimiz, həmçinin Füzulinin rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Füzulinin azad olunmasına görə" medalı ilə də təltif edilib.

Selcan və Rüqəyyə adlı iki balası əmanət qalıb.

Ailəsi şəhid Vüsal Babayevin xatirəsini əbədiləşdirmək məqsədilə onun şəxsi əşyalarını Azərbaycan İstiqlal Muzeyinə bağışlayıb. Pirallahı rayonunda məktəblərdən birinə qəhrəmanımızın adı verilib.

Vətən bölünməzdisə,
Şəhidlər ölməzdilər.
Onlar səmalaracan,
Mələk kimi süzdülər.

Hər adam gedə bilməz,
Zəfərə gedən yolla,
Vətən vüsala yetdi,
Vətən oğlu Vüsalla.

İndi bütün nəsillər,
Sizlərdən güc alıbdır.
Selcan, Rüqəyyə kimi,
İki balan qalıbdır.

Vətən əmanətidir.
Bu gün səndən qalanlar.
Sizinlə fəxr eləyir,
İndi bütün insanlar.



## Nudirəliyev Zaur İsmayıl oğlu



Zaur Nudirəliyev 1978-ci il sentyabrın 1-də Bakı şəhərində anadan olub. 1985-ci ildə Sabunçu rayonunun Zabrat qəsəbəsində 192 nömrəli tam orta məktəbdə təhsilinə başlayıb və 1992-ci ilə qədər həmin məktəbdə təhsil alıb. 1992-ci ildən 1995-ci ilə qədər isə təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam edib. 1995-ci ildə Türkiyə Ali Hərbi Hava Qüvvələri Məktəbinə daxil olan Zaur Nudirəliyev, 2000-ci ildə həmin məktəbi təyyarəçi ixtisası üzrə bitirib.

Ailəli idi. Ömər adında bir oğlu və Pəri adında bir qızı yadigar qaldı.Zaur Nudirəliyev 2000-ci ilin fevral ayından 2004-cü ilin iyul ayına qədər "N" saylı hərbi hissədə 3-cü aviasiya eskadrilyası aviasiya manqasının təyyarəçisi, 2004-cü ilin iyul ayından 2004-cü ilin dekabr ayına qədər isə "N" saylı hərbi hissədə 3-cü aviasiya eskadrilyası aviasiya manqasının baş təyyarəçisi olub.

2004-cü ilin dekabr ayından 2007-ci ilin mart ayına qədər "N" saylı hərbi hissədə 1-ci aviasiya eskadrilyası aviasiya manqasının baş təyyarəçisi, 2007-ci ilin mart ayından 2009-cu ilin dekabr ayına qədər "N" saylı hərbi hissənin 1-ci aviasiya eskadrilyasının manqa komandiri olan Zaur Nudirəliyev, 2009-cu ilin dekabr ayından 2011-ci ilin may ayına qədər "N" saylı hərbi hissənin 1-ci aviasiya eskadrilyası komandirinin müavini-şturman vəzifəsində xidmət edib.

Zaur Nudirəliyev 2011-ci ilin may ayından 2013-cü ilin noyabr ayına qədər "N" saylı hərbi hissənin 1-ci aviasiya eskadrilyasının qərargah rəisi, 2013-cü ilin noyabr ayından 2015-cü ilin avqust ayına qədər isə "N" saylı hərbi hissənin 1-ci aviasiya eskadrilyasının komandiri olub.

Zaur Nudirəliyev 2015-ci ilin avqust ayından "N" saylı hərbi hissə komandirinin uçuş hazırlığı üzrə müavini və uçuşların planlaşdırılma bölməsinin rəisi vəzifəsində xidmət edirdi.

Zaur Nudirəliyev Azərbaycan Hərbi Hava Qüvvələrinin sıralarında xidmət elədiyi 20 il ərzində bir sıra döyüş üsullarını ərsəyə gətirmişdir və uğurlu sınağlardan sonra döyüşlərdə icra etmişdir.

Zaur Nudirəliyev mütamadi olaraq hərbi təlimlər zamanı "Su-25" hücum təyyarələrinin tam döyüş potensialından istifadə edirdi. O, nişangah istifadə etmədən, yalnızca riyazi üsullarla bombaların atılmasının yeni üsulunu icra etmişdir. NATO standartlarına uyğun bu üsul digər təyyarəçilərə də aşılanmışdır.

Vətən müharibəsindən əvvəl Azərbaycan Hərbi Hava Qüvvələrinin Komandanlığı tərəfindən "Su-25" hücum təyyarələrində yeni döyüş üsullarının istifadə olunması ilə bağlı qərar verilmişdir. Komandalıq tərəfindən bu iş xarici dövlətlərdə təhsil alması və bir çox dövlətlərlə aparılan hərbi təlimlərdə təcrübə toplaması nəzərə alınaraq Zaur Nudirəliyevə həvalə olunmuşdur.

Azərbaycan Hərbi Hava Qüvvələrinin "Qarabağ" ordenli mayoru Cavid Fərəcovun sözlərinə görə, "Su-25" hücumçu təyyarə olaraq aşağı hündürlühdə istifadə üçün təyin olunub."Su-25" hücum təyyarəsisi aşağı və orta hündürlühdə uçarsa hava hücumundan müdafiə vasitələri tərəfindən vurulması ehtimalı çoxdur. Amma Zaur Nudirəliyevin araşdırmaları nəticəsində "Su–25" hücum təyyarəsinin sahib olduğu göstəricilərdən məharətlə istifadə olunmuşdur, nəticədə yeni bir döyüş üsulu ərsəyə gəlmişdir. "Su-25" hücum təyyarəsindən bomba atışının tam dəqiq olması üçün birinci dəfə olaraq aşağı və ya orta hündürlükdən yox, məhz yuxarı hündürlükdən istifadə olunmuşdur. Bu üsul təcrübədə uğurlu alındığı üçün sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı geniş istifadə olunmuşdur. Nəticədə Ermənistan Silahlı Qüvvələrinin dayaq məntəqələrinə və canlı qüvvələrinə ağır zərbələr endirilmişdir.



Zaur Nudirəliyev həmçinin daha bir nailiyyətə imza atmışdır. Lazer güdümlü bombalar sadəcə "Su-25" hücum təyyarəsi modernizə olunmuş versiyası hesab olunan "Su-25T" hücum təyyarəsində atılır. Amma Zaur Nudirəliyevin təcrübəsi nəticəsində birinci dəfə "Su-25" hücum təyyarəsindən lazer güdümlü bombalar atılmışdır.

Azərbaycan Hərbi Hava Qüvvələrinin "Qarabağ" ordenli zabiti Elçin Məmmədovun sözlərinə görə, Zaur Nudirəliyevin idarə etdiyi "Su-25" hücum təyyarəsi verilən döyüş tapşırığının yerinə yetirilməsi üçün Cəbrayıl istiqamətində uçuşa yollanmışdır. Kəşfiyyat məlumatına əsasən həmin ərazidə Ermənistan Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının (HHMQ) vasitələri olmamalı idi. Amma Zaur Nudirəliyevin idarə etdiyi təyyarə həmin ərazidə təyin olunmuş hədəfə yaxınlaşan zaman idarəetmə məntəqəsinə Ermənistan Hava Hücumundan Müdafiə Qoşunlarının müdafiə vasitələrinin hazır vəziyyətə gətirilməsi barədə operativ məlumat daxil olmuşdur. Buna görə də dərhal onlara geri qayıtmaq tapşırığı verilmişdir. Həmin dəqiqədən sonra Zaur Nudirəliyevlə əlaqə dayandı və o çağırışa cavab vermədi. Artıq "Su-25" hücum təyyarəsi Ermənistan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən vurulmuşdu. Həmin zərbə "Su-25" hücum təyyarəsinin Katapult oturacağını zədələmədiyi üçün onun xilas olmaq ehtimalı yaranmışdır. Amma həmin günlərdə Cəbrayıl şəhəri və onun ətraf yaşayış məntəqələri istiqamətində şiddətli döyüşlər getdiyi üçün onun paraşütlə eniş edəcəyi halda Ermənistan Silahlı Qüvvələrinin nəzarətində altında olan ərazilərə düşüb, qarşı tərəfə əsir düşmə ehtimalı da var idi. Buna görə də Zaur Nudirəliyev "Atəş ramı" etməyi qərara alır və "Su-25" hücum təyyarəsini nütün sürəti ilə Ermənistan Ordusunun bir qrup canlı qüvvəsinin cəmləşdiyi yerdə, zirehli nəqliyyat vasitəsinə çırpır.

Zaur Nudirəliyev Azərbaycanın hərb tarixində "Atəş ramı" edən birinci pilot olmaqla yanaşı, 1941-ci ildə sovet hərbi pilotu

N.Qastellodan sonra bu addımı atan birinci pilot oldu Zaur Nudirəliyev II Fəxri Xiyabanda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Zaur Nudirəliyevə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Təltifləri:
– III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı
– II dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı
(26.06.2001) – "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı
(26.06.2008) – "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı
(26.06.2010) – III dərəcəli "Qüsursuz xidmətə görə" medalı
(26.06.2013) – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı
(26.06.2015) – II dərəcəli "Qüsursuz xidmətə görə" medalı
(26.06.2018) – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı
(26.06.2020) – I dərəcəli "Qüsursuz xidmətə görə" medalı
(09.12.2020) – "Vətən Müharibəsi Qəhrəmanı" medalı (ölümündən sonra)
(15.12.2020) – "Vətən uğrunda" medalı (ölümündən sonra)
(25.12.2020) – "Füzulinin azad olunmasına görə" medalı (ölümündən sonra)



Salam, səma qartalı,
Dərələr, dağlar adam.
Salam, Nudirəliyev,
Savaşqa qəddar adam.

Necəsən, səma adam,
Göy insanı, necəsən?
Vətən müharibəsi,
Qəhrəmanı, necəsən?

Hücum təyyarələrin,
Havaya qalxar gedər,
Xəncərini düşmənin,
Bağrına soxar gedər.

Gedər sənin adın da,
Yüz illər yaddaşında.
Sənin ilə uyuyur,
Gör neçə qardaşın da.

Sizlər xilas etdiniz,
Bitdi vətən həsrəti.
Sizinlə fəxr eləyir,
Azərbaycan milləti.

## Hacıyev Ülvi Şirin oğlu



Ülvi Hacıyev 1994-cü il noyabrın 13-də Bakı şəhərində anadan olub. Suraxanı rayonu Rəsul Ənnağıyev adına 141 nömrəli tam orta məktəbdə orta təhsilini tamamlayıb. 2012-ci ildə rus dili üzrə Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyat fakültəsinə daxil olub. 2016-cı ildə həmin universitetin Biznesin təşkili və idarə edilməsi (maliyyə üzrə) ixtisaslaşması üzrə magistraturasına daxil olub. Qəhrəmanımız 2019-cu ildə hərbi xidməti başa vurduqdan sonra Dövlət Gömrük Komitəsinin "Qırmızı Körpü" gömrük postunda çalışmağa başlayıb.

Ülvi Hacıyev Tovuz döyüşlərində general-mayor Polad Həşimovun şəhid olmasından sonra iş yoldaşları ilə birlikdə döyüşlərə könüllü yazılıb. Onun xidmətinin bir ili tamam olduğu üçün Bakıya təyinat alıb. İki gün əvvəl paytaxta qayıdan Ülviyə döyüşə getmək üçün məktub gəlib. Evdəkilərdən bu xəbəri gizlədərək, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu Rayon İdarəsinə yaxınlaşıb. Yalnız döyüşlərə yola düşən zaman bu barədə qardaşına bildirib. Döyüş yoldaşları deyir ki, Hadrut qəsəbəsi işğaldan azad olunandan sonra Cəbrayıl, Şuşa istiqamətinə gediblər. 36 saat susuz qaldıqları üçün yaxınlıqda ferma görüblər, su içmək istəyiblər və uçurumdan tullanıblar. O zaman Ülvinin yanında yaralı dostu olduğu üçün tullanmayıb, bildirib ki, Teymur dincəlsin, gələcəklər. Digər dostları fermadan su içməyə gedən zaman döyüş olub və Ülvigil olan yerə pulemyot atıblar. Orada dostu ilə birlikdə şəhid olub.

Ülvi Hacıyev oktyabrın 19-da şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 05.12.2020-ci il tarixində II Şəhidlər Xiyabanında dəfn olunub.



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ülvi Hacıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ülvi Hacıyev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Sən də könüllü şəhid,
Sən də könüllü əsgər,
Sizlərin qanınızla,
Gəldi vətənə zəfər.

Biz sizlərə borcluyuq.
Zamanın sonunacan.
Yollarınız açıqdır,
Tanrının yanınacan.

Sənin adın həmişə,
Dünyada yaşayacaq,
Hadrudda, Cəbrayılda,
Şuşada yaşayacaq.

Sən vətən sevgisindən,
Doymayan igidimsən,
Meydanda dostunu tək,
Qoymayan igidimsən.

## Ağayev Cavidan Mirzəağa oğlu



Cavidan Mirzəağa oğlu Ağayev 2001-ci il iyunun 16-da Bakı şəhərində anadan olub. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Ordusunun əsgəri olan Cavidan Ağayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində vuruşub. Cavidan Ağayev oktyabrın 2-də Xocavənd rayonunda gedən döyüşdə alıdığı qəlpə yarası nəticəsində şəhid olub. Bakı şəhəri Badamdar qəbiristanlığında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Cavidan Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən, Cavidan Ağayev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.



Vətən sənə dedi can, Cavidan.
Sən igidsən, qəhrəman Cavidan.

Sən vətənin yolunda savaşdın,
ətən üçün od oldun, alışdın.
Şəhidliklə torpağa qarışdın.
Bunu bacarmır hər insan, Cavidan.

Çətin olur savaşlar,
Qurumayır göz yaşlar,
Bilin bunu, qardaşlar,
Qəhrəmandı, qəhrəman, Cavidan.

## Əlimov Elvin Nəsrəddin oğlu



"Ağır döyüşlər zamanı oğlumdan xəbər ala bilmədik. Sentyabrın 29-da oğlumun telefonunu yığdım. Komandiri götürüb Elvinin orada olmadığını dedi. "Oğlumun səsini eşitmək istəyirəm, anayam axı..." dedim. Sakitlik çökdü... Qəhərə boğulmuş komandir "Oğlunuz şəhid olub" dedi. Bu cavabı gözləmirdim... Həmin günün axşamı şəhid oğlum evinə gəldi...".

Bunu şəhid Elvin Nəsrəddin oğlu Əlimovun anası İradə Əlimova deyib.

Ananın sözlərinə görə, oğlu döyüşdə olduğu müddətdə günlərini nigarançılıqla keçirib. Ondan xəbər ala bilməyəndə isə gözlərini telefona dikib zəng gözləyirmiş:

Elvin Əlimov 1995-ci il iyunun 8-də Qusar rayonunun Köhnə Xudat Qazmalar kəndində anadan olub. Orta təhsilini Suraxanı rayonu Hövsan qəsəbəsində yerləşən 280 saylı orta məktəbdə alıb.

Valideynlərinin arzusu ilə əvvəlcə musiqi məktəbində təhsil alan Elvin Əlimov gözəl tar çalarmış. Atası I Qarabağ savaşında iştirak etdiyi üçün onda həm də hərbiyə həvəs olub. Bu həvəs onu əvvəlcə Cəmşid Naxçıvanski adına hərbi liseyə, sonra Heydər Əliyev adına ali hərbi məktəbə aparıb.

2017-ci ildə leytenant rütbəsində təhsilini uğurla başa vuran Elvin Əlimov Azərbaycan ordusunun hərbi hissələrindən birində xidmət edib. II Qarabağ savaşı başlayanda cəbhəyə yollanıb və Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına iştirak edib.

"İndi oğlumun şəkilləri ilə təsəlli tapıram. Onun qısa, amma şərəfli yoluna baxıb qürurlanıram. Bilirəm ki, oğlum vətənini qorumaq



üçün qanını torpağa hopdurdu. Ona görə də oğlumla daim fəxr edəcəyəm"- deyir ana...

Oğlunun döyüş yolundan danışan şəhidin atası Nəsrəddin Əlimov hər dəfə ağır döyüşlərə gedəndə oğluna xeyir-dua verirmiş:

"Qulluqda olduğu müddətdə təlimlərdə fəal iştirak edib və fəxri fərmanlarla təltif olunub. Tağım komandiri idi. Tankçı və özünün şəxsi heyəti ilə hücuma keçdi. Sentyabrın 28-i günorta saatlarında özü xəbər verdi ki, düşmənə ağır və sarsıdıcı zərbələr endirdik.

Ola bilsin ki, düşmən təslim olsun və ağ bayraq qaldırsın. Çox sevindim. Anasını da sevindirmək üçün gedib şirniyyat alıb gətirdim. Hardasa axşam saatlarında yenidən məlumat aldım ki, oğlumgilin bölümü yenidən hücuma keçəcək.

Elvinlə danışıb, ona xeyir-dua verdim. Gecə saat 03:00 tarixlərində onların tankları vurulub. Əsgərlərimiz tanklardan çıxaraq ətrafa səpələniblər.

Hətta Cəbrayılın başlanğıcına qədər gedib çıxıblar. Dayanmadan mərmi yağışına tutulan hərbçilərimiz səhəri günortaya qədər hərəkətsiz yerdə uzanıqlı qalıblar".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elvin Əlimov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Suraxanı rayonunun Hövsan qəsəbəsində dəfn olunub.

Ağır döyüşlər gedir,
Füzuli dağlarında,
İgidlər döyüşürlər,
Vətən intizarında.

O igidlər içində,
Əlimov Elvin də var,
Hamısının gözündə,
Qəzəbdə var, kin də var.

Otuz illik həsrətdir,
Bu qəzəbi yaradan,
Ermənilər uduzur,
Çəkilirlər aradan.

Elvinin cəsarəti,
İgidlərə güc verir.
İrəliyə atılır,
İgid tağım komandir.

Şəhidlik səsi gəlir,
Zəfərin nəğməsində.
Füzuli azad olur,
İgidlər sayəsində.



## Abbasov Ceyhun Natiq oğlu



**Ceyhun Natiq oğlu Abbasov** 8 fevral 1986-cı ildə Bakı şəhərində doğulub. Orta təhsilini Bakı şəhəri Elşad Yəhyayev adına 56 saylı tam orta məktəbdə alıb. Burada 9 il oxuduqdan sonra, təhsilini öz arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi litseydə davam etdirmək istəyib lakin litseyə qəbul ola bilməyib və bundan sonra sənədlərini texniki peşə məktəbinə təqdim edib.

Peşə məktəbinə qəbul olan Ceyhun oranı müvəffəqiyyətlə bitirdikdən sonra, həqiqi hərbi xidmətə çağrılıb. Hərbi xidmətini də uğurla başa vurub və bundan sonra peşəkar hərbçi olmaq arzusunu gerçəkləşdirmək qərarına gəlib.

Beləliklə, hərbi xidmətdə qalmağı seçən Vətən oğlu, respublikanın müxtəlif bölgələrində, cəbhəyanı ərazilərdə və bilavasitə ön cəbhədə xidmət edib: Beyləqan, Füzuli, Tərtər, Ağdam, Gədəbəy... Son xidmət yeri isə Şəmkir rayonundakı "N" saylı hərbi hissənin əks-həmlə taboru olub. Təcrübəli hərbçi taborun snayper qrupunun komandiri idi.

O, vaxtı ilə snayper silahının özəlliklərinə daha da yaxından yiyələnmək üçün qardaş Türkiyədə komando kursları keçib, təkmilləşib və xüsusi təyinatlı snayper kimi şöhrət qazanıb. Hərbçi dostları arasında "qarşısıalınmaz kəskin nişançı" olaraq tanınan Ceyhun Abbasov, xidmət etdiyi dövrdə 50-yə yaxın xüsusi döyüş tapşırığını yerinə yetirib.

Ceyhun Abbasov Azərbaycan Prezidenti adından, Müdafiə nazirinin 24 iyun 2013-cü il tarixli əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" yubley medalı ilə təltif olunub. 2016-cı ilin aprel döyüşlərində Lələtəpə istiqamə-

tindəki qəhrəmanlığına görə, cənab Prezidentin 19 aprel 2016-cı il tarixli Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Ceyhun 2020-ci ilin iyulunda dövlət sərhədinin Tovuz istiqamətində düşmən hücumunun qarşısını alan oğullardan biri olaraq da öz fədakarlığı ilə fərqlənib. O, burada Ermənistan silahlı qüvvələrinin dörd hərbçisini zərərsizləşdirib. Hərbi təxribatlarına ara vermək istəməyən düşmənin müddətdən artıq hərbi qulluqçusu Aşot Mikaelyanı isə boğaz nahiyəsindən vuraraq, nə qədər sərrast atıcı olduğunu bir daha nümayiş etdirib. Ceyhun Aşotu zərərsizləşdirəndə gecə saat 01:10 radələri olub... Bu hadisə mətbuatda 14 iyulda şəhid olan Yaşar Babayevin qisasının alınması kimi tirajlanıb...

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Tovuz döyüşlərində göstərdiyi şücaətə görə Ceyhun Abbasova xüsusi hazırlanmış qol saatı bağışlayıb və başqa mükafatlarla təltif edib.

Qəhrəman gizirin son döyüşü Murov dağ silsiləsində yerləşən Elşən zirvəsi uğrunda olub. 28 sentyabr 2020-ci ildə Elşən zirvəsi uğrunda gedən döyüşlərdə ayaq və bel nahiyəsindən yaralanan Ceyhun, təxliyədən imtina edərək, öz yaralarını sarıyıb, ağrı kəsici iynə vuraraq, döyüşə davam edib. O, yaralı halında belə, düşmənə zərbə vurmağı bacarıb: həmin andakı duruma görə məcburi və çevik qərar qəbul edən peşəkar hərbçi yanındakı yoldaşının "qumbaraatan"ını götürərək, dörd erməni atəş istehkam məntəqəsini partladıb. Qorxmaz hərbçimiz erməni postuna girərkən şəhid olub.

Ceyhun Abbasov 12 dekabr 2020-ci ildə II Fəxri Xiyabanda dəfn edilib.

Şəhid gizirimiz ailəli idi, 2 övladı yadigar qalıb.



Öncə çağırdılar səni hərbiyə,
Gedib əsgərliyi keçib qayıtdın.
Qayıtdın, ürəyin geridə qaldı,
Vətənə xidməti seçib qayıtdın.

Füzuli, Gədəbəy, Ağdam və Tərtər,
Sən belə qəhrəman, igid olmusan,
Xidmət eləmisən Şəmkirə qədər,
Sonuncu döyüşdə şəhid olmusan.

Sənə tapşırıqlar verilən zaman,
Almısan, fərqi yox, uzaqdır, yaxın.
Qarşısıalınmaz kəskin nişançı,
Xüsusi gedişin əlliyə yaxın.

Tarixdə qalıbdır Tovuz döyüşün,
Vətən nəğməsində şəhid olmusan,
Yaşar Babayevin qisasın alıb,
Elşən zirvəsində şəhid olmusan.

## Abbasov Aslan Vəliyəddin oğlu



Şəhid Abbasov Aslan Vəliyəddin oğlu 25.12.1995-ci ildə Xəzər rayonunda anadan olub. 3 oktyabrda döyüşlərə könüllü yollanıb.

Oktyabrın 10-da düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olub.

"Vətən uğrunda" medalı ilə təltif edilib.

Könüllü qatıldın savaşlara sən.
Vətənin dar günü dadına yetdin.
Canını alaraq neçə düşmənin,
Sonunda şəhidlik adına yetdin.

Hər adam bu ada ucala bilmir.
Sənin ucalığın böyüklüyündür.
Sənin tək oğullar itirdiyiyçün,
Vətənin ürəyi düyün-düyündür.

Amma ki, şəhidi itirmir vətən,
Şəhidlər vətənin canına köçür,
Kim şəhid olursa vətən yolunda,
Göylərə, tanrının yanına köçür.



## Mustafayev Nurlan Hamlet oğlu



"Hər şeyi 14 ədəd alırdı. Deyirdi, ana, dağın başında mən geyinim, əsgərim üşüsün?! Əsgərini çox sevirdi".

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan Nurlan Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Füzulinin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Mustafayev oktyabrın 12-də Hadrut döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Mustafayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Mustafayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Musta-

fayev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nurlan Mustafayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nurlan Mustafayev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Rəhilə Mustafayeva oğlunun 1990-ci ildə Sumqayıtda anadan olduğunu, orta məktəbə Bakıda getdiyini deyib.

"Məktəbdə çox yaxşı oxuyurdu. 8-ci sinifdə məktəbdən ayrılıb, Cəmşid Naxçıvanski adına hərbi liseyə gedəndə müəllimləri onu buraxmaq istəmirdilər. Narazılıq edirdilər ki, niyə uşağı məktəbdən çıxarırsan. Hərbi liseyə yüksək balla, ikinci nəticə ilə daxil olmuşdu. Ali hərbi təhsilini Almaniyada aldı. Orada 3 il oxudu. Buraxılışın ən yaxşı əcnəbi kursantı, atıcılıq üzrə qızıl medal, qaçış üzrə birincilik və çoxlu sayda birinciliklərlə geri qayıtdı.

Təyinatını Murova verdilər. Dörd il düşmənlə üzbəüz Murovda oldu. General Polad Həşimovun rəhbərliyi altında xidmət edirdilər. Polad Həşimov şəhid olanda oğluma çox pis təsir etmişdi. Mən o vaxt ondan soruşdum ki, Nurlan, generalı belə tərifləyirlər, bu qədərmi yaxşı insan idi? Dedi, ana, hələ az deyirlər. Polad Həşimovun anası müsahibəsində bildirmişdi ki, Polad bir dəfəyə 70 papaq, corab alırdı və hamısını da əsgərlərinə paylayırdı. Eyni şeyi Nurlan



Murovda olanda mən də yaşamışam. Tağımda 14 nəfər idilər. Hər şeyi 14 ədəd alırdı. Deyirdi, "ana, dağın başında mən geyinim, əsgərim üşüsün?". Əsgərini çox sevirdi. Əsgərləri deyirdi, Nurlan təlimdə sərt idi, təlimdən sonra qardaşımız olurdu. Nurlanın həmişə sözü bu olurdu: "rahatam ki, mənim yanımda bir əsgərin burnu qanamayıb. Onları qoruya bildim". Atışma olanda əsgərlərinə deyirdi, siz təhlükəsiz yerdə gözləyin. Gizirləri götürüb özü cavab atəşi açırdı. Ümumiyyətlə, 14 yaşından sonra sanki iki Nurlan var idi. Hərbçi və oğlum Nurlan. Çox fərqli idilər. Mülki paltarı geyinəndə həddən artıq pozitiv, xoş auralı adam olurdu. Hərbi hissədə isə sərt və ciddi idi. Üstündə formanın ağırlığı var idi. Onu geyinəndə tamam başqa adam olurdu".

Şəhid anası oğlu ilə sonuncu dəfə oktyabrın 11-i danışdığını söyləyib:

"Döyüş yolu ilə bağlı çox bilgili deyiləm. O, bizə heç nə demirdi. Bildiyim qədər ilə Murovdan başlamışdılar və Hadruta qədər getmişdilər. Murovdan Kəlbəcərə tərəf keçməli idilər. Döyüş yoldaşları danışır ki, komanda vermək həmin vaxt ona həvalə olunubmuş. Hamını səfərbər edib, ağır işi isə özünə götürüb. Çox çətin döyüş əməliyyatını yerinə yetirirmişlər.

Həmin gün, döyüşdən bir neçə saat əvvəl hamımıza zəng etdi və hamıya da eyni cavabı verdi ki, hər şey yaxşıdır, qaydasındadır, biz irəliləyirik, narahat olmayın. Səsində də bir yorğunluq, əzginlik, ruh düşkünlüyü yox idi. Əksinə döyüş ruhu var idi.

Bizimlə danışandan bir neçə saat sonra şəhid olub. Digər oğlum bunu bilib, səhərə kimi evə gəlməyib ki, birdən mən hiss edərəm. Səhəri gün gəlib dedi ki, qardaşım yaralanıb. Axşama kimi gözlədim. Allaha yalvardım ki, əli, qolu olmasın, amma nəfəsi gəlsin. Axşam bildim ki, məni aldadıblar. Deyirlər, ən yaxşı dərman zamandır. Amma övlad yarasının məlhəmi yoxdur. Onu heç bir həkim, loğman sağalda bilməz".

R.Mustafayeva Nurlanın həmişə Qarabağ dərdi çəkdiyini, işğaldan utandığını sözlərinə əlavə edib:

"Almaniyada təhsilinin birinci ili idi. Dedi, hər həftə bir əcnəbi kursant öz ölkəsinin ordusunun təqdimatını edir. Məndən atributları, məlumatları götürdü ki, o da təqdimat etsin. O biri həftə soruşdum ki, ay oğul, təqdimatın necə keçdi? Dedi, "ay ana, elə olmasa yaxşı idi". Niyə belə deməsi ilə maraqlandım. Bildirdi ki, ermənilərin də olduğu zalda iki saatlıq təqdimat edib, qürurla dayanıb. Birdən qeyri-millətlərdən biri ayağa durub deyib ki, "sən bayaqdan torpaqlarının 20 faizini işğalda saxlayan ordunu tərifləyirdin?". Oğlum yer yarılıb, içinə girib. İllərlə o xəcaləti ürəyində gəzdirdi. Deyirdi, heç yerdə ordumu tərifəyə bilmirəm. Qarabağın işğal olunmasını başıma qaxanc edirlər. Vətənə aid hər şeyi sevirdi. Millətini, insanlarını, torpağını... Deyirdi, qisas alınmasa, övladıma qalacaq.

2018-ci ildə Türkiyədə 23 ölkənin xüsusi təyinatlılarının iştirak etdiyi təlim yarışı keçirilirdi. Orada hətta ABŞ-ın da hərbçiləri var idi. Nurlangil yarışda birinci yerə çıxmışdılar. Müdafiə naziri Zakir Həsənov onu və bir neçə nəfəri şəxsən qəbul edib mükafatlandırmışdı. Çox güclü idi. Ona canavar deyirdilər".

Nurlan və Günay bu ilin mart ayının 8-i evləniblər. Şəhid xanımının sözlərinə görə, həyat yoldaşı ailəcanlı, üzü gülər, pozitiv insan olub.

"Cəmi 7 ay evli olduq. Həmişə mənə deyirdilər ki, hərbçi xanımı olmaq çətindir. Ailə qurandan sonra başa düşdüm ki, mənə nə demək istəyirmişlər. Onu hər təlimə, işə yola salanda narahatlıq, bir daha görməmək, itirmək qorxusu yaşayırdım. Sonuncu dəfə də bu hisləri keçirdim. Sentyabrın 25-i onu yola saldım. Sentyabrın 26-sı telefonla danışdıq, 27-si artıq ona zəng çatmırdı. Bir neçə gün əlaqəmiz olmadı, heç bir yerdən xəbəri gəlmədi. Ayın 30-u zəng vurub yaxşı olduğunu dedi. Ara-sıra zəng edib bir kəlmə



yaxşı olduğunu deyirdi. Sonuncu dəfə şəhid olduğu gün danışdıq. Ata olacağını eşidəndə çox sevinmişdi. Qız üçün ayrı, oğlan uşağı üçün ayrı planları var idi. Oğlu olacağını eşidəndə dedi, onun gələcəyi üçün planlarım çoxdur. Nurlan mükəmməl bir insan idi. Çox istəyirəm ki, doğulacaq övladımız ona bənzəsin. Onun adını daşısın, böyüyüb elə bir xarakterdə olsun", – deyə şəhid xanımı vurğulayıb.

Murovdağ, Füzuli, Hadruta qədər,
Olmusan savaşın tən ortasında.
Vətən qorumusan son nəfəsədək,
Ucasan sən sözün hər mənasında.

Neçə medal verib sənə prezident,
Dillərdə dastandır qəhrəmanlığın.
Ölırdın nə alsan əsgərinə də,
Budur igidliyin və insanlığın.

On dörd əsgərinlə Murov dağında,
Qorudun vətəni, bu milləti sən.
Polad Həşimovun yadigarıydın,
İndi də tanrının əmanətisən.

**Məmmədov Turxan Rizvan oğlu**



Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Turxan Rizvan oğlu Məmmədov 1998-ci il avqustun 9-da Gəncə şəhərində anadan olub.

Turxan Məmmədov 2005–2009-cu illərdə Gəncə şəhərində 32 nömrəli tam orta məktəbdə, 2015–2016-cı illərdə isə Gəncə şəhərində N. Aydın adına 18 nömrəli tam orta məktəbdə təhsil alıb.

2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra bərbər kimi çalışmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Turxan Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Turxan Məmxmədov sentyabrın 29-da Murovdağ döyüşləri zamanı Gamışdağ istiqamətində şəhid olub. Uzun müddət nəşi tapıla bilməyib. 08.12.2020-ci il tarixində Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarınaa əsasən Turxan Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", medalları ilə təltif olunmuşdur.



Bir şəhid tanıyıram,
Adı vətən boydadır,
Ruhu kainat boyda,
Özü bədən boydadır.

Vətən savaşı oldu,
Dayanmadı, durmadı.
Savaşda nə olacaq,
Soruşmadı, sormadı.

Tələsdi savaşlara,
Özün dağlara vurdu,
Gamışdağ ətəyində,
Düşmənə qan uddurdu.

Sonda vətəni üçün,
Bir canı min can etdi,
Sevdiyi vətəninə,
Canını qurban etdi.

İndi səmalardadır,
Süzür mələklər kimi.
Doğulur bu torpaqda,
Azad çiçəklər kimi.

## Kərimov Taleh Adil oğlu



Taleh Kərimov 1985-ci il martın 6-da Sumqayıt şəhərində anadan olub. 1992–1995-ci illərdə Sumqayıt şəhərinin Corat qəsəbəsində 7 nömrəli tam orta məktəbdə, 1995–2003-cü illərdə isə Məhəmməd Füzuli adına Tibb, Humanitar və Texniki Təmayüllü "İstedad" Liseyində təhsil alıb. Ali təhsilini isə 2003–2007-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Kəşfiyyatçı" ixtisası üzrə alıb.

2007-ci ilin iyun ayından 2008-ci ilin iyun ayına qədər Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Zabit" ixtisası üzrə təlimlərdə olan Taleh Kərimov, 2008-ci ilin iyun ayından 2010-cu ilin mart ayına qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində Motoatıcı Taborun Qərargah rəisinin Kəşfiyyat üzrə müavini və Kəşfiyyat Taqım Komandiri vəzifəsində xidmət edib.

Taleh Kərimov 2010-cu ilin mart ayından 2014-cü ilin yanvar ayına qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində Motoatıcı Taborun Qərargah rəisinin Kəşfiyyat üzrə müavini və Kəşfiyyat Taqım Komandiri vəzifəsində, 2014-cü ilin yanvar ayından 2016-cı ilin yanvar ayına qədər isə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsinin Kəşfiyyat bölməsinin və Kəşfiyyat rəisinin məlumatların toplanması üzrə rəisi vəzifəsində xidmət edib.

2016-cı ilin yanvar ayından 2016-ci ilin iyun ayına qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində Kəşfiyyat rəisi və Kəşfiyyat bölməsinin rəisi vəzifəsində xidmət edən Taleh Kərimov, 2016-cı ilin iyun ayından 2016-cı ilin noyabr ayına qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsi Kəşfiyyat rəisi və Kəşfiyyat bölməsinin rəisi, 2016-cı ilin noyabr



ayından 2018-ci ilin mart ayına qədər isə Azərbaycan Silahlı Qüvvələrinin 4-cü Ordu Korpusunda Kəşfiyyat şöbəsinin rəisinin məlumatların toplanması və təhlili üzrə müavini vəzifəsində xidmət edib.

Taleh Kərimov 2018-ci ilin mart ayından 2019-cu ilin noyabr ayına qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsin Kəşfiyyat rəisi və Kəşfiyyat bölməsinin rəisi vəzifəsində xidmət edib. Taleh Kərimov 2019-cu ilin noyabr ayından Azərbaycan Silahlı Qüvvələrinin Kəşfiyyat Baş İdarəsinin Qoşun Kəşfiyyatı İdarəsinin Planlaşdırma və Əlaqələndirmə şöbəsində xidmət edirdi.

Azərbaycan Ordusunun mayoru olan Taleh Kərimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Taleh Kərimov oktyabrın 30-da Qubadlı döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Taleh Kərimov ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Taleh Kərimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Taleh Kərimov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Şəhidlər can verərək,
Olur bizim canımız.
Ey kəşfiyyatçı igid,
Milli qəhrəmanımız.

Sən də o torpaqların,
Ümid yeri olmusan.
Kəşfiyyat tağımının,
Komandiri olmusan.

Olmusan əsgərlərə,
Nümunəvi komandir.
İndiysə səndən yazır,
Hər bir yazıçı, şair.

Çünki tarix olmusan,
Vətəni qoruyaraq,
Çox kitablar yazılar,
Sizlərdən varaq-varaq.

Sənin ayaq izin var,
Laçın, Murov dağında.
Füzuli, Cəbrayılda,
Qubadlı torpağında.



## Abdullayev Vaqif Rəşid oğlu



Şəhid olmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaq, əqidə var. Elə buna görə də onlar şüurlu şəkildə ölümü gözə ala bilirlər. Belə şəhidlərdən biri də Vaqif Abdullayevdir.

Abdullayev Vaqif Rəşid oğlu 1996-cı il oktyabrın 15-də Ağsu rayonunun Hacıqədirli kəndində anadan olub.

Azərbaycan Ordusunun əsgəri olan Vaqif Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Vaqif Abdullayev oktyabrın 6-da Laçında gedən döyüşlər zamanı yaralı yoldaşlarını çıxararkən şəhid olub. Ağsu rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamlarına əsasən Vaqif Abdullayev ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Səmaya əks olunmaq,
Surəti şəhid olmaq.
Hər insanın olmayır,
Qisməti şəhid olmaq.

Bu ad sənə yaraşdı,
Bu ada sən ucaldın.
Millətindən güc aldın,
Vətənindən güc aldın.

Kimsə gedə bilməyir,
Tanrının yanınacan.
Sən zəfər yolu çəkdin,
Ağsudan Laçınacan.

Məhv elədin düşməni,
Meydanları qan etdin,
Vətən və dost yolunda,
Canını qurban etdin.

Beləcə tarix oldun,
Zamanın yaddaşında,
Adın əzbər qalacaq,
Qəlbimizin başında.



## ÖLÜMƏ TƏLƏSƏN QADIN

Bir qadın da azaldı,
Azaldı yer üzündə,
İki damla yaş oldu,
Hamımızın gözündə.

Ömür belə dardısa,
Yox imiş heç mənası,
Getdi cənnətə sarı,
Şəhidlərin anası.

Çoxuna, o, bir yana,
Dünya bir yana idi.
Ana ola bilmədi,
Hamıya ana idi.

Kimlərə bacı idi,
Kimlərə qardaş idi,
Dərdlərinin şəriki,
Ruhuna sirdaş idi.

Yoxdu indi o qadın,
Sözlə doluydu, getdi,
Həqiqətin carçısı,
Haqqın yoluydu, getdi.

Getdi bu yer üzündən,
Getdi bir gecəyarı,
Susdu bütün səmalar,
Susdu tanrıya sarı.

Ağır oldu hər kəsə,
Gedişinin acısı,
Hamımızın qardaşı,
Hamımızın bacısı.

Əlvida deməyirəm,
Sənə tələsdi əcəl,
Bir gün yolun düşərsə,
Bu dünyaya bir də gəl.





## İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ŞƏHİD OLMUŞ HƏRBİ QULLUQÇULARIN SİYAHISI

1. Əsgər Abakarov Nail Müzəffər 24.07.2001
2. Əsgər Abasov Ağababa Səfər 14.03.2002
3. MAHHXHQ Əsgər Abasov Ayaz Nizami 20.12.1998
4. Kiçik gizir Abasov Davud Yalçın 19.11.1999
5. Əsgər Abasov Elvin Səxavət 17.06.1993
6. Əsgər Abasov Ruslan Hikmət 24.05.2000
7. Əsgər Abasov Samir Adəm 24.08.2001
8. Kiçik çavuş Abasov Seymur Adil 10.08.1999
9. MAHHXHQ Əsgər Abbasov Aysənan Əsgər 29.06.1992
10. MAHHXHQ Əsgər Abbasov Azad Novruz 06.07.1977
11. Gizir Abbasov Ceyhun Natiq 08.02.1986
12. Baş Leytenant Abbasbəyli Həmid Cavanşir 17.11.1991
13. Əsgər Abbasəliyev Hüseyn Adil 22.10.2000
14. Baş Leytenant Abbaslı Arif Firuz 15.12.1993
15. MAHHXHQ Əsgər Abbaslı Elgin Ağayar 16.05.1991
16. Əsgər Abbaslı Elgiz Fuad 21.05.1998
17. MAHHXHQ Kiçik Çavuş Abbaslı Elnur Yaşar 17.07.1992
18. MAHHXHQ Əsgər Abbaslı Hikmət Zahir 18.01.1999
19. MAHHXHQ Əsgər Abbaslı Munis Həbibullah 18.03.2000
20. Baş Leytenant Abbasov Ağaqardaş İlham 28.09.1992
21. MAHHXHQ Çavuş Abbasov Asim Rasim 26.05.1987
22. Əsgər Abbasov Aslan Vəliyəddin 25.12.1995
23. MAHHXHQ Əsgər Abbasov Bəşir Nizami 22.10.1998
24. MAHHXHQ Əsgər Abbasov Elcan Əfsəddin 23.09.2000
25. MAHHXHQ Əsgər Abbasov Elşən Qurban 30.12.1992
26. MAHHXHQ Baş Çavuş Abbasov Elvin Şamil 06.05.1992
27. Əsgər Abbasov Fərrux Azər 18.10.1994
28. MAHHXHQ Əsgər Abbasov İlham Əli 13.03.2000
29. Baş Gizir Abbasov İntiqam Yavər 21.09.1978

30. Əsgər Abbasov İsa Faiq 02.08.1996
31. Əsgər Abbasov Möhlət Eldəniz 19.03.2001
32. Əsgər Abbasov Murad Vasif 20.04.1998
33. Leytenant Abbasov Murtuz Çingiz 02.11.1998
34. Əsgər Abbasov Müşviq Qabil 16.04.1970
35. Əsgər Abbasov Nemət Elçin 04.08.1996
36. MAHHXHQ Baş Əsgər Abbasov Nihad Mövlüd 25.07.2000
37. Əsgər Abbasov Nurhan Əlastan 17.06.1991
38. Əsgər Abbasov Pünhan Nəsir 17.08.1997
39. MAHHXHQ Çavuş Abbasov Ramil Sabir 01.04.1989
40. Əsgər Abbasov Samir Azər 10.07.1997
41. MAHHXHQ Əsgər Abbasov Şamxal Xasay 14.02.1995
42. Əsgər Abbasov Səxavət Rizvan 25.04.2000
43. Kiçik Leytenant Abbasov Seymur Muşfiq 20.05.2000
44. Əsgər Abbasov Tacəddin Vüqar 10.12.2001
45. Leytenant Abbasov Teymur Feyruz 25.02.1981
46. MAHHXHQ Əsgər Abbasov Toğrul Bayram 31.12.1990
47. MAHHXHQ Əsgər Abbasov Tural Fəzayıl 19.10.1989
48. Əsgər Abbasov Vahid Sahib 11.11.1994
49. MAHHXHQ Əsgər Abbasov Vüsal Telman 12.08.1983
50. Əsgər Abbasov Zöhrab Natiq 17.09.2001
51. Əsgər Abbasov Zülfüqar Bayram 24.12.1995
52. Əsgər Abbasquliyev Nadir Elçin 06.12.1995
53. MAHHXHQ Əsgər Abdalov Nurlan Faiq 12.06.2000
54. Əsgər Abduləlimov Miqdad Faiq 23.03.2002
55. Əsgər Abduləzimli Emil Rasif 06.12.1994
56. Əsgər Abdullayev Balazadə Rafət 22.06.1991
57. Əsgər Abdullayev Cavid Vahid 23.04.2000
58. MAHHXHQ Əsgər Abdullayev Əkram Azad 21.02.1998
59. Baş Gizir Abdullayev Eldar Firidun 23.07.1981
60. MAHHXHQ Əsgər Abdullayev Elgün Əmirxan 01.04.1994
61. Əsgər Abdullayev Elməddin Telman 13.02.2001
62. MAHHXHQ Əsgər Abdullayev Elnur Təvəkkül 10.07.1983
63. Baş Leytenant Abdullayev Elşən Sabir 01.08.1992
64. MAHHXHQ Əsgər Abdullayev Gündüz Çingiz 01.12.1999



65. Gizir Abdullayev Hasil Miryusif 21.05.1985
66. Əsgər Abdullayev Həmdulla Aslan 19.03.1994
67. MAHHXHQ Çavuş Abdullayev Həsən Aydın 15.10.1990
68. MAHHXHQ Əsgər Abdullayev Həsən Qərib 21.06.1994
69. MAHHXHQ Əsgər Abdullayev Hikmət Şaiq 20.09.1998
70. Baş Leytenant Abdullayev İbrahim Habil 20.07.1994
71. Leytenant Abdullayev İntiqam Allahverdi 12.08.1998
72. MAHHXHQ Əsgər Abdullayev Məhəmməd Vaqif 19.04.1999
73. Gizir Abdulrəhmanov Şöhrət Böyükbəy 14.02.1991
74. Əsgər Abiyev Vasif Vaqif 28.12.1986
75. Əsgər Alıyev Qələndər Nofəl 31.10.2001
76. Əsgər Allahverdiyev Vilayət Valeh 19.08.2000
77. Əsgər Allahverdiyev Zöhrab Sübhan 28.09.2001
78. Əsgər Allahverənov Telman Fazil 07.07.1995
79. Gizir Abbasov Hüseyn Əlizadə 13.02.1993
80. Leytenant Abdullayev Kənan Mübariz 03.12.1990
81. Əsgər Abdullayev Məhəmməd Ramazan 03.05.1992
82. Əsgər Abdullayev Mərahim Aslan 27.03.2002
83. MAHHXHQ Əsgər Abdullayev Nicat Mirnəbi 04.09.1995
84. Əsgər Abdullayev Nihad Adil 13.04.2002
85. MAHHXHQ Əsgər Abdullayev Nurlan İnqilab 26.01.1992
86. MAHHXHQ Kiçik Çavuş Abdullayev Qəzənfər Nəcəf 10.05.1993
87. Tibb Xidməti Polkovnik Leytenant Abdullayev Rasim Yaqub 21.02.1975
88. Kapitan Abdullayev Rəşad Arif 14.09.1988
89. Əsgər Abdullayev Rəşid Abdulla 23.03.2002
90. Əsgər Abdullayev Samir İlham 28.07.1998
91. Kiçik Gizir Abdullayev Şəhriyar Kamil 02.03.1987
92. Əsgər Abdullayev Səməd Sədiyar 17.06.2002
93. Əsgər Abdullayev Sənan Şahin 01.11.1998
94. Gizir Abdullayev Sərxan Elxan 02.11.1988
95. Əsgər Abdullayev Taleh Məhərrəm 06.06.1993
96. MAHHXHQ Əsgər Abdullayev Taleh Temraz 08.02.1993
97. MAHHXHQ Əsgər Abdullayev Tosif Vidadi 08.12.1998
98. Kiçik Gizir Abdullayev Tural Bəylər 09.12.1993

99. MAHHXHQ, Baş Çavuş Abdullayev Tural Şakir 26.02.1990
100. Əsgər Abdullayev Vaqif Rəşid 15.10.1996
101. Əsgər Abdullayev Vüsal Şakir 15.03.1986
102. Baş Leytenant Abdullazadə Həsənağa Şakir 09.03.1993
103. MAHHXHQ Kiçik Çavuş Abdullazadə İmaməddin Əsgər 04.08.1996
104. Əsgər Abdullazadə Qasım Əli 27.07.1999
105. Əsgər Abdullazadə Teymur Faiq 24.06.2001
106. MAHHXHQ Kiçik Çavuş Abdullazadə Tağı İlham 04.05.1992
107. Əsgər Abdulov İdrət İbi 05.10.2001
108. Gizir Abdurahmanlı Sübhan Mahir 18.10.1992
109. Polkovnik-Leytenant Abdurahmanov Əfqan Ağasəf 25.05.1976
110. Gizir Abdurahmanov Elvin Əbülfəz 01.10.1996
111. Kapitan Abdurrəhmanov Hafiz Xalid 21.11.1989
112. Əsgər Abışev Telman Nadir 03.10.1995
113. MAHHXHQ Kiçik Çavuş Abışov Asif Əlövsət 16.05.1992
114. Gizir Abışov Babək Vaqif 25.04.1994
115. MAHHXHQ Əsgər Abışov Elnur Şaiq 01.09.1997
116. MAHHXHQ Əsgər Abışov Əmrah Səyyab 17.11.1999
117. Əsgər Abışov Fərid Əlfayım 28.11.1996
118. Əsgər Abışov Tacəddin Elşən 27.11.2001
119. Əsgər Abışov Ülvi Bayram 23.04.1997
120. Əsgər Abışov Zəka Zakir 19.03.2001
121. MAHHXHQ Kiçik Çavuş Abıyev İlkin İslam 18.01.1995
122. Mayor Abuşov Bəhruz Zabid 18.06.1983
123. Əsgər Adıgözəlov Cəmil Əli 29.04.2002
124. Əsgər Adıgözəlov Ceyhun Çoban 12.10.1994
125. MAHHXHQ Əsgər Adıgözəlov Faiq Mehdi 01.09.1996
126. MAHHXHQ Əsgər Adıgözəlov Cavid Gülhəsən 11.12.1995
127. MAHHXHQ Əsgər Adıgözəlov Fərid İlqar 08.09.1992
128. Əsgər Adilov Şirəli İlham 06.06.1996
129. Əsgər Adişov Qüdrət Rahim 26.07.1998
130. Əsgər Ağabalayev Sadiq Nadir 15.03.1998
131. Əsgər Ağabəyov Oktay Baxşəli 22.11.1987
132. Əsgər Ağacəfərli Ağamid Şirzaid 23.01.1995



133. Kiçik Gizir Ağaəhmədov Elnur Fəxrəddin 28.06.1998
134. Əsgər Ağahüseynli Səyyad Əliyar 30.01.2002
135. Əsgər Ağakərimov Elvin Eldəniz 01.04.2002
136. Əsgər Ağakişiyev İlkin Elxan 17.09.1995
137. Əsgər Ağakişiyev Nurlan Etibar 22.07.2002
138. Əsgər Ağalarlı Toğrul Daşqın 31.01.1995
139. MAHHXHQ Baş Çavuş Ağalarov Nahid Musa 14.12.1983
140. Əsgər Ağali Zaur Kamil 11.12.1996
141. MAHHXHQ Əsgər Ağaliyev Müzəffər Vahid 30.12.1981
142. Əsgər Ağamalıyev Ağamməd Elgiz 16.11.1990
143. Leytenant Ağamaliyev Şəhriyar Əvəz 28.09.1989
144. Əsgər Ağaməmmədov Xəyal Salam 23.08.1992
145. Baş Gizir Ağamirov Şixmir Qabil 05.04.1990
146. MAHHXHQ Əsgər Ağaquliyev İlkin Saməddin 04.10.2000
147. Əsgər Ağaquliyev Tofiq Rafiq 01.12.2000
148. Əsgər Ağasiyev Elşən Ağabala 22.09.1999
149. MAHHXHQ Əsgər Ağaşov Famil Vüqar 19.09.1998
150. Əsgər Ağayev Ağa Əli 04.04.2001
151. MAHHXHQ Kiçik Çavuş Ağayev Ağabala İlqar 18.03.1997
152. Kiçik Gizir Ağayev Ağali Tağı 29.04.1995
153. Əsgər Ağayev Ağamali Şamil 23.09.1996
154. Əsgər Ağayev Ağamir Qüdrət 14.07.1996
155. Əsgər Ağayev Aqşin Şirvan 01.06.1993
156. Əsgər Ağayev Cavanşir Niyaməddin 01.05.1999
157. Əsgər Ağayev Cavidan Mirzağa 16.07.2001
158. Gizir Ağayev Cəlal Ağaverdi 04.12.1984
159. Əsgər Ağayev Ceyhun Cəmil 09.08.1991
160. MAHHXHQ Kiçik Çavuş Ağayev Daşqın Əliqulu 21.11.1987
161. Əsgər Ağayev Əmirağa Mahir 29.05.2002
162. Əsgər Ağayev Əhəd Bilal 17.01.1986
163. Baş Leytenant Ağayev Elçin Zakir 07.07.1993
164. Əsgər Ağayev Elvin Valeh 25.11.1997
165. Polkovnik-Leytenant Ağayev Həmdəm Mayıl 09.09.1975
166. MAHHXHQ Kiçik Çavuş Ağayev İldırım Qafqaz 02.05.1998
167. Gizir Ağayev İlkin Tehran 02.06.1986

168. Əsgər Ağayev İntiqam Hüseyn 01.03.1998
169. Əsgər Ağayev Mənsur Ağa 29.07.1994
170. T/X Leytenantı Ağayev Mirlətif Mirislam 20.11.1990
171. MAHHXHQ Əsgər Ağayev Naim Süleyman 29.08.1998
172. Əsgər Ağayev Ramil Ağarəhim 20.09.1994
173. Mayor Ağayev Ramil Mərdan 20.12.1984
174. MAHHXHQ Əsgər Ağayev Ramiq Təhsin 12.02.1992
175. MAHHXHQ, Çavuş Ağayev Ramiz İmamverdi 25.07.1993
176. Əsgər Ağayev Rəşad Rövşən 02.07.2000
177. Əsgər Ağayev Şahin Azər 13.12.1993
178. Kiçik Gizir Ağayev Saleh Nurəddin 30.04.1992
179. MAHHXHQ Kiçik Çavuş Ağayev Tapdıq Çingiz 02.12.1990
180. Əsgər Ağayev Ülvi Valeh 09.03.1993
181. Əsgər Ağayev Vahid Məcnun 14.09.1996
182. Mayor Ağayev Vüqar Əhməd 04.03.1973
183. Əsgər Ağayev Xəlil Pənah 07.12.1998
184. Kiçik Çavuş Ağayev Zabil Azər 01.03.1994
185. Əsgər Ağayev Zamin Zülfiqar 11.05.2002
186. Baş Gizir Ağayev Zülfü Ağalı 01.02.1977
187. Əsgər Ağazadə Emin Valik 22.03.1991
188. Əsgər Ağazadə Sənan Nizami 01.05.2000
189. Əsgər Ağazadə Murad İkram 13.07.2000
190. Əsgər Akifzadə Elmir Gündüz 01.09.1997
191. MAHHXHQ Əsgər Alişanlı Amal Seyfəddin 11.02.2001
192. Əsgər Alışov Samir Cəlil 23.08.1997
193. MAHHXHQ çavuş Alışov Ülvi İlham 11.01.2000
194. Mayor Alıyev Elçin Bayram 16.07.1975
195. Gizir Alıyev Laçın Rasim 22.01.1992
196. Gizir Alıyev Vahid Abbas 18.02.1989
197. Əsgər Alızadə Seymur Mirzə 12.01.1998
198. Əsgər Allahverdiyev Allahverdi Əli 09.07.2001
199. MAHHXHQ Əsgər Allahverdiyev Asiman Niyaz 23.08.1998
200. Baş leytenant Allahverdiyev Babək Bəxtiyar 30.05.1979
201. Əsgər Allahverdiyev Elnur Kamil 12.07.2001
202. Baş leytenant Allahverdiyev Elşad Zaməddin 05.04.1997



203. Əsgər Allahverdiyev İsgəndər Nəsir 02.04.1999
204. Əsgər Allahverdiyev Kənan Mərdan 10.02.2002
205. Kiçik Leytenant Allahverdiyev Namaz Baxış 13.06.2000
206. Əsgər Allahverdiyev Nazir Xasay 20.04.2001
207. MAHHXHQ Kiçik Çavuş Allahverdiyev Rövşən Fərrux 10.11.1991
208. Əsgər Allahverdiyev Sakit Şahin 24.12.2001
209. Əsgər Allahverdiyev Samir Elçin 07.06.2001
210. MAHHXHQ Kiçik Çavuş Allahverdiyev Seymur Qərib 01.06.1985
211. Əsgər Allahverdiyev Süleyman Etibar 22.09.1996
212. Əsgər Allahverdiyev Tacir Xasay 20.04.2001
213. MAHHXHQ Əsgər Allahverdiyev Turxan Rəsul 05.04.1996
214. MAHHXHQ Kiçik Çavuş Allahverdiyev Vidadi Fazil 13.03.1988
215. Əsgər Allahverdiyev Vüsal Novruz 25.07.2002
216. Əsgər Allahverdiyev Vüsal Tahir 16.08.1988
217. Əsgər Allahverdizadə Elnur Əli 15.05.1995
218. MAHHXHQ Əsgər Allahverənov Məhəmməd Zöhrab 08.09.1995
219. Baş Gizir Allahyarov Şahin Hüseynbala 29.01.1993
220. MAHHXHQ Baş Çavuş Allahyarov Vüsal Şakir 22.04.1988
221. Gizir Alməmmədov Emin Akif 27.02.1989
222. MAHHXHQ Əsgər Alməmmədov İman Tarverdi 17.05.1999
223. MAHHXHQ Əsgər Alməmmədov Təbriz Letman 28.11.1995
224. Baş Leytenant Alqayev Harun Məhəmməd 14.07.1992
225. Əsgər Alxaslı Rəvan Cəmil 01.01.1996
226. MAHHXHQ Əsgər Alxasov Elməddin Rəsul 29.09.1994
227. Əsgər Amanaliyev Tərlan Rövşən 15.07.1995
228. MAHHXHQ Əsgər Amanov Əhməd Tahir 04.09.1994
229. Əsgər Arazov Elçin Eldar 08.08.2001
230. Əsgər Arazov İkraməddin Qüdrət 07.09.2001
231. Əsgər Arazov Səyyar Güloğlan 21.07.1987
232. Əsgər Aslanlı Orxan Şahmar 20.11.1992
233. Gizir Aslanov Ağasadıq Xəlil 01.03.1991
234. Əsgər Aslanov Ataş Yusif 01.04.1993
235. Gizir Aslanov Babək Sakit 15.11.1994
236. MAHHXHQ Əsgər Aslanov Bəxtiyar İlqar 28.12.1998
237. Əsgər Aslanov Elşən Alxas 29.09.1999

238. MAHHXHQ Əsgər Aslanov Rəşad Taryel 16.03.1984
239. Əsgər Aslanov Röyal Elzar 17.05.2001
240. Əsgər Aslanov Taleh Elman 01.12.1996
241. Leytenant Aslanov Tural Elşən 05.06.1992
242. Gizir Aslanov Xəyal Qüdrət 05.03.1994
243. Əsgər Astanlı İqbal İlqar 10.08.1997
244. Əsgər Atakişiyev Kamil Araz 12.06.2000
245. Əsgər Atakişiyev Ramiz Rafiq 04.03.1996
246. Əsgər Atakişiyev Rüstəm Zahid 24.12.2000
247. Leytenant Atakişiyev Tərlan Dərgah 23.02.1977
248. MAHHXHQ Əsgər Atakişiyev Toğrul Ramil 25.02.2000
249. Əsgər Ataşov Asif Kərim 10.04.2002
250. Leytenant Atayev Nicat Habil 05.03.1994
251. MAHHXHQ Əsgər Atayev Taryel Fəxrəddin 05.09.1986
252. Əsgər Abdıyev Orxan Habil 02.08.1995
253. Əsgər Axundov Əfqan Hüseyn 16.02.2000
254. Əsgər Axundov Eşqin İntiqam 03.01.2000
255. Miçman Axundov Mirzə Musa 15.03.1984
256. MAHHXHQ Əsgər Axundzadə Kənan Hamil 02.08.1994
257. MAHHXHQ Əsgər Aydəmirov Beyrək Etibar 13.08.1990
258. MAHHXHQ Əsgər Aydəmirov Nizami Elçin 11.03.1993
259. Əsgər Ayvazov Həsən Cəlil 21.08.2000
260. Əsgər Azadlı Eltac Sədrəddin 22.03.1992
261. Əsgər Azadlı Zabil Tələt 01.01.1999
262. Mayor Azayev Asif Məhəmmədağa 01.02.1985
263. Gizir Azayev Sadiq Xubyar 11.08.1992
264. Əsgər Azayev Ülvi Maqsud 04.12.2001
265. Baş Leytenant Bababəy Şamil Nazim 04.01.1994
266. Baş Leytenant Babaşov Bayram İlqar 10.07.1993
267. MAHHXHQ Kiçik Çavuş Babaşov Hikmət Firudin 03.02.1977
268. Kapitan Babaxanov Elman Ağamirzə 17.12.1993
269. Əsgər Babayev Ağaşirin Firuz 16.05.2001
270. MAHHXHQ Kiçik Çavuş Babayev Allahverdi Ələt 24.03.1989
271. MAHHXHQ Əsgər Babayev Alməmməd Qərib 23.11.2000
272. MAHHXHQ Əsgər Babayev Babaxan Əlövsət 10.02.1996



273. Əsgər Babayev Cavad Gülverdi 28.11.1998
274. Əsgər Babayev Çingiz Sulduz 21.09.2001
275. Leytenant Babayev Əli Həsən 14.11.1997
276. Əsgər Babayev Elman Telman 01.11.1994
277. Gizir Babayev Elməddin Cəfərqulu 26.10.1981
278. Əsgər Babayev Elvin Əkbər 28.02.2001
279. Əsgər Babayev Əmirxan Mirilham 28.11.1998
280. MAHHXHQ Çavuş Babayev Fariz Zakir 15.02.1984
281. Əsgər Babayev Fərhad Məhərrəm 30.01.1992
282. Əsgər Babayev İqbal Zəki 10.09.1995
283. Əsgər Babayev Kamal Eynulla 27.05.1991
284. Baş Gizir Babayev Murad Nadir 31.03.1982
285. Əsgər Babayev Mustafa Elman 04.11.2000
286. MAHHXHQ Kiçik Çavuş Babayev Muxtar Rəhim 25.12.1987
287. Kapitan Babayev Nihad Akif 30.08.1991
288. Əsgər Babayev Orxan Sarvan 17.04.2001
289. MAHHXHQ Kiçik Çavuş Bağırov Elçin Fəhrad 27.04.1989
290. MAHHXHQ Əsgər Bağırov Elnur Sahib 16.04.1993
291. MAHHXHQ Baş Çavuş Babayev Orxan Sədail 24.12.1994
292. Əsgər Babayev Pərvin Hüseyn 26.09.2001
293. Mayor Babayev Rahib Bəxtiyar 19.06.1985
294. Baş Leytenant Babayev Ramil Taqət 12.12.1991
295. Gizir Babayev Rəşad Ağabəy 04.06.1992
296. Əsgər Babayev Rəşad İlham 15.03.1999
297. Əsgər Babayev Sahil Coşqun 05.06.2002
298. Kapitan Babayev Şamil Baloğlan 26.01.1988
299. Əsgər Babayev Samsun Şəmsəddin 03.04.2001
300. Əsgər Babayev Taleh Xanmurad 02.12.1986
301. Əsgər Babayev Vüqar İlham 04.07.2001
302. Baş leytenant Babayev Vüsal Sübbuh 08.01.1992
303. Əsgər Babazadə Babazeynal Maqsud 01.07.2001
304. MAHHXHQ Kiçik Çavuş Babazadə Məhəmməd Cavanşir 05.05.1995
305. MAHHXHQ Əsgər Babazadə Mirşəmsi Elşad 20.02.1996
306. Əsgər Babazadə Ülfət Qabil 28.01.2001

307. Əsgər Babazadə Xaqani Anar 13.02.2001
308. Əsgər Babazadə Yolçu Bəhruz 20.01.2002
309. Əsgər Bağırlı Hikmət Qəhrəman 29.09.2001
310. Kiçik Gizir Bağırlı Mirsədi Mircəfər 12.06.2000
311. Əsgər Bağırov Aqil Fazil 01.05.1995
312. Əsgər Bağırov Elçin Yunus 17.06.1994
313. MAHHXHQ əsgər Bağırov Elnur Zeynal 06.03.1996
314. Əsgər Babayev Rauf Fəxrəddin 05.06.2001
315. Əsgər Bağırov Əli Eltay 15.12.1994
316. Gizir Balayev Orxan Vidadi 18.09.1998
317. Gizir Bayramov Samir Elxan 15.08.1996
318. MAHHXHQ əsgər Bayramov Şahin Arif 14.01.1992
319. Əsgər Bəkirli Azad Rasim 27.09.1992
320. Əsgər Bəkirov Yasər Əfqan 19.05.2002
321. MAHHXHQ Kiçik Çavuş Bağırov Eşqin Rafiq 01.04.1991
322. Əsgər Bağırov Məmmədağa Həsənağa 02.12.1997
323. MAHHXHQ Çavuş Bağırov Namiq Nurəddin 30.08.1984
324. Əsgər Bağırov Nurlan İsmayıl 21.01.2001
325. MAHHXHQ Əsgər Bağırov Ramin Nəriman 19.04.1999
326. Əsgər Bağırov Süleyman Kamil 20.01.1995
327. Leytenant Bağırov Süleyman Loğman 01.02.1992
328. Əsgər Bağırzadə Mahsun Zahir 30.05.1998
329. Əsgər Bağırzadə Sadiq Şahin 15.04.2002
330. Əsgər Bahadurov Anar Süleyman 26.06.1992
331. MAHHXHQ Kiçik Çavuş Bahadurzadə Vüqar Məmməd 22.07.1993
332. MAHHXHQ Əsgər Balabəyov Pərviz Tofiq 14.06.1987
333. Əsgər Balabəyov Ramil Ruslan 21.02.2001
334. MAHHXHQ Əsgər Balacayev Qərib Nəsib 25.12.1997
335. MAHHXHQ Əsgər Baladov Ruslan Allahyar 18.09.1997
336. Əsgər Balağayev Seyfəddin Vahid 06.03.1998
337. MAHHXHQ Kiçik Çavuş Balakişiyev Qara Əmirxan 11.07.1994
338. Əsgər Balakişiyev Xəyal Müseyib 17.10.1994
339. Əsgər Balakişiyev Zamin Dadaş 27.04.2001
340. Mayor Baliev Hüseynağa Salman 22.12.1987
341. Əsgər Baloğlanlı Elşad Elşən 18.01.2002



342. Əsgər Baxışov Cahangir Əmrah 01.04.2001
343. MAHHXHQ Əsgər Baxışov Hakim Səyyar 13.12.2000
344. Əsgər Baxışov İlqar Adışirin 21.11.2000
345. Əsgər Baxışov Sadiq Bəkir 02.12.2001
346. QHQ əsgər Baxışova Arəstə Kərim 04.05.1989
347. Əsgər Baxşalıyev Nicat Ziyafət 16.06.1993
348. MAHHXHQ Çavuş Baxşəliyev Araz Yavər 18.09.1993
349. Əsgər Baxşəliyev İnam Rasim 20.02.1993
350. Polkovnik-Leytenant Baxşəliyev Qərib İnqilab 22.05.1977
351. Leytenant Baxşəliyev Natiq Saleh 07.07.1980
352. Əsgər Baxşiyev Eldar Sultan 07.10.1998
353. MAHHXHQ Əsgər Baxşiyev Vahid Məclum 17.05.1999
354. Leytenant Bayramlı Elmar İsa 02.09.1998
355. MAHHXHQ Əsgər Bayramlı Tural Ədil 10.02.1996
356. Əsgər Bayramov Aydın Mətləb 02.08.1997
357. Əsgər Bayramov Cavid Azər 29.06.1997
358. Əsgər Bayramov Cəlal Yaqub 20.12.1994
359. Əsgər Bayramov Coşğun Ənvər 25.05.1991
360. Mayor Bayramov Elburus Eyvaz 01.12.1986
361. Əsgər Bayramov Elcan Qoşqar 03.08.2001
362. Əsgər Bayramov Əli Nadir 24.03.1999
363. Əsgər Bayramov Elmin Elməddin 24.06.2002
364. Əsgər Bayramov Elnur Şəmsi 25.01.1992
365. MAHHXHQ Əsgər Bayramov Elvin Elçin 22.01.1998
366. Əsgər Bayramov Elvin İslam 08.07.1999
367. Əsgər Bayramov Əmrah Hüseyn 18.01.2001
368. Kiçik Çavuş Bayramov Fərrux Bayram 24.01.1990
369. MAHHXHQ Əsgər Bayramov Həsən Bəhrəm 17.06.1992
370. Əsgər Bayramov Həsən Ağaisa 22.06.2001
371. Mayor Bayramov İqbal Əhmədağa 04.07.1977
372. Əsgər Bayramov Məmməd Arif 23.11.2000
373. Əsgər Bayramov Orxan Surxay 29.01.1993
374. MAHHXHQ Əsgər Bayramov Osman Zeyqəm 13.02.1987
375. Baş Leytenant Bayramov Ramin Hüseynağa 08.10.1979
376. Əsgər Bayramov Rəhman Dilcan 20.08.1993

377. Baş leytenant Bayramov Ruslan Azər 05.10.1996
378. Əsgər Bayramov Ruslan Telman 15.06.1996
379. Əsgər Bayramov Səddam Ələddin 29.01.2002
380. Əsgər Bayramov Səid Eldəniz 20.11.1999
381. Gizir Bayramov Xəqani Məmməd 17.11.1990
382. MAHHXHQ Əsgər Bayramov Xəzər Azad 14.11.1997
383. Əsgər Bayramov Səlimxan Vüqar 13.07.1998
384. Əsgər Bayraxtarov Batdal Mikail 01.04.2002
385. MAHHXHQ Əsgər Bədəlov Elməddin Dəyanət 06.03.2000
386. Baş gizir Bədəlov Oktay Ələddin 27.10.1984
387. Əsgər Bədəlov Səhman Bəhmən 14.08.2001
388. Baş Leytenant Bədəlov Valeh Vahid 10.10.1990
389. MAHHXHQ Kiçik Çavuş Bədirov Murad Qismət 25.01.2001
390. Əsgər Bədirov Nəcməddin Nurəddin 08.11.2001
391. Əsgər Behbudlu Behbud Rübail 09.09.2001
392. Əsgər Behbudov Nofəl Həmid 07.06.2001
393. Əsgər Bəhmanlı Manaf Bəhman 02.01.1998
394. MAHHXHQ Çavuş Bəkirov Bəxtiyar Yavər 18.05.1981
395. Əsgər Bəkirov Təbriz Etibar 26.01.1993
396. Əsgər Bəktiyev Müşfiq Abbas 24.01.2002
397. Əsgər Bəndəliyev Əliəkbər Qulu 23.04.2001
398. Mayor Bərxudarov Toğrul Məmməd 30.06.1987
399. Əsgər Bəşirov Akif Vahid 08.11.1988
400. MAHHXHQ Əsgər Bəşirov Əyyub Ramis 24.11.1998
401. Leytenant Bəşirov Hakim Nizam 02.03.1989
402. Əsgər Bəşirov Rəhman Eyvaz 20.03.2002
403. Əsgər Bəşirzadə Hüseyn Xanhüseyn 28.05.1994
404. Əsgər Bəxtiyarov Orxan Sərvər 13.09.1991
405. MAHHXHQ Əsgər Beydiyev Nazim Eynulla 24.01.1991
406. MAHHXHQ Əsgər Bəyişli Elgün Teyuf 06.03.1996
407. Əsgər Bəylərov Elnur Ehdibar 15.05.1998
408. MAHHXHQ əsgər Bəylərov Seymur Səlyəddin 24.06.1996
409. Əsgər Bəyverdiyev Rafik Nurməhəmməd 01.06.1998
410. Əsgər Bilalov Abdulcəmil Xaqani 09.01.1997
411. Əsgər Binnətov Ruslan Rafiq 22.08.2001



412. Mayor Budaqov Rəşad Ramiz 13.03.1986
413. Gizir Budaqov Rufiz Şirzad 12.07.1977
414. Əsgər Budaqov Yusif Ramiq 11.10.1997
415. Əsgər Bünyadlı Rəvan Asif 05.08.2001
416. Əsgər Burcəliyev İlqar Vüqar 11.03.2001
417. Əsgər Cabarzadə Cavid Qorxmaz 10.08.1997
418. Əsgər Cabbarov Akif Elxan 24.11.1997
419. Əsgər Cabbarov Əli Baba 08.01.2002
420. MAHHXHQ Əsgər Cabbarov Elnur Şahmurad 15.09.1994
421. Əsgər Cabbarov Muraz İlham 07.03.2000
422. MAHHXHQ Əsgər Cabbarov Oruc Akif 06.12.1999
423. Kiçik Gizir Cabbarov Orxan Rövşən 20.11.1995
424. Əsgər Cabbarov Şahgündüz Habil 13.01.1995
425. Əsgər Cabbarov Səlim Qılman 06.02.2002
426. Kapitan Cabbarov Seymur İlham 16.03.1987
427. MAHHXHQ əsgər Cabbarov Şöhrət Əli 28.04.1995
428. Gizir Cabbarov Vidadi Cəbrayıl 28.03.1997
429. Gizir Cabbarzadə Məmmədiyə Məhəmməd 10.12.1986
430. MAHHXHQ Əsgər Calalzadə Calal Qaryağdı 17.10.1993
431. Əsgər Cahangirov Rauf Xəyyam 24.08.1998
432. Gizir Cavadlı Nemət Cavid 03.06.1995
433. MAHHXHQ Kiçik Çavuş Cavadov Canlar Aqil 18.06.1980
434. Kapitan Cavadov Cəlil Ağaddin 29.03.1989
435. Əsgər Cavadov Ələsgər Elxan 29.12.2000
436. Leytenant Cavadov Namiq Rəhbər 07.11.1973
437. MAHHXHQ Əsgər Cavadov Ramin Emin 19.04.2000
438. MAHHXHQ Çavuş Cavadov Yalçın Aydın 19.05.1985
439. Əsgər Cavadzadə Anar Tahir 29.04.1990
440. Əsgər Cavadzadə Şaiq Faiq 28.11.1995
441. MAHHXHQ Əsgər Cəbiyev Qardaşağa Nizami 13.01.1997
442. Əsgər Cəbizadə Əbil Qadir 26.02.1993
443. MAHHXHQ Çavuş Cəbrayıllı İbrahim Raqub 03.02.1999
444. MAHHXHQ Kiçik Çavuş Cəbrayılov Elçin Surxay 10.01.1982
445. Kapitan Cəbrayılov Elnur Tofiq 26.04.1981
446. Əsgər Cəbrayılov Rahib Ramil 26.12.2001

447. Baş Gizir Cəbrayılov Sübhan Rahim 23.10.1983
448. Əsgər Cəbrayılov Xəyal Rafiq 01.09.1998
449. Əsgər Cəfər Osman Elsevər 17.06.1998
450. Əsgər Cəfərli Asim Çingiz 04.09.2001
451. Əsgər Cəfərli Əli İsa 29.08.2001
452. MAHHXHQ Əsgər Cəfərli Elşən Rəfail 02.09.2000
453. Əsgər Cəfərli Əmrah Yusif 22.01.1997
454. Kapitan Cəfərli Həmid Kərim 01.08.1990
455. Gizir Cəfərli Orxan Etibar 16.02.1996
456. MAHHXHQ Əsgər Cəfərli Cəfər Babacəfər 11.12.1999
457. MAHHXHQ Əsgər Cəfərli Röyal İkrəm 01.01.1998
458. Əsgər Cəfərli Ruslan Nəcəf 25.05.1995
459. Əsgər Cəfərli Şahin Şamil 28.06.1994
460. Gizir Cəfərli Xəyal Xəlil 09.07.1992
461. MAHHXHQ Əsgər Cəfərov Anar Eyvaz 19.12.1977
462. Əsgər Cəfərov Ayxan Cəmaləddin 06.09.1996
463. Əsgər Cəfərov Babək Məhsus 15.08.1991
464. Əsgər Cəfərov Balaş Namiq 18.07.2002
465. MAHHXHQ Əsgər Cəfərov Cavid Fərhad 01.12.1993
466. MAHHXHQ Əsgər Cəfərov Cəlil Sulduz 08.08.1998
467. Əsgər Cəfərov Əli Bəyulla 29.08.1993
468. Əsgər Cəfərov Elmar İlham 02.05.1995
469. Gizir Cəfərov Elməddin Hümbət 21.09.1987
470. MAHHXHQ Əsgər Cəfərov Elnur Cəmiyyət 28.08.1998
471. Əsgər Cəfərov Elyəddin Zöhrab 24.05.1995
472. Gizir Cəfərov Etibar Teyyub 02.04.1983
473. Əsgər Cəfərov Fərid İsmixan 13.01.1998
474. Əsgər Cəfərov İbrahim Şamil 13.01.1998
475. Baş leytenant Cəfərov Mətləb Məhəmməd 19.11.1977
476. Əsgər Cəfərov Mirmuraz Mirbaba 26.05.1997
477. MAHHXHQ Əsgər Cəfərov Mübariz Qulu 05.11.1983
478. MAHHXHQ Əsgər Cəfərov Təbriz İlqar 14.07.1995
479. Əsgər Camalzadə Famil Hicran 12.01.1996
480. Əsgər Cavadov Mahmud Heydər 13.04.1999
481. Əsgər Cəbrayılov Ağacan Zakiroviç 20.05.2002



482. MAHHXHQ Əsgər Cəfərov Araz Səmədağa 28.01.1993
483. Əsgər Cəfərov Surxay Cümşüd 17.02.1986
484. Əsgər Cəfərzadə Tarif Qədim 01.01.2002
485. Əsgər Cəfərov Oruc Vaqif 23.02.1994
486. Əsgər Cəfərov Rahid Namik 11.02.2002
487. Polkovnik-Leytenant Cəfərov Ramiz Sübhan 10.12.1974
488. MAHHXHQ Əsgər Cəfərov Röyal Vaqif 07.12.1991
489. Mayor Cəfərov Ruslan Gündüzoviç 19.11.1976
490. MAHHXHQ Əsgər Cəfərov Ruslan Mövlan 02.08.2000
491. Mayor Cəfərov Şahlar Fəzail 05.06.1975
492. MAHHXHQ Baş çavuş Cəfərov Səid Zəfər 04.02.1993
493. Əsgər Cəfərov Şəmsi Mahir 27.08.2001
494. Əsgər Cəfərov Sübhan Mehman 10.06.1999
495. Əsgər Cəfərov Tacir Fariz 09.02.2001
496. MAHHXHQ Əsgər Cəfərov Tehran Nadir 12.03.1992
497. MAHHXHQ Əsgər Cəfərov Ülvi Habil 16.01.1998
498. MAHHXHQ Baş çavuş Cəfərov Vüqar İnşallah 23.03.1991
499. MAHHXHQ Əsgər Cəfərov Vüsal Şəfi 16.01.1996
500. MAHHXHQ Əsgər Cəfərov Vüsal Sərhədxan 06.03.1989
501. MAHHXHQ Əsgər Cəfərov Vüsal Saxləddin 01.03.1990
502. Əsgər Cəfərov Yusif Mübariz 25.04.1996
503. Polkovnik-leytenant Cəfərov Zaur Hüseyn 04.03.1980
504. Əsgər Cəfərzadə Eşqin Hamlet 20.04.1997
505. Əsgər Cəfərzadə İsrayıl Namiq 30.09.2000
506. Əsgər Cəlilov Elcan Famil 27.04.1996
507. MAHHXHQ Əsgər Cəlilov Həsən Məhərrəm 30.03.1995
508. MAHHXHQ Əsgər Cəlilov Sahil Oktay 17.05.1998
509. Əsgər Cəlilov Şöhrət Cəfər 11.01.1998
510. Əsgər Cəlilov Tural Callad 10.04.1996
511. Əsgər Cəlilov Xaləddin Asəf 13.04.2002
512. Gizir Cəmilli Şakir Arif 04.12.1992
513. Gizir Cəmilli Xəqani Mənsur 22.02.1995
514. Kapitan Cəmiyev Aşur Bəybala 18.06.1989
515. Gizir Çobanov Orxan Zahid 02.08.1997
516. MAHHXHQ Əsgər Cumayev Orxan Fətəli 14.01.2000

517. Əsgər Cümşüdov Orxan Sabutay 01.09.1993
